# GİZLİ TƏHLÜKƏ: QƏFLƏT



**HARUN YƏHYA**
**(ADNAN OKTAR)**

İnsanların böyük əksəriyyəti Allah'ın açıq ayələrindən, əmr və qadağalarından xəbərsiz şəkildə yalnız öz istək və arzuları yönündə yaşayırlar. Halbuki, yalnız qısa müddət yaşadıqları dünya həyatı hər şeyi ilə bir gün sona çatacaq. Onlar isə özləri və Allah'ın rizasından uzaq həyat sürən digər insanlar üçün hazırlanmış şiddətli və əbədi əzabdan xəbərsizdirlər. Qəflət bütün insanlar üçün diqqətli olmayıb Allah'a könüldən boyun əymədiyi müddət boyu böyük təhlükədir. Çünki qəflətdə olan və ya qəflətə düşürülən bir adam Qurandakı əmr və qadağalara səmimi olaraq tabe olmadığının, bundan başqa, hər an qəflətə düşəcəyinin və ya düşünmədiyi müddətdə olduğu vəziyyətin fərqində ola bilməz. Dolayısilə, bu kitabı görən hər oxucu özünün də qəflətdə olacağını ehtimal edib oxumalı və özünü müstəğni, yəni gizli təhlükədən uzaqda və amanda görməməlidir. Çünki Rəbbimiz Quranda **"Xeyr! İnsan, doğrudan da, həddini aşır, özünün ehtiyacsız olduğunu zənn etdiyinə görə."** (Ələq surəsi 6-7) buyurmuşdur.

Bu kitabda qəflətin Qurana əsasən nə olduğu açıqlanır və insanlar bu gizli təhlükəyə qarşı xəbərdar edilir.



**MÜƏLLİF HAQQINDA:** Harun Yəhya imzasından istifadə edən Adnan Oktar 1956-cı ildə Ankarada anadan olub. 1980-ci illərdən bəri imani, elmi və siyasi mövzularda bir çox əsər yazıb. Bununla yanaşı, müəllifin təkamülçülərin saxtakarlıqlarını, iddialarının əsassızlığını və darvinizmin qanlı ideologiyalarla qaranlıq əlaqələrini üzə çıxaran çox mühüm əsərləri var.

Müəllifin bütün əsərlərindəki ortaq məqsəd Quranın təbliğini dünyaya çatdırmaq, beləliklə, insanları Allah'ın varlığı, birliyi və axirət kimi əsas imani mövzular üzərində düşünməyə sövq etmək və inkarçı sistemlərin əsassız təməllərini və batil əməllərini nümayiş etdirməkdir. Belə ki, müəllifin bu günə qədər 73 müxtəlif dilə tərcümə edilən 300-dən çox əsəri dünya səviyyəsində geniş oxucu kütləsi tərəfindən oxunur. Harun Yəhya Külliyyatı, Allah'ın izni ilə XXI əsrdə dünyadakı insanları Quranda tərif edilən hüzur və sülhə, doğruluq və ədalətə, gözəllik və xoşbəxtliyə aparmağa səbəb olacaqdır.


بسم الله الرحمن الرحيم
الله
رسول
محمد




# GİZLİ TƏHLÜKƏ QƏFLƏT

**Harun Yəhya (Adnan Oktar)**



## YAZIÇI VƏ ƏSƏRLƏRİ HAQQINDA

Harun Yəhya təxəllüsündən istifadə edən yazıçı Adnan Oktar 1956-cı ildə Ankarada anadan olmuşdur. İbtidai və orta təhsilini Ankarada almışdır. Daha sonra İstanbul Memar Sinan Universitetinin İncəsənət fakültəsində və İstanbul Universitetinin Fəlsəfə bölməsində təhsil almışdır. 1980-ci illərdən bu yana imani, elmi və siyasi mövzularda bir çox əsər hazırlamışdır. Bununla yanaşı, yazıçının təkamülçülərin saxtakarlıqlarını, iddialarının əsassızlığını və darvinizmin qanlı ideologiyalarla olan qaranlıq əlaqələrini ortaya qoyan çox əhəmiyyətli əsərləri vardır.

Harun Yəhyanın əsərləri təxminən 30.000 şəklin olduğu cəmi 45.000 səhifəlik külliyyatdır və bu külliyyat 73 fərqli dilə tərcümə edilmişdir.

Yazıçının təxəllüsü inkarçı düşüncəyə qarşı mübarizə aparan iki peyğəmbərin xatirəsinə hörmət olaraq adlarını yad etmək üçün Harun və Yəhya adlarından götürülmüşdür. Yazıçı tərəfindən kitabların üz qabığında Rəsulullahın (s.ə.v) möhürünün olmasının simvolik mənası isə kitabların məzmunu ilə əlaqədardır. Bu möhür Qurani-kərimin Allah'ın son kitabı və son sözü, Peyğəmbərimizin (s.ə.v) xatəmül-ənbiya olduğunun rəmzidir. Yazıçı bütün yayımlarında Quranı və Rəsulullahın sünnəsini özünə rəhbər etmişdir. Bu surətlə, inkarçı düşüncə sistemlərinin bütün təməl iddialarını bir-bir ortadan qaldırmağı və dinə qarşı yönələn etirazları tam susduracaq son sözü söyləməyi əsas almışdır. Böyük hikmət və kamal sahibi olan Rəsulullahın möhüründən bu son sözü söyləmək niyyətinin duası olaraq istifadə edilmişdir.

Yazıçının bütün işlərindəki ortaq hədəf Quranın təbliğini dünyaya çatdırmaq, beləliklə, insanları Allah'ın varlığı, birliyi və axirət kimi təməl imani mövzular üzərində düşünməyə sövq etmək və inkarçı sistemlərin əsassız təməllərini və azğın tətbiqlərini gözlər önünə çəkməkdir.

Necə ki, Harun Yəhyanın əsərləri Hindistandan Amerikaya, İngiltərədən İndoneziyaya, Polşadan Bosniya-herseqovinaya, İspaniyadan Braziliyaya, Malayziyadan İtaliyaya, Fransadan Bolqarıstana və Rusiyaya qədər dünyanın əlavə bir çox ölkəsində



sevilərək oxunur. İngilis, fransız, alman, italyan, ispan, portuqal, urdu, ərəb, alban, rus, boşnaq, uyğur, İndoneziya, Malay, benqal, serb, bolqar, Çin, Danimarka və İsveç dili kimi bir çox dilə tərcümə edilən əsərlər xaricdə geniş oxucu kütləsi tərəfindən izlənilir.

Dünyanın dörd tərəfində fövqəladə təqdir toplayan bu əsərlər bir çox insanın iman etməsinə, bir çoxunun da imanında dərinləşməsinə vəsilə olur. Kitabları oxuyub araşdıran hər kəs bu əsərlərdəki hikmətli, dolğun, asan aydın olan və səmimi üslubun, ağıllı və elmi yanaşmanın fərqində olar. Bu əsərlər sürətli təsir etmə, qəti nəticə vermə, etiraz və təkzib edilə bilinməyən xüsusiyyətləri daşıyır. Bu əsərləri oxuyan və üzərində ciddi şəkildə düşünən insanların artıq materialist fəlsəfəni, ateizmi və digər azğın görüş və fəlsəfələrin heç birini səmimi olaraq müdafiə etmələri mümkün deyil. Bundan sonra müdafiə etsələr də, ancaq romantik inadla müdafiə edəcəklər. Çünki fikri dayaqları aradan götürülmüşdür. Dövrümüzdəki bütün inkarçı cərəyanlar Harun Yəhya külliyyatı qarşısında fikirlə məğlub olmuşlar.

Şübhəsiz, bu xüsusiyyətlər Quranın hikmət və ifadə təsirliliyindən qaynaqlanır. Yazıçı bu əsərlərə görə öyünmür, yalnız Allah'ın hidayətinə vəsilə olmağa niyyət etmişdir. Bundan başqa, bu əsərlərin çap və nəşrində hər hansı bir maddi qazanc güdülmür.

Bu həqiqətlər göz önünə gətirildikdə insanların görmədiklərini görmələrini təmin edən, hidayətlərinə vəsilə olan bu əsərlərin oxunmasını təşviq etməyin də çox əhəmiyyətli xidmət olduğu ortaya çıxır.

Bu qiymətli əsərləri tanıtmağın yerinə insanların zehinlərini bulandıran, fikri qarışıqlıq meydana gətirən, şübhə və tərəddüdləri aparmaq və imanı qurtarmaq üçün güclü və iti təsiri olmadığı ümumi təcrübə ilə sabit olan kitabları yaymaq isə əmək və zaman itkisinə səbəb olar. İmanı qurtarmaq məqsədindən çox, yazıçının ədəbi gücünü vurğulamağa yönələn əsərlərdə bu təsirin əldə edilə bilməyəcəyi məlumdur. Bu mövzuda şübhəsi olanlar varsa, Harun Yəhyanın əsərlərinin tək məqsədinin dinsizliyi yox etmək və Quran əxlaqını yaymaq olduğunu, bu xidmətdəki təsir, müvəffəqiyyət və səmimiyyətin açıq şəkildə göründüyünü oxucuların ümumi qənaətindən anlaya bilərlər.

Bilmək lazımdır ki, dünyadakı zülm və qarışıqlıqların, müsəlmanların çəkdiyi əziyyətlərin təməl səbəbi dinsizliyin fikri hakimiyyətidir. Bunlardan xilas olmağın yolu isə dinsizliyin fikirlə məğlub edilməsi, iman həqiqətlərinin ortaya qoyulması və Quran əxlaqının insanların qavrayıb yaşaya biləcəkləri şəkildə izah edilməsidir. Dünyanın gündən- günə daha çox büründüyü zülm, fəsad və qarışıqlıq mühiti diqqətə alındığında bu xidmətin mümkün qədər sürətli və təsirli şəkildə edilməsinin lazım olduğu aydındır. Əks halda, çox gec ola bilər.

Bu əhəmiyyətli xidmətdə öndərliyi üzərinə götürən Harun Yəhya külliyyatı Allah'ın izni ilə 21- ci əsrdə dünya insanlarını Quranda təsvir edilən hüzur, sülh, düzgünlük, ədalət, gözəllik və xoşbəxtliyə daşımağa vəsilə olacaq.

# OXUCUYA

- Bu kitabda və digər işlərimizdə təkamül nəzəriyyəsinin süqutuna xüsusi yer ayrılmasının səbəbi bu nəzəriyyənin hər cür din əleyhdarı olan fəlsəfənin təməlini meydana gətirməsidir. Yaradılışı və dolayısilə Allah'ın varlığını inkar edən darvinizm 150 ildir ki, bir çox insanın imanını itirməsinə və ya şübhəyə düşməsinə səbəb olmuşdur. Buna görə də, bu nəzəriyyənin yalan olduğunu gözlər önünə gətirmək əhəmiyyətli imani bir vəzifədir. Bu əhəmiyyətli xidmətin bütün insanlığa çatdırılması isə zəruridir. Bəzi oxucularımız ola bilər ki, yalnız bir kitabımızı oxumaq imkanı tapa bilər. Bu səbəblə, hər kitabımızda bu mövzuya xülasə də olsa yer ayrılması uyğun hesab edilmişdir.
- Qeyd edilməsi lazım olan başqa bir xüsus da bu kitabların məzmunu ilə əlaqədardır. Yazıçının bütün kitablarında imani mövzular Quran ayələri yönündə izah edilir və insanlar Allah'ın ayələrini öyrənməyə və yaşamağa dəvət edilirlər. Allah'ın ayələri ilə əlaqədar bütün mövzular oxucuda heç bir şübhə və ya sual buraxmayacaq şəkildə açıqlanmışdır.
- Bu mövzuda istifadə edilən səmimi, sadə və səlis üslub isə kitabların hamı tərəfindən rahat başa düşülməsini təmin edir. Bu təsirli və sadə izah sayəsində kitablar "bir nəfəsə oxunan kitablar" ibarəsinə tam uyğun gəlir. Dini qəti şəkildə rədd edən insanlar belə bu kitablarda bildirilən həqiqətlərdən təsirlənir və yazılanların doğruluğunu inkar edə bilmirlər.
- Bu kitab və yazıçının digər əsərləri oxucular tərəfindən şəxsən oxuna biləcəyi kimi, qarşılıqlı söhbət şəraitində də oxuna bilər. Bu kitablardan istifadə etmək istəyən bir qrup oxucunun, kitabları bir yerdə oxumaları mövzu ilə əlaqədar öz təfəkkür və təcrübələrini də bir- birlərinə ötürmək baxımından faydalıdır.
- Bununla belə, yalnız Allah'ın razılığı üçün yazılan bu kitabların tanınmasında və oxunmasında iştirak etmək də böyük xidmətdir. Çünki yazıçının bütün kitablarında isbat və razı salıcı yön son dərəcə güclüdür. Bu səbəblə, dini izah etmək istəyənlər üçün ən təsirli üsul bu kitabların digər insanlar tərəfindən də oxunmasının təşviq edilməsidir.
- Kitabların arxasına yazıçının digər əsərlərinin təqdimatının əhəmiyyətli səbəbləri vardır. Bu sayədə kitabı nəzərdən keçirən şəxs yuxarıda yazılan xüsusiyyətləri daşıyan və oxumaqdan xoşlandığını ümid etdiyimiz bu kitabla eyni xüsusiyyətlərə sahib daha bir çox əsərin olduğunu görər, imani və siyasi mövzularda faydalana biləcəyi zəngin bir qaynağın mövcudluğuna şahid olacaq.
- Bu əsərlərdə digər bəzilərində görülən, yazıçının şəxsi qənaətlərinə və şübhəli qaynaqlara əsaslanan izahlara, müqəddəsata qarşı lazım olan ədəb və hörmətə diqqət yetirilməyən üslublara, şübhəli və həmçinin incidici yazılara rast gələ bilməzsiniz.

**Bu kitabda istifadə edilən ayələr Ə. Musayevin tərcümə etdiyi Qurani- kərim kitabından götürülmüşdür.**

www.harunyahya.org - www.harunyahya.net - www.harunyahya.az

# İÇİNDƏKİLƏR


YARADILIŞ HƏQİQƏTİ ........................................8

GİRİŞ ........................................................31

QƏFLƏT HALI ..............................................35

QƏFLƏTDƏ OLANLARIN XÜSUSİYYƏTLƏRİ ....49

QƏFLƏTİN SƏBƏBLƏRİ ....................................62

QƏFLƏTDƏN XİLAS OLMAQ ÜÇÜN ..................71

QƏFLƏTİN SONU ............................................94

NƏTİCƏ.......................................................96

ƏLAVƏ BÖLMƏ: TƏKAMÜL YALANI ................99

# YARADILIŞ
# HƏQİQƏTİ



**Tək bir zülalın təsadüfən meydana gəlmə ehtimalı $10^{950}$də bir ehtimaldır ki, bu da qeyri- mümkünə bərabərdir. Bir dənə zülal belə təsadüfən meydana gələ bilmədiyi halda darvinistlər milyonlarla zülaldan yaranan mənim kimi bir canlının təsadüfən meydana gəldiyini iddia edirlər.**

***www.kuranvebilim.com***



**Sizin Tanrınız ancaq o Allah'dır ki, Ondan başqa heç bir tanrı yoxdur. O, elm ilə hər şeyi ehtiva etmişdir! (Taha surəsi, 98)**

**Bir insanın burnunda 5-10 milyona yaxın qoxu hiss etmə hüceyrəsi var ikən, mənim burnumda 220 milyona qədər qoxu hiss etmə hüceyrəsi var. Sahib olduğum hər xüsusiyyət uca Allah'ın mənə verdiyi bənzərsiz bir nemətdir.**

*www.yaratilismuzesi.com*



## Heç yaradan yaratmayana bənzəyərmi?! Məgər düşünmürsünüz?! (Nəhl surəsi, 17)

**Allah anamın qarnında tək bir ortaq ana hüceyrəni çoxaldıb mənim bütün toxumalarımı, orqanlarımı, üzümü və gözlərimi meydana gətirdi. Rəbbim yaratdığı bütün hüceyrələrimə nə qədər çoxalmalarının, nə vaxt dayanmalarının lazım olduğunu və hansı orqanlarımı meydana gətirmələrinin lazım olduğunu müntəzəm ilham edir.**



**Allah belə buyurdu: "İki tanrı qəbul etməyin. O, yalnız tək bir Tanrıdır. Ancaq Məndən qorxun!" Göylərdə və yerdə nə varsa, hamısı Onundur! Din də daim Onundur. Belə olduğu təqdirdə, Allah'dan başqasındanmı qorxursunuz? (Nəhl surəsi, 51-52)**

*www.bilgilerdunyasi.net*



**Darvinistlər mənim sahib olduğum tək bir hüceyrəni belə açıqlaya bilmədiyi halda, mənim bütün gözəlliyimin, ətrafımdakı ağacların, digər çiçəklərin, meyvələrin və ucsuz-bucaqsız meşələrin təsadüfən meydana gəldiyini iddia edərlər. Halbuki, məni də, ətrafımdakı bütün ehtişamlı gözəllikləri də yaradan aləmlərin Rəbbi olan uca Allah'dır. (Sağdakı şəkil)**

*www.yaratilisguzellikleri.com*



**O, göylərin və yerin, onların arasında olan hər şeyin Rəbbidir! Yalnız Ona ibadət et və Onun ibadətinə səbirli ol... (Məryəm surəsi, 65)**

**Darvinistlər anamın mənə olan şəfqətini kor təsadüflərə bağlayarlar. Amma şüursuz halda inkişaf edən hadisələrin fədakarlıq, şəfqət və həmrəylik kimi şüur və ağıl tələb edən xüsusiyyətləri necə meydana gətirdiyini heç bir şəkildə açıqlaya bilməzlər.**

*www.darwininbilmedikleri.com*



**(Bütün bunlar Rəbbinə tərəf) dönüb qayıdan hər bir bəndə üçün ibrət dərsi və öyüd- nəsihət olsun deyə etdik. Biz göydən bərəkətli su endirdik, sonra onunla bağlar və biçilən taxıl dənələri yetişdirdik. (Qaf surəsi, 8- 9)**

*www.yaratilismucizesi.com*



**Sahib olduğum tək bir DNT-nin hər hansı bir pilləsindəki, məsələn, 719 milyon 348 min 632-ci pilləsindəki tək bir hərfin səhv kodlaşdırılması kimi bir xəta belə mənim üçün qorxunc nəticələrə yol aça bilər. Buna baxmayaraq, darvinistlər qüsursuz quruluşumla mənim təsadüfi hadisələrin bir nəticəsi olduğumu iddia edirlər. Bunun qeyri-mümkün olduğu açıq-aşkardır.**

***www.darwinnedenyanildi.com***



**Düşmənlərimizə qarşı olduqca yırtıcı olduğumuza baxmayaraq, ailəmizə son dərəcə şəfqət və sevgi göstəririk. Əgər hər şey darvinistlərin dediyi kimi, şüursuz hadisələrin nəticəsində inkişaf edirsə və onların iddia etdiyi kimi təbiətə yalnız mübarizə hakimdirsə, bu vəziyyətdə, sevgini, şəfqət və himayəni, övladlarımıza qarşı fədakar davranışlarımızı heç bir şəkildə bilməməli idik.**

*www.kurandayaratilis.com*



**"Keçmişdə yaşayan tısbağalara Almaniyadakı Trias dövrünə aid fosil yataqlarında rast gəlmək mümkündür. Onlar dövrümüzdəki tısbağalara çox oxşasa da, sərt qabıqları ilə digərlərindən fərqlənirlər. İbtidai tısbağalara aid isə heç bir iz tapılmamışdır. Halbuki, tısbağaların fosilləşməsi çox asan prosesdir və onlara aid kiçik qalıqlar tapılsaydı, asanlıqla tanına bilərdi". *(Robert Carroll, Vertebrate Paleontology and Evolution, səh. 207)***

***www.surungenfosilleri.com***



*37- 23 milyon illik tısbağa fosili*

**Maralların onlarla növündən biri olan xallı marala dünyanın bir çox bölgəsində rast gəlmək mümkündür. Fosilləşərək bu günə qədər qorunan bu maral kəlləsi yer üzündə təkamüli bir inkişafın yaşanmadığını, canlıların yaradıldığı ilk halları ilə bugünkü görünüşləri arasında heç bir fərqin olmadığını ortaya qoyur.**

***www.darwinistneleridusunmez.com***



***78 milyon illik marala aid kəllə sümüyünün dövrümüzdəki marallardan heç bir fərqi yoxdur.***



**Təkamülçülərin iddiaları doğru olsaydı, keçmişdə həm antilop xüsusiyyəti daşıyan və həm də fərqli bir canlı növünün xüsusiyyətlərinə sahib olan bir çox qəribə canlı olardı. Lakin saysız nağıl və xəyali ssenari ilə dolu olan təkamülçü yayımlarda bir ədəd belə ara canlı fosili sərgilənmir. Çünki belə bir canlı tarixin heç bir dövründə yaşamamışdır. Bütün canlılar şəkildə nümunəsi görülən 83 milyon illik antilop kimi, var olduqları ilk halları ilə günümüzə qədər gəlmişlər.**



***83 milyon illik antilop kəllə sümüyü***



**“*Mustelidea*” fəsiləsinə daxil olan dələlər milyon illərlə dəyişməyən görünüşləri ilə təkamülün iddialarını təkzib edən canlılardan biridir. Aparılan geoloji araşdırmalar digər bütün elm sahələri kimi, təkamül nəzəriyyəsinin əsassızlığını ortaya qoyarkən yaradılışın açıq bir həqiqət olduğunu göz önünə çəkir.**

***www.kafatasifosilleri.com***





***Yuxarıdakı şəkildə 23- 5 milyon illik dələyə aid kəllə sümüyündən də görüldüyü kimi, dələlər əsrlərdir ki, heç bir dəyişikliyə məruz qalmayıblar və bu isə onları Allah'ın yaratdığını sübut edir.***

**Şimal qütb bölgəsində ara- sıra mənfi 40 dərəcəyə çatan soyuqda yaşayan qütb tülküləri bəslənmək üçün bəzən 1000 kilometr yol qət edirlər. Allah'ın çətin şərtlərə dözümlü yaratdığı qütb tülküsünün fosil kəllələri günümüzdəki canlı nümunələri ilə tam eynilik təşkil edir. Bu açıq- aşkar dəlil bütün canlılarda olduğu kimi, tülkülərin də yaradıldığı ilk andakı halları ilə indiki dövrdə də mövcud olduqlarını göstərir.**

***www.evrimmasali.com***



***Yan tərəfdəki şəkildə Çində tapılmış 8.2 milyon illik qütb tülküsünün kəllə sümüyü göstərilmişdir, alt tərəfdəki şəkildə isə dövrümüzdə yaşayan qütb tülküsü göstərilmişdir.***



**Darvinistlərin 150 il davam edən ara forma fosili axtarışı ümidsizliklə nəticələnmişdir. Hazırda təkamülçülərin dəlil kimi ortaya qoya biləcəyi heç bir tapıntı yoxdur. Antropoloq Cefrey Şvarç fosil qeydlərinin darvinizmin əleyhinə olduğunu belə ifadə edir:** ***"Bir çox paleontoloq qalıq qeydlərində itkin halqaları tapmaq əvəzinə yalnız böyük boşluqlarla və bu günə qədər yazılmış fosil növləri arasında hər hansı bir ara forma olmadığı gerçəyi ilə üz- üzə gəldi". (Schwartz, Jeffrey H., Sudden Origins, 1999, s. 89)***

*www.hayvanlaralemi.net*





*Yuxarıdakı şəkildə 23- 5 milyon illik qütb porsuğunun kəllə sümüyü və dövrümüzdə yaşayan bir qütb porsuğu göstərilmişdir.*

**Mürəkkəb balıqlarının tarix boyu heç bir dəyişikliyə məruz qalmadığını sübut edən bu 95 milyon illik fosil təkamülçülərin iddialarını təkzib edir. Bu fosillər qarşısında əli bağlı olan təkamülçülər öz iddialarını sübut edən heç bir dəlil tapa bilmirlər.**

***www.kuranevrimiyalanliyor.com***



***Yuxarıdakı şəkildə Livanda tapılmış 95 milyon illik mürəkkəb balığı, altındakı şəkildə isə dövrümüzdə yaşayan mürəkkəb balığı göstərilmişdir.***

**Günümüzdəki pandaların daşıdığı bütün xüsusiyyətlərə sahib olan və bundan 96 milyon il əvvəl yaşamış pandalar təkamülü rədd edir. Fosillərlə isbat edilən bu həqiqət açıq və dəqiq olaraq ortadadır. Darvinistlərin israrla gizlətməyə çalışması bu həqiqəti dəyişdirməz. Canlılar təkamüllü müddət nəticəsində ortaya çıxmamışdır. Canlı və cansız bütün varlıqları Allah yaratmışdır.**

***www.fosillerevrimireddediyor.com***





***Yuxarıdakı şəkildə 96 milyon illik pandaya məxsus kəllə sümüyü göstərilmişdir.***

**Fosil qeydləri qum tülkülərinin həmişə qum tülküsü olaraq mövcud olduğunu, başqa bir canlıdan törəmədiklərini isbat etmişdir. Günümüzdəki qum tülküləri ilə hər yöndən eyni olan şəkildəki 86 milyon illik qum tülküsü kəllə fosili təkamülçülərin yalnız xəyallarını dilə gətirdiklərinin dəlilidir. Təkamülçü fərziyyələr elmi istinaddan məhrumdur.**



***Dövrümüzdə yaşayan qum tülküləri ilə eyni xüsusiyyətlərə sahib olan 86 milyon illik bu kəllə sümüyü təkamülçülərin iddialarını bir daha təkzib edir.***



**At nalı yengəcləri, chelicerata cinsinə sinfinə daxildirlər, həmçinin hörümçəklər və əqrəb sinfinə də yaxındırlar. Şəkildə 150 milyon illik at nalı yengəci fosili göstərilmişdir. Bu fosil bir daha təkamülü yalanlayır və yaradılışın açıq- aşkar gerçək olduğunu təsdiq edir.**

***www.evrimbelgeseli.com***





***Şəkildə dövrümüzdə yaşayan bir at nalı yengəci, altında isə 150 milyon illik Almaniyada tapılmış at nalı yengəci fosili göstərilmişdir.***

**Təkamülçülərin uzun illər boyu axtardığı ara keçid fosilləri heç bir şəkildə tapılmır və digər tərəfdən yaradılış həqiqətini ortaya qoyan fosillərə hər gün bir yenisi əlavə olunur. Şəkildəki zebr kəllə fosili də bu nümunələrdən biridir. Diş və çənə quruluşu günümüzdəki nümunələrindən fərqsiz olan bu fosil təkamül nəzəriyyəsinin böyük bir uydurmadan ibarət olduğunu, bütün canlıları Allah'ın yaratdığını bir daha təsdiq edir.**

***www.dominikamberleri.com***



***Yuxarıdakı şəkildə diş və çənə sümüyü quruluşu ilə dövrümüzdə yaşayan növlərindən heç fərqlənməyən 70-40 milyon illik zebrin kəllə sümüyü fosili göstərilmişdir.***



**Darvinistlərin açıqlaya bilmədiyi mövzulardan biri də məməlilərin mənşəyidir. Təkamülçülər məməlilərin mənşəyinə və bu sinfə daxil olan canlıların bir- biriləri ilə olan sözdə təkamüli qohumluq əlaqələrinə dair heç bir dəlil göstərə bilməzlər. 90 milyon illik bu pələng kəllə fosili də təkamül nəzəriyyəsinin çıxılmaz vəziyyətdə olduğunun dəlillərindən biridir.**

***www.kambriyenvedarwin.com***



*90 milyon illik pələng kəllə fosili*




GİZLİ TƏHLÜKƏ:
QƏFLƏT

# GİRİŞ

Kiçik bir uşağın şən hərəkətləri insanı heyran edir. Çünki böyüklərə olduqca əhəmiyyətli olan, üzərində uzun düşündükləri, ciddi qərar aldıqları, reaksiya verdikləri hadisələrin ona görə bir mənası yoxdur. Məsələn, nə iqtisadi böhranlar, nə təbii fəlakətlər, nə dünyada yaşanan müharibələr və nə də edilən zülmlər onun üçün bir şey ifadə edər. Ətrafında olub keçənlərdən xəbərsiz halda və acmaq, susamaq və oyuncağını itirmək kimi səbəblərin xaricində heç bir şeydən narahatlıq duymadan öz dünyasında yaşayar. Hüzurunu pozan bu səbəblər olmadığı müddətdə şüursuz olaraq yatmağa, oynamağa və gülməyə davam edər.

Lakin bir çox insanın (hər nə qədər ilk baxışda fərqinə varılmasa da) şüur baxımından bu kiçik uşaqdan çox fərqi yoxdur. Bu şüursuzluq Allah'ın və axirətin varlığı, özünün yaradılış məqsədi, ölümün mütləq reallaşan qəti həqiqət olduğu, öldükdən sonra hər etdiyinin hesabının Allah'a mütləq verəcəyi kimi ən əhəmiyyətli həqiqətlərin qavranılmasında yaşanır.

İnsanların böyük əksəriyyəti Allah'ın açıq ayələrindən, əmr və qadağalarından xəbərsiz şəkildə yalnız öz istək və arzuları yönündə yaşayırlar. Bu insanların dünya nemətlərinə sahib olmaq, xoşbəxt olmaq, əylənmək və nəfsani arzularını təmin etmək xaricində başqa istəkləri yoxdur. Yalnız dünyanın cazibədar bəzəyinə maraq duyar və istədikləri şeylərə sahib olmaq üçün həyatı boyunca səy göstərərlər. Ən böyük sıxıntını isə bu səylərinin boşa çıxması və yaxud əllərindəkini itirmələri nəticəsində yaşayarlar.

Halbuki, yalnız qısa müddət yaşadıqları dünya həyatı hər şeyi ilə bir gün sona çatacaq. Onlar isə özləri və Allah'ın rizasından uzaq həyat sürən digər insanlar üçün hazırlanmış şiddətli və əbədi əzabdan xəbərsizdirlər. Böyük qorxu və çətinlik görəcəkləri axirət gününə doğru irəliləyərkən dünyanın keçici bəzəyinə həvəslə bağlanıb, yalnız dünyəvi maraqları itirmənin narahatlığını və kədərini duyarlar.

İnsanların Allah'ın açıq dəlillərinə, əmr və xəbərdarlıqlarına baxmayaraq, göstərdikləri bu şüursuz və maraqsız hala qəflət adı verilir.

Allah hər insan üçün vücudu da daxil olmaqla, baxdığı hər yerdə Öz varlığını xatırladan müxtəlif gözəllik və nemətlər yaratmışdır. Həyatımızın hər anı, gözümüzü çevirdiyimiz hər yer saymaqla bitməyən yaradılış möcüzələri ilə bəzədilmişdir. Bu həqiqət Quranda belə bildirilir:

**Həqiqətən, göylərin və yerin yaradılmasında, gecə ilə gündüzün bir-birini əvəz etməsində, içərisində insanlar üçün mənfəətli şeylər olan gəmilərin dənizlərdə üzməsində, quruyan yer üzünü Allah'ın göydən yağmur yağdıraraq yenidən diriltməsində, cins-cins heyvanları onun hər tərəfə yaymasında, göylə yer arasında ram edilmiş küləyin və buludların bir səmtdən başqa səmtə döndərilməsində əlamətlər vardır. (Bəqərə surəsi, 164)**

Səhər qalxdığınız andan etibarən axşam təkrar yatana qədər etdiklərinizi, qarşılaşdığınız hadisə və görüntüləri düşünün. Oyanıb güzgüyə baxdığınızda uzun yuxudan sonra təkrar canlanan və sizin heç bir müdaxiləniz olmadan öz-özünə bütün funksiyalarını ara vermədən davam etdirən vücudunuzu görərsiniz. Tək bir hüceyrənin çoxalmasından meydana gələn, bu anda da təxminən 100 trilyon hüceyrədən ibarət olan simmetrik və estetik görünüşə sahib olan və siz heç fərqində deyil ikən. içində ard-arda yüzlərlə qüsursuz və qa-

rışıq əməliyyatın meydana gəldiyi vücudunuz bir gün əvvəlki halı ilə qarşınızdadır.

Ancaq bir çox insan bu həqiqətin şüurunda olmadan hərəkət edir. Səhər qalxanda aynaya baxarkən, ümumiyyətlə, üzünün ümumi görünüşü, baxımı və ya saçının forması xaricində başqa bir şeyi ağlına gətirməz. Zehnində, ümumiyyətlə, iş, məktəb və ya gün içində edəcəklərindən başqa bir düşüncə yoxdur. Halbuki, əksəriyyətin diqqətindən qaçan həqiqət budur: yeni başlayan günlə bütün insanlara Allah'a yönəlmələri və ya Ona olan yaxınlıqlarını artırmaları üçün yeni fürsət əlavə verilmişdir. Bəlkə də bu fürsət insana verilən son fürsətdir. Kim bilir, bəlkə də o gün dünyada keçirəcəyi son gündür. Çox təəssüf ki, insanların böyük əksəriyyəti özlərinə verilən bu fürsətin fərqinə varmırlar. Bu səbəblə də, ümumiyyətlə, zehinlərini Allah'ı deyil, özlərini və ya ətraflarındakı insanları razı salmağı düşünərək və bunun planlarını quraraq məşğul edərlər. Bu vəziyyəti bir örnəklə açıqlayaq:

Bir bilik yarışını düşünün. Yarışı qazanana böyük miqdarda pul verilsin. Yarış əsnasında, görəsən, yarışçı necə davranar? Sualları dinləyib cavablarını düşünməyin yerinə ətrafına baxıb əylənər? Yoxsa sualı soruşan aparıcının paltarını, səs tonunu, saçını tənqid edər və ya sualın cavabını düşünməyin əvəzinə sabah nə edəcəyini, nə geyəcəyini düşünər?

Tam əksinə, bu adam çox diqqətlə aparıcını dinləyər, şüuru tam açıq olar. Məhdud vaxtını yaxşı qiymətləndirməyə çalışar. Cavabı tapmaq üçün diqqətini cəmləyər. Müvəffəqiyyətli olmaq üçün, şübhəsiz ki, mövzudan başqa heç bir şeylə maraqlanmaz. Əksinə, əlindəki fürsəti ən gözəl şəkildə qiymətləndirməyə çalışar. Amma indi saydığımız şeylərdə mənasız davranışlara yol verərsə, yarışçının ağılsızlıq etdiyini, başqa sözlə, qəflət içində olduğunu düşünərik.

Lakin bir çoxlarının qəflət halı verdiyimiz bu nümunəyə görə

daha da ciddi ölçülərdədir. Bu qəflət halı insanların Allah'ın özlərini qulluq etmələri üçün yaratdığının şüurunda olmadan Allah'ın əmr və qadağalarından tamamilə uzaq bir həyat yaşamalarıdır.

Qəflət bütün insanlar üçün diqqətli olmayıb Allah'a könüldən boyun əymədiyi müddət boyu böyük təhlükədir. Çünki qəflətdə olan və ya qəflətə düşürülən bir adam Qurandakı əmr və qadağalara səmimi olaraq tabe olmadığının, bundan başqa, hər an qəflətə düşəcəyinin və ya düşünmədiyi müddətdə olduğu vəziyyətin fərqində ola bilməz. Dolayısilə, bu kitabı görən hər oxucu özünün də qəflətdə olacağını ehtimal edib oxumalı və özünü müstəğni, yəni gizli təhlükədən uzaqda və amanda görməməlidir. Çünki Rəbbimiz Quranda "**Xeyr! İnsan, doğrudan da, həddini aşır, özünün ehtiyacsız olduğunu zənn etdiyinə görə.** (Ələq surəsi 6-7)" buyurmuşdur. İnsan ancaq müstəğniyyətdən çəkindiyində Quran ayələrinə görə öz vəziyyətini təhlil edər, həmçinin qüsur və səhvlərini düzəldərək laqeyd yanaşdığı mövzuları düzəldər. Çünki insanın davamlı qəflət içində qalmasının və qəflətin dərinliyinin gün keçdikcə artmasının ən böyük səbəbi insanın özünü mükəmməl və qüsursuz görməsi, halından razı olmasıdır.

Bu kitabın məqsədi qəflətin Qurana görə tərifini vermək və insanları bu gizli təhlükəyə qarşı xəbərdar etməkdir. Eyni zamanda, bir çox insanın şüursuz və cahil olaraq düşdüyü qəflət halının fərqinə varmalarını təmin edib bu vəziyyətdən xilas olmalarına köməkçi olmaq və möminləri şeytanın bu gizli tələsinə qarşı hər an ayıq və diqqətli olmağa dəvət etməkdir.

# QƏFLƏT HALI

Qəflət halı, girişdə də qısa şəkildə bildirdiyimiz kimi, insanın Allahın və axirətin varlığından xəbərsiz olması və ya xəbəri olduğu halda bu bilginin tələb etdiyi şüur və məsuliyyəti, davranış şəklini göstərməyərək əhəmiyyət verməməsidir. Qəflət halı bəzən iman edən bir kimsə üçün qısa müddətli, keçici unutqanlıq və ya dalğınlıq şəklində ola bildiyi kimi, bəzən də Allaha iman etməyən və ya Ona ortaq qoşanlarda olduğu kimi bütün həyatlarını bürüyən dərəcədə dərin ola bilər.

Dünyada bir çox insan yaradılış məqsədini düşünmədən nəfsinin arzuları ilə əylənib, mənasız və faydasız işlərlə məşğul olub şüursuz halda həyatını davam etdirir. “Gününü gün etmə” məntiqi ilə yalnız dünyadakı nemətlərin ən yaxşısına və ən çoxuna sahib olmağı hədəfləyir. Onun üçün əhəmiyyətli olan “zatən dünyaya yenə gəlməyəcəyik” düşüncəsi ilə bu zamanı ən yaxşı şəkildə qiymətləndirməkdir. Buna görə də yaşadığı zamana yalnız özünə görə ən çox zövqü və əyləncəni sığdırmağa çalışar. Öləcəyini bilir, ancaq öldükdən sonra özünü gözləyən əbədi əzabdan xəbərsizdir və ya Allahın üstün gücünü qavraya bilmədiyi üçün, bu əzabın şiddətini düşünməz. Halbuki bu əzabın şiddəti Quranın bir çox ayəsində təsvir edilir (Ətraflı məlumat üçün baxın: Harun Yəhya, Ölüm-Qiyamət-Cəhənnəm). Bu ayələrdən bəziləri belədir:

**... Kaş zülm edənlər əzabı gördükləri zaman bütün qüdrət və qüvvətin Allaha məxsus olduğunu və Allahın şiddətli əzab verdiyini görəydilər. (Bəqərə surəsi, 165)**

**O gün heç kəs Allahın verdiyi əzab kimi əzab verə bilməz və heç kəs Onun buxovladığı kimi buxovlaya bilməz. (Fəcr surəsi, 25-26)**

**Onlar oraya vasil ediləndə onun dəhşətli uğultuyla qaynadığını eşidəcəklər. Cəhənnəm, qəzəbindən az qala parçalansın. Hər dəfə bir dəstə oraya atılarkən Cəhənnəmin gözətçiləri onlardan soruşacaqlar: "Məgər sizə xəbərdarlıq edən bir peyğəmbər gəlməmişdi?" (Mülk surəsi, 7-8)**

**...Yandırıb-yaxan od kimi Cəhənnəm onlara bəsdir. Şübhəsiz ki, ayələrimizi inkar edənləri odda yandıracağıq. Hər dəfə onların dəriləri yandıqca, əzabı daim dadsınlar deyə, Biz o dəriləri başqa dərilərlə əvəz edəcəyik. Həqiqətən, Allah Qüdrətlidir, Müdrikdir. (Nisa surəsi, 55-56)**

Qəflət halındakı insanların çoxu Allahın varlığını bilir, ancaq Ona qəti şəkildə iman etməz, təslim olmazlar. Bu səbəblə də, həyatlarındakı hər çətin və sıxıntılı hadisədə təvəkkül etmədiyinə görə dərin acı və kədər duyarlar. Ən kiçik çətinliyin belə həyatlarını alt-üst etməyə bəs etdiyi bu insanlar cəmiyyətdə bədbin, bədbəxt və depressiyaya düşmüş insan tiplərini meydana gətirirlər.

Olduqca mənasız və faydasız işlərlə keçirdiyi uzun zamanları "çoxlu iş", "məşğuliyyət" olaraq səciyyələndirirlər. Bu mənasız "çoxlu işlər"ə görə də özlərini önəmli və səriştəli görürlər. Halbuki bu iş çoxluğu qəflət halındakı insanın şüursuzluğunu artıran mənasız əyləncədən başqa bir şey deyil. İnkar edənlərin mənasız əyləncələri ayələrdə belə təsvir edilir:

> **Kafirlər mütləq müsəlman olmalarını arzulayacaqlar. Qoy onlar bir müddət yeyib-içsinlər, əylənsinlər və xam xəyallar onların başlarını qatsın. Tezliklə biləcəklər. (Hicr surəsi, 2-3)**

Qəflət Allahı və axirət gününü unutmuş insanları ətraflı şəkildə əhatə edən gizli xəstəlik kimidir. Bu, insanın beynini keyləşdirən, ağlını örtən bir xəstəlikdir. Bu keylik və şüursuzluq içində insan özünü əhatə edən və gözləyən həqiqətlərin fərqində olmaz. Bu səbəblə, qəflət halındakı insanlar görmək, eşitmək kimi hisslərə sahib olmalarına baxmayaraq, gördüklərini və eşitdiklərini qiymətləndirmək, mühakimə etmək qabiliyyətini itirmişlər. Çünki özlərini bürüyən qəflət ağlını bağlamışdır. Qəflətdəki insanlar bütün vaxtlarını nəfslərinin hədsiz istəklərini təmin etmək üçün sərf edərlər, başqa bir şey düşünməzlər. İstək və həvəslərini bütün mənliklərini həsr etdikləri bir ilah kimi qəbul etmişlər. Onların vəziyyəti Quranda belə bildirilir:

> **Nəfsinin istəyini ilahiləşdirən kimsəni gördünmü? Sən ona vəkillikmi edəcəksən? Yoxsa elə hesab edirsən ki, onların əksəriyyəti eşidəcək və ya anlayacaq? Onlar heyvan kimidirlər, hətta, haqq yoldan daha çox uzaqlaşmışlar. (Furqan surəsi, 43-44)**

Qəflətin əhəmiyyətli xüsusiyyətlərindən biri də insanı həqiqətlərdən uzaqlaşıb xəyal dünyasında yaşamasıdır. Məsələn, gənclər davamlı olaraq gələcəklə əlaqəli xəyallar qurarlar və beyinlərini yalnız bununla məşğul edirlər. Qurulan xəyalların nəticəsində də sanki bunlar həqiqət imiş kimi xoşbəxtlik hissi keçirirlər. Yaşlananda isə insanlar daha məhdud xəyallar qurub xatirələri ilə zaman keçirir və bunlarla yaşayırlar. Qısa bir zamanda yaxınlarına danışacaq çoxlu xatirə tapa bilir və bunları dilə gətirərkən o ankı həyəcan və ya hüznü sanki yenidən hiss edirlər.

Göründüyü kimi, qəflət halındakı insanların beyinləri xəyal və xatirələrlə çox məşğuldur. Amma əsas axirət günü, cənnət və cəhənnəm kimi həqiqətləri düşünmürlər. Bu insanlar nə fikirlərində, nə də qəlblərində Allah ilə əlaqə qura bilmirlər. Qafil insan həqiqətləri, xəyal və xatirələr arasında yalnız istənməyən, dumanlı və qaranlıq bir yer hesab edər və həqiqətlər bir anlıq ağlına gəldiyində bunları düşünməkdən imtina edib dərhal öz aləmində rəngarəng xülyalarına geri dönər.

Qəflət gözləri zəif olan bir insanın əşyaları və insanları yalnız dumanlı və ya qarışıq şəkillər olaraq görməsinə bənzəyir. Bu vəziyyətdəki insan gördükləri haqqında ətraflı məlumata sahib ola bilməz. Ancaq eynək taxdığında görüntü dəqiqləşir və hər şeyi ən incə detalına qədər görə bilir. Artıq görüntüdəki dəqiqlik sayəsində eynəklər olmadığında nə qədər az gördüyünün, hətta görə bilmədiyinin tam olaraq fərqində olur.

Qəflət halındakı insan üçün də bənzər (ancaq daha ciddi və əhəmiyyətli) anlama nöqsanlığı vardır. Qəflət halında ikən insanın Allahın varlığını, üstün izzət və şərəfini gərəyi kimi təqdir edə bilməsi mümkün deyil. Ancaq səmimi şəkildə ürəkdən Allaha yönəldiyi, dua etdiyi, təfəkkür etdiyi və Allahın sərhədlərinə riayət etdiyi zaman içində olduğu qəflətin ölçülərinin fərqində olur. Bunun nəticəsində isə qəflətin səbəb olduğu qavrama zəifliyi Allahın izni ilə ortadan qalxır, həqiqətləri açıq və dəqiq şəkildə görüb qavrayır.

## İnkar edənlərin qəflət halı

Allahın varlığını inkar edib Onun adının anılmasına belə dözməyənlərin hal-hazırkı vəziyyəti qəflətin insanı dünyada sürüyə biləcəyi ən son nöqtəyə bir nümunədir. Tamamilə inkar bataqlığına batmış olan bu insanlar Allahın sevmədiyi və qınadığı, pis, çirkin və səhv olan bir çox xüsusiyyəti üzərində saxlayan kəslərdir.

İnkar edən bu insanlar üsyankar, qürurlu, eqoist, əsəbi, yalançı, riyakar və qərarsız quruluşa malik və hər cür pisliyi etməyə hazır kəslərdir. Mənfəətləri olduğunda ata-analarını belə tanımayan bu insanları dünya həvəsi bürümüşdür. İstədiklərini etmək üçün heç bir maneə tanımazlar. Qarşılarına çıxan maneələri aşmaq üçün hər cür saxtakarlığı, əxlaqsızlığı və həddi aşmağı bir qorxu olaraq görməzlər.

Vicdanlarını tam örtən bu insanlar mərhəmət, şəfqət və acımaq duyğularını da itirmişlər. Ətrafına qarşı hər cür həssaslıqdan məhrumdurlar. Yalnız özləri üçün yaşayarlar. Beyinlərində nəfslərinin eqoist istək və həvəslərinin təminindən daha önəmli bir düşüncə yoxdur. Qəflət onları elə əhatə etmişdir ki, özləri Allahı əsla xatırlamadıqları kimi, Allahın adının anılmasına belə dözə bilməzlər. Bir Quran ayəsində onların bu vəziyyəti belə ifadə edilir:

> **Allah tək olaraq xatırlandığı zaman Axirətə inanmayanların qəlbini nifrət bürüyür... (Zumər surəsi, 45)**

Axirəti inkar edən bu insanlar vicdanlarını rahatlatmaq və özlərini təmizə çıxarmaq üçün din əleyhinə söhbətlər edib, digər insanları da özləri kimi inkara sürüməyə çalışarlar. Özlərini gözləyən sonsuz əzabdan xəbərsiz olan bu insanlar etdikləri pislikləri dərk etmirlər. Dərin qəflət halındakı bu insanların vəziyyəti Quranda belə təsvir edilir:

> **Həqiqətən, Axirətə iman gətirməyənlərin bəd əməllərini onlara yaxşı kimi göstərdik. Odur ki, onlar azğınlıqları üzündən heç nə anlamadan yer üzündə veyllənirlər. Bunlar əzabı ağır olacaq kimsələrdir; Axirətdə ən çox ziyana uğrayacaq kəslər də elə onlardır. (Nəml surəsi, 4-5)**

**Biz Cəhənnəm üçün bir çox cinlər və insanlar yaratdıq. Onların qəlbləri var, onunla anlamazlar; gözləri var, onunla görməzlər; qulaqları var, onunla eşitməzlər. Onlar heyvan kimidirlər, hətta daha çox azğınlıqdadırlar. Qafil olanlar da məhz onlardır. (Əraf surəsi, 179)**

Göründüyü kimi, sonsuz əzabın onları gözlədiyini görməməzlikdən gələn inkarçılar olduqları qəflət səbəbi ilə Quranda heyvanlardan daha aşağı mövqedə təsvir edilirlər. Quranın tərifi ilə "qafil" olan bu insanların heyvanlar kimi yalnız yeyib-içmək və xoşlarına gələni etmək xaricində başqa məqsədləri yoxdur. Bir başqa ayədə də yalnız dünya üçün həyatlarını davam etdirən qəflət halındakı inkarçıların vəziyyəti belə təsvir edilir:

**Onlar dünya həyatının görünən tərəfini bilir, axirətdən isə büsbütün qafildirlər. (Rum surəsi, 7)**

Yalnız dünya həyatını düşünərək hərəkət edən bu insanlar hər dövrdə müqəddəs kitablar, peyğəmbərlər və imanlı insanlar vasitəsilə qiyamət gününə və mütləq hesaba çəkiləcəkləri həqiqətinə qarşı xəbərdar edilirlər. Etdikləri pisliklərin günah olduğu və bu günahların qarşılıqsız qalmayacağı, cəza günü ilə, şübhəsiz, qarşılaşacaqları xatırladılır. Əgər Allahın əmr və tövsiyələrini tətbiq etməsələr, yer üzündə təxribat törədib pisliklərlə dolu həyat davam etdirsələr, bu vəziyyətdə sonsuz cəhənnəm əzabını seçmiş olacaqları onlara bildirilir. Bu vəziyyətdə həmin insanlar Allahın xəbərdarlıqlarına diqqət yetirməli, bütün hal və hərəkətlərini bunların hesabını sorğu günündə verə biləcəkləri şəkildə tənzimləməlidirlər. Ancaq Allah hər cür xəbərdarlığa baxmayaraq, bu çox açıq və dəqiq həqiqətlərə qarşı bəzi insanların bigabə qaldığını Quranda belə bildirir:

**İnsanların hesaba çəkiləcəkləri gün yaxınlaşdı. Amma onlar hələ də qəflət içində imandan üz çevirirlər. (Ənbiya surəsi, 1)**

## Müşriklərin qəflət halı

İnsanların bəziləri islamı Qurana görə deyil, ətrafındakı insanların başqalarından eşitdiyi məlumatlarla və böyüklərindən eşitdiyi Quranla əlaqəsi olmayan üsullarla yaşayarlar. Halbuki bu insanlar həqiqətdə islamın əslindən fərqli bir dini yaşayırlar. Atalarından və ənənələrindən qalan batil bir dini islam adı ilə mənimsəmişlər. Buna görə, Quranı oxusalar belə, batil dinləri ilə açıqladıqları üçün onu lazımi şəkildə anlamazlar. Quranda təsvir edilən və Peyğəmbər əfəndimizin (s.ə.v.) sünnəsində nümunələri olan həqiqi imandan, mömin xüsusiyyətlərindən tamamilə uzaq və xəbərsizdirlər. Onların bu vəziyyəti Quranda belə bildirilir:

**Onlara: "Allahın nazil etdiyinə tabe olun!" – deyildikdə, onlar: "Xeyr, biz atalarımızın tutduğu yolu tutacağıq!" – deyirlər. Bəs ataları bir şey anlamayıb doğru yola yönəlməyiblərsə necə? (Bəqərə surəsi, 170)**

**Onlara: "Allahın nazil etdiyinə və göndərdiyi Elçiyə tərəf gəlin" – deyildikdə: "Atalarımızın tutduğu yol bizə bəsdir" – deyirlər. Əgər ataları bir şey bilməyib, doğru yola yönəlməyiblərsə onda necə olsun? (Maidə surəsi, 104)**

**Onlara: "Allahın nazil etdiyinə itaət edin!" – deyildikdə, onlar: "Yox! Biz əcdadımızın getdiyi yolu tutub gedəcəyik!" – deyərlər. Əgər şeytan onları Cəhənnəm odunun əzabına doğru sürükləyirsə, onda necə olsun? (Loğman surəsi, 21)**

Ayələrdə açıq şəkildə bildirildiyi kimi, bu insanlar Allahın əmr və qadağalarına Quranda əmr edildiyi şəkildə əməl etməzlər. Atalarının izindən gedərlər. Ayələrdən belə insanların doğru yoldan azmış, şeytanın arxasına düşmüş və cəhənnəm əzabına doğru süründürülən kəslər olduqları aydın olur. Bu insanlar atalarının dinini Allahın dinindən, ənənələrini də Allahın kitabı olan Qurandan üstün tutduqları üçün böyük şirk içindədirlər. Mövhumat və təəssübləri, təkəbbür və ağılsızlıqlarına görə şeytan bu insanları dinlərində yanıltmış, onların doğru yollarının üzərinə oturub islam adına yanlış din anlayışı mənimsəmələrinə səbəb olmuşdur.

Müşriklərin yaşadıqları bu batil din Quranda təsvir ediləndən çox fərqlidir. Məsələn, yalnız dara düşdüklərində və ya son dərəcə çarəsiz qaldıqlarında, bəzən də dünya həyatının faydaları və nəfslərinin istəkləri üçün dua edərlər. Quranda duanın necə təsvir edildiyini, nə üçün və necə dua etmələrinin lazım olduğunu bildikləri halda həqiqi mənası ilə əməl etməzlər. Şükür etməyi də tam mənası ilə edə bilməzlər. Yalnız çox böyük və ya çox çətin sahib olduqları bir şey üçün şükür edərlər. Quranı lazım olduğu kimi düşünmədiklərinə görə hər nəfəs aldıqlarında, yaşadıqları hər saniyədə şükür etmələri üçün onlara verilən saysız-hesabsız nemətin olduğuna əhəmiyyət verməzlər.

Beləliklə, Allahın varlığını bildiklərinə baxmayaraq, “Allaha ibadət edin və Ona heç bir şeyi şərik qoşmayın!...” (Nisa surəsi, 36) ayəsi kimi bir çox Quran ayəsində Allahın Özünə şərik qoşulmasını qadağan edən əmrlərinə müxalif çıxıb şərik qoşarlar. O qədər qəflət halındadırlar ki, hər şeyin açıq şəkildə və qüsursuz ortaya çıxdığını, axirət günündə də onları qurtara bilmək üçün daha əvvəl şərik qoşduqlarını inkar edəcək dərəcədə ağılsızlıq edərlər:

**O gün onların hamısını bir yerə toplayacaq, sonra isə şərik qoşanlara deyəcəyik: “İddia etdiyiniz şərikləriniz haradadır?” Sonra onların: “Allaha – Rəbbimizə and olsun ki, biz müşrik olmamışdıq!” – demələrindən başqa bir bəhanələri qalmayacaq. Bax gör onlar özlərinə qarşı necə yalan söyləyirlər. Uydurduqları bütlər isə onlardan uzaqlaşıb yox olacaqlar. (Ənam surəsi, 22-24)**

Müşriklərin bu vəziyyətinə qarşı iman edənlər belə xəbərdar edilmişlər:

**Tövbə edərək Ona üz tutun, Ondan qorxun, namaz qılın və şərik qoşanlardan olmayın! O kəslərdən ki, öz dinini bölüb firqələrə ayrıldılar. Hər firqə öz təriqətini üstün bilib sevinir. (Rum surəsi, 31-32)**

Ayələrdən açıq şəkildə aydın olduğu kimi, dinlərini firqələrə ayıran müşriklərin azğın vəziyyəti sevinclə qarşılamaları onların necə böyük qəflət halında olduqlarını göstərir. Etdiklərinin yanlış olduğunu bildikləri və doğruya şahid olduqları halda haqqa yönəlməz, öz istək və həvəsləri yönündə həyatlarını davam etdirərlər.

## Şeytanın iman edənləri qəflətə salma səyi

Şeytanın ən böyük hədəflərindən biri insanları Allahın yolundan azdırmaq və cəhənnəmə sürüməkdir. Onları mənasız düşüncələrlə məşğul edib ağıllarını qarışdırmağa və sağlam düşünmələrini əngəlləməyə çalışar.

Mömin ağlı açıq, şüurlu, hər şeyi incə şəkildə düşünüb məqsədəuyğun qərarlar verən, nümunəvi davranışlar göstərən bir əxlaqa malikdir. Bu xüsusiyyətlər mömінin imanının və Allah qorxusunun bir nəticəsidir.

Ancaq şeytan zamanla unutqanlığını, diqqətsizliyini və ya bilgisizliyini fürsət bilib (bir anlıq da olsa) mömini qəflətə sürümək istəyər.

Allah "Şeytan sizi yoldan çıxartmasın. Şübhəsiz ki, o sizin açıq-aşkar düşməninizdir!" (Zuxruf surəsi, 62) ayəsi ilə möminləri bu təhlükəyə qarşı xəbərdar edir. "Şübhəsiz ki, Şeytanın hiyləsi zəifdir!" (Nisa surəsi, 76) ayəsi ilə də Allah iman edənlərə şeytanın gizli planlarının keçərsiz olduğunu müjdələyir. Bunu bilən şeytan insanları azdırmağa and içərkən (könüldən Allaha iman edən) ixlaslı qulları bunun xaricində tutur. Quranda şeytanın bu andını ehtiva edən sözləri belə xəbər verilir:

> **İblis dedi: "Sənin qüdrətinə and olsun ki, onların hamısını yoldan çıxaracağam; Təkcə Sənin seçilmiş ixlaslı qullarından başqa!" (Sad surəsi, 82-83)**

Şeytan möminləri Allahın yolundan azdıra bilməyəcəyini bildiyi halda, yenə də vəsvəsə verib bir anlıq da olsa başlarını qarışdırmağa, onları qəflətə salmağa çalışar. Möminlərin daha çox savab almalarını, Allah qatında daha yüksək dərəcələr qazanmalarını əngəlləməyə çalışar. Məsələn, xeyir iş görmək istəyən bir adama bunu daha sonra edə biləcəyini düşündürüb mane olmağa çalışar. Yaxud "Möminlərdən – üzürlülər istisna olmaqla – evdə oturanlarla Allah yolunda öz malları və canları ilə cihad edənlər eyni olmazlar. Allah öz malları və canları ilə cihad edənləri evdə oturanlardan dərəcə etibarilə üstün etdi. Allah onların hamısına ən gözəl nemət vəd etmişdir. Allah mücahidləri evdə oturanlardan böyük bir mükafatla üstün etmişdir." (Nisa surəsi, 95) ayəsində ifadə edildiyi kimi, bəzi möminləri Allah yolunda mübarizədən saxlayıb onların daha üstün dərəcələr qazanmağına mane olmaq istəyər.

Şeytan möminlərin çətin vaxtlarda, xəstəlikdə və döyüşün qızğın zamanlarında göstərə biləcəkləri bir anlıq zəifliyi fürsət bilib onlara vəsvəsə verməyə çalışar.

Allah insanı şübhəsiz, çətinliklə də sınayır. Çətinlik, təzyiq və sıxıntının yaşandığı vaxtlarda insanların göstərdiyi davranışlar çox əhəmiyyətlidir. Necə ki, Peyğəmbərimizin (s.ə.v.) dövründə davamlı olaraq yanında olan və onunla birlikdə döyüşə çıxan möminlərdən bəziləri döyüşün qızışdığı çətin anlarda qəflətə qapılmışlar. Bu yanlış davranışın xəbər verildiyi ayə belədir:

> **O zaman onlar sizin həm yuxarı və həm də aşağı tərəfinizdən üstünüzə gəlmişdilər. O vaxt qorxudan gözlər bərəlmiş, ürəklər xirtdəyə çatmış və siz də Allah barəsində zənnə-gümana qapılmışdınız. (Əhzab surəsi, 10)**

Allah bu cür yanılmalar səbəbi ilə bir anlıq qəflətə düşən möminləri tövbə edəcəkləri təqdirdə bağışlayacağını Quranda müjdələmişdir. Tövbə xəta edən röminə verilən böyük bir imkandır. Quranda döyüşdən geri qalan üç möminin peşmanlığını və Allahın onları bağışlaması belə bildirilir:

> **Geri qalmış üç nəfəri də bağışladı. Hətta yer üzü öz genişliyinə baxmayaraq onlara dar gəlmiş, ürəkləri kədərdən sıxılmış və yəqin bilmişdilər ki, Allahdan (Onun əzabından), ancaq Onun Özünə sığınmaqdan başqa çarələri yoxdur. Sonra Allah peşman olsunlar deyə onların tövbəsini qəbul etdi. Həqiqətən, Allah tövbələri qəbul Edəndir, Rəhmlidir. (Tövbə surəsi, 118)**

Xəta edincə “Hər şeyi itirdim”, “Bu vəziyyəti düzəltməm qeyri-mümkündür” şəklində ümidsizliyə qapılmaq da şeytanın qəflətə salmaq üçün verdiyi vəsvəsələrdən biridir.

Ancaq mömin bu cür düşüncələrin şeytanın vəsvəsəsi olduğunu bilər və bu vəsvəsələri dinləməz. Dərhal Allaha yönələr. Tövbə edib qəflətə düşməkdən Allaha sığınar. Möminlərin şeytanın vəsvəsələri qarşısındakı bu davranışları Quranda belə bildirilir:

> **Allahdan qorxanlara şeytandan bir vəsvəsə toxunduğu zaman Allahı xatırlayar və dərhal gerçəyi görərlər. (Əraf surəsi, 201)**

Möminlər onları qəflətə sürüyən mənasız düşüncələrdən Allaha sığınaraq və hər an Allahı xatırlayaraq çəkinərlər. Bundan başqa, Quranı həmişə oxuyub, ayələr üzərində təfəkkür edib və çoxlu dua edib bir anlıq da olsa, qarşılaşa biləcəkləri qəflət təhlükəsindən Allahın izni ilə qorunarlar.

## Qəflət halındakı insanların xəbərdar edilməsi

Qəflət halındakı insanlar Allahın onlara göndərilən peyğəmbərlər, elçilər, kitablar və xəbərdaredicilər vasitəsilə xəbərdar edilərlər.

Allah seçdiyi, üstün anlayış və nur verdiyi elçilərini tarixin hər dövründə haqq dindən uzaqlaşan və qəflət halında yaşayan qövmlərə xəbərdaredici kimi göndərir. Peyğəmbərimiz (s.ə.v.) də qəflət halındakı bir qövmə xəbərdaredici olaraq göndərilmişdir:

> **Ataları xəbərdar edilməmiş, özləri də qafil olan bir tayfanı xəbərdar edəsən. (Yasin surəsi, 6)**

Qəflət halındakı bu qövmün xəbərdar edilməsi üçün Allah Peyğəmbərimiz hz Muhəmmədi (s.ə.v.) seçmiş, ona qövmünü xəbərdar edib qorxutmaq və haqq dini təbliğ etmək vəzifəsini vermişdir. Peyğəmbərimizə (s.ə.v.) bu vəzifəsini bildirən ayələrdən biri belədir:

**Sən onları işin bitmiş olacağı peşmançılıq günü ilə qorxut! İndi onlar hələ qəflətdədirlər və iman gətirmirlər. (Məryəm surəsi, 39)**

Peyğəmbərlər və xəbərdaredicilər göndərildikləri cəmiyyətlərə Allahın və axirətin varlığını, Rəbbimizin üstün qüdrətini bildirmiş, Allahın varlığının yerdəki və göylərdəki dəlillərini göstərmişlər. Bir çox təbliğ üsulundan istifadə edib insanları Allaha imana və itaətə dəvət etmişlər. Halbuki bir çox insanlar göylərdəki və yerdəki saysız möcüzə sistem və nizama baxmayaraq, Allahın qüdrətini lazım olduğu kimi təqdir edə bilməmiş, qəflət halında Allahdan üz çevirməyə davam etmişlər.

Məsələn, hz Musa qövmünü Allahın varlığını və üstün qüdrətini göstərən bir çox möcüzə ilə xəbərdar etmişdir. Lakin qövmü bütün bu möcüzələrə baxmayaraq, zülm və təkəbbürlərinə görə inkarda qalmağa inad etmişlər. Vicdanları qəbul etdiyi halda inkarda inad edən və qəflətdə qalmağa davam etdirən bu cür insanların vəziyyəti ayələrdə belə təsvir edilir:

> **Möcüzələrimiz onlara aşkar şəkildə göstərildikdə: "Bu, açıq-aydın bir sehrdir!" – dedilər. Buna qəti inandıqları halda, haqsızcasına və təşəxxüslə onları inkar etdilər. Gör fəsad törədənlərin aqibəti necə oldu! (Nəml surəsi, 13-14)**

Allah insanları hər an müxtəlif vəsilələrlə xəbərdar edir. Hal-hazırda oxuduğunuz bu kitab, imanlı birinin sözləri, insanın öz vicdanı, mətbuatda çıxan ibrətamiz bir xəbər və ya yazı vasitəsi ilə insana çatar. İnsanın eşitdiyi və gördüyü hər şey əslində Allahın diləməsi ilə insanların qarşısına çıxan, Allahdan gəldiyini dərk edib qiymətləndirdikləri təqdirdə onları Allaha yönəldən bir xəbərdaredicidir.

Allah ayələrində müxtəlif vəsilələrlə xəbərdar etdiyi, həqiqətləri xatırlatdığı insanlara düzəltmələrini və doğru yolu tapmalarını əmr edir.

# QƏFLƏTDƏ OLANLARIN XÜSUSİYYƏTLƏRİ

Qəflət halında Allahın və axirətin varlığını göz ardı edən insan dünyada müəyyən istək, arzu və həvəslərə yönəlmişdir; bunların arxasınca sanki ovsunlanmış kimi qaçar. Dünyada özünə görə təyin etdiyi mövqe, məqam, mal-mülk sahibi olmaq kimi məqsədlər üçün səy göstərər. Davamlı olaraq, qazandığı və ya qazanacağı pulla edə biləcəyi şeyləri düşünər, bunların xəyallarını qurar və bunlardan bəhs edər. Bunlarla o qədər məşğul olar ki, Allahın əmr və qadağalarını göz ardı edər, hətta ağlına belə gətirməz. Allahın elm və qüdrətini haqqı ilə qavraya bilmədiyi üçün də Onun əmr və qadağalarını yerinə yetirməz və Rəbbimizin sərhədlərini aşmaqda qorxu görməz.

Allahın xatırlanması axirətə inanmayanların vicdanlarının səsini yüksəldər və onlara qəflət halında olduqlarını xatırladar. Onlar isə Allaha qarşı məsuliyyəti xatırlamaq və bu məsuliyyətlərini yerinə yetirmək nəfslərinə zidd olduğuna görə, içində olduqları qəflətə möhkəm sarılmağı seçərlər. Bu səbəblə, Allah xatırlandığı zaman böyük sıxıntı hiss edərlər. Quranda “Allah tək olaraq anıldığı zaman axirətə inanmayanların qəlbləri nifrətlə dolar. Ondan başqaları yad edildiyi zaman isə onları dərhal sevinc bürüyər” (Zumər surəsi, 45) ayəsi ilə bu insanların vəziyyəti xəbər verilir.

İndi qəflət halındakı insanların ümumi xüsusiyyətlərini araşdıraq:

## Allahı və axirəti xatırlamazlar, qəlbləri dünya həvəsi ilə doludur

Quranda möminlərin əxlaqı təsvir edilərkən dünyadakı heç bir şeyin onları Allahı xatırlamaqdan və onlara fərz olan ibadətləri yerinə yetirməkdən yayındırmadığı bildirilir:

> **O kişilər ki, nə ticarət, nə də alış-veriş onları Allahı zikr etməkdən, namaz qılmaqdan və zəkat verməkdən yayındırmır. Onlar qəlblərin və gözlərin çevriləcəyi bir gündən qorxurlar. (Nur surəsi, 37)**

Bu ayədə bildirildiyi kimi, möminlər heç bir zaman arzularını şövq halına gətirib həvəslə onların arxasından qaçmaz, Allahı xatırlamaqdan və Onun əmrlərini yerinə yetirməkdən üz çevirməzlər.

Lakin möminlərin əksinə, qəflət halındakı insanların qəlbləri dünya malına sahib olmaq həvəsi ilə doludur. Bu həvəslə hansı vəziyyətdə olursa-olsun, həmişə daha çoxunu qazanmaq və daha yaxşı yaşamaq üçün çalışarlar. Pul ilə güc və şəxsiyyət qazanıb xoşbəxt ola biləcəklərini düşünərlər. Əvvəl qazanmağa çalışar, sonra da qazandıqlarını yığmağa başlayarlar. Bu həvəslərini qanuni və məqbul göstərmək üçün də müxtəlif bəhanələr gətirərlər. Allahın rizası üçün qazanıb xərcləməkdən qaçan, yalnız dünyəvi arzularını təmin etməyi düşünərək malını yığan bu insanları gözləyən son Quranda belə xəbər verilir.

> **O gün bu yığdıqları sərvətlər Cəhənnəm odunda qızdırılacaq və bununla onların alınlarına, böyürlərinə və kürəklərinə damğa vurulacaq və onlara: "Budur özünüz üçün yığdıqlarınız. Elə isə dadın yığdıqlarınızı!" – deyiləcəkdir. (Tövbə surəsi, 35)**

**O şəxs ki, mal-dövlət toplayıb onu təkrar-təkrar sayır və elə güman edir ki, var-dövləti onu əbədi saxlayacaqdır. Xeyr! O, mütləq Hutəməyə atılacaqdır. (Hüməzə surəsi, 2-4)**

Mal və mülk həvəsi səbəbi ilə onu gözləyən bu sondan qafil olan insanın beynini pul qazanmaq və xərcləmək tamahı həmişə məşğul edər. Pul qazanırsa, pulu ilə əldə edə biləcəklərini düşünər; əgər qazana bilmirsə, qibtə ilə arzuladığı şeylərə sahib olmanın yollarını axtarar. Bu düşüncələrinin səbəb olduğu qəflət onun Allahı anmağına, beş vaxt namazını qılmasına, zəkatı verməsinə mane olar. Halbuki qəlbi yalnız Allahın rizasını qazanmaq arzusu ilə dolu olan mömin qazandığı pulu, əldə etdiyi mal və mülkü yalnız Allahın verdiyini və bütün bunları Onun rizasını qazanmaq üçün xərcləməyin lazım olduğunu heç vaxt unutmaz. Yalnız Allahın rizasını və rəhmətini düşünüb dinə kömək etmək məqsədi ilə çalışar. Bu vəziyyətdə möminin səmimi səyindən başqa həvəs və tamaha qapılması mümkün deyil. Bu vəziyyəti isə günün hər saatında Allahı anmasına, Ona yönəlib dua etməsinə və hər şeyin Rəbbimizdən gəldiyini bilərək sahib olduqlarının hamısını ancaq şükür və zikr vəsiləsi olaraq görməsinə səbəb olar.

Böyük mülk sahibi olduğu halda malını tamah və əyləncə mövzusu etməyən, onu şükür və zikr vəsiləsi kimi görən hz Süleymanın bu nümunəsi Quranda insanlara belə bildirilir:

**Bir dəfə axşam çağı ona üç ayağı üstündə durub bir ayağının dırnağını yerə vuran, çapar atlar göstərildi. Süleyman dedi: "Mən, günəş üfüqdə batanadək nemətə olan məhəbbəti Rəbbimi zikr etməkdən üstün tutdum – Sonunda bu atlar (qaçdılar və toz) pərdəsinin arxasında gizləndilər". (Sad surəsi, 31-32)**

Allah hz Süleymana o zamana qədər kimsəyə vermədiyi bir güc və iqtidar vermişdir. Süleyman Peyğəmbər də bu imkanlarını Allahın şanını ucaltmaq, Onun dinini və din əxlaqının izzət və şərəfini yaymaq üçün istifadə etmişdir. Həmişə mal və mülkün həqiqi sahibi olan Allaha şükür etmişdir.

Qəflət halında Allahın rizasından üz çevirib zənginlik, mövqe və ya şöhrətin xoşbəxtlik və hüzur gətirəcəyini düşünənlər, bu cür söhbətlərin edildiyi mühitlərdən də böyük nəfsani zövq alarlar. Özünü tərifləmə, başqalarını tənqid etmə kimi mövzular üzərində danışar, mənasız və faydasız danışıqların göstərildiyi televiziya proqramlarını saatlarla izləyərlər. Heç bir nəticəsi olmayan, heç bir fayda verməyən bu söhbətləri böyük zövqlə dinləyərkən Quranı dinləməkdən xoşlanmazlar, hətta dinləməyə səbirləri belə çatmaz. Qəflət halındakı bu insanların vəziyyəti bir ayədə belə xəbər verilir:

> **O kəslərə ki, gözlərinə Məni anmamaq üçün pərdə çəkmişdilər, özləri də eşidə bilmirdilər. (Kəhf surəsi, 101)**

Halbuki mömінin qəlbi dünya nemətlərinə sahib olmaqla və ya bu mövzudakı mənasız söhbətlərlə deyil, ancaq Allahı zikr etməklə, Quran oxumaqla və olduğu mühitdə Allahın anılması ilə hüzur tapar. Çünki Allahın "Bunlar, iman gətirənlər və qəlbləri Allahı zikr etməklə rahatlıq tapanlardır. Bilin ki, qəlblər ancaq Allahı zikr etməklə rahatlıq tapır." (Rəd surəsi, 28) ayəsində bildirdiyi kimi, qəlblər yalnız Allah anıldığında rahatlayıb hüzur tapar.

## Ağılsızdırlar

Cahiliyyə cəmiyyətinə görə ağılsızlıq yalnız beyinləri qüsurlu olan və anormal davranışlar göstərən insanlar üçün keçərlidir. Halbuki Qurana görə bu tərif daha fərqlidir. Qurana görə Allahı və axirət gününü tanımayan, Allahın rizasını deyil, öz həvəs və nəfsinin istəkləri yönündə yaşayan insanlar düşünə bilməyən kəslərdir. Bu tərifə görə düşünüldüyündə isə ağılsız insanların yalnız dəlixanadakı xəstələrdən ibarət olmadığı, cəmiyyətin olduqca geniş hissəsinin bu tərifin içində yer aldığı görünər.

Ağıl Allahın möminə verdiyi ən böyük nemətlərdən biridir. Ağıllı insan vicdanını sonadək istifadə edən, Allahın elm və qüdrətini lazım olduğu kimi təqdir edə bilən, Ona qarşı hörmətlə qorxu duyan, Onun rizasını qazanmağa, özünü sonsuz əzabdan qorumağa çalışan və axirətdəki sonsuz nemətlərə qovuşmaq üçün səy göstərən insandır. Bu insanlar Allahın yaratdıqları üzərində dərindən düşünüb Allahın sonsuz gücünü və böyüklüyünü haqqı ilə təqdir edə bilən insanlardır, yəni möminlərdir. Bu qabiliyyətdən məhrum ağılsız insanların Quranda təsvir edildiyi ayə isə belədir:

> **Məgər onlar yer üzündə gəzib dolaşmırlarmı ki, zalımların aqibətini qəlbi ilə düşünüb, qulaqları ilə eşitsinlər? Çünki əslində maddi gözlər deyil, köksləndəki qəlb kor olur. (Həcc surəsi, 46)**

Bu ağılsız insanların ən diqqəti cəlb edən xüsusiyyəti isə həvəslə bağlandıqları dünya həyatını axirətdən üstün tutmaqlarıdır. Halbuki Quranda Allah dünya həyatının həqiqi yönünü təsvir edərək bu mövzuda aldanan insanları düşünmələri üçün belə xəbərdar edir:

**Dünya həyatı oyun və əyləncədən başqa bir şey deyildir. Müttəqilər üçün isə axirət yurdu daha xeyirlidir. Məgər anlamırsınız? (Ənam surəsi, 32)**

**Sizə verilən hər şey ancaq dünya həyatının keçici zövqü və onun bərbəzəyidir. Allah yanında olanlar isə daha xeyirli və daha sürəklidir. Məgər başa düşmürsünüz? (Qəsas surəsi, 60)**

**Sizə sizləri xatırladan bir Kitab nazil etdik. Məgər başa düşmürsünüz? (Ənbiya surəsi, 10)**

Allahın yer üzündə yaratdığı mükəmməl və nizamlı sistemləri, canlıları və ibrət olsun deyə yaratdığı şeyləri görə bilmək ancaq qəflətdən uzaq, ağlını işlədə bilən möminlərə xas bir xüsusiyyətdir. Şüuru açıq, ağıllı bir mömin ətrafında gördüklərini diqqətlə araşdırar və gördüklərinin üzərində dərin təfəkkür edər. Allah Quranda ağcaqanadı, bal arısını, hörümçəyi və yaratdığı bir çox canlını insanların düşünüb-daşınmaları üçün elminə, qüdrət və sənətinə nümunə göstərmişdir. Lakin etdikləri işlərdən sahib olduqları bir çox xüsusiyyətə qədər canlılardakı mükəmməllikləri görüb bunlarla Allahın gücünü və sənətini təqdir edə bilmək ancaq ağıl sahibi olan möminlərə xas olan xüsusiyyətdir. Qəflət halındakı ağılsız insanlar üçün isə bu canlılar hər gün ətraflarında görməyə alışdıqları sadə, sıravi varlıqlardır. Arını yalnız çiçəklərə qonan və ya vızıltı ilə uçan bir heyvan kimi, ağcaqanadı da yalnız qan soran bir düşmən kimi görmək qəflət halında düşünə bilməyən insanlara aid olan xüsusiyyətdir. Bu insanların Allah qatındakı mövqeyi isə Quranda belə xəbər verilir:

**Şübhəsiz ki, Allah yanında canlıların ən pisi haqqı anlamayan karlar və lallardır. (Ənfal surəsi, 22)**

Qəflət halındakı insanların durumunda əhəmiyyətli olan digər bir nöqtə isə ağıl və ağılsızlıq arasında doğru bir seçim edə bilmədikləri üçün özlərini ağıllı, ağıllı insanları isə ağılsız zənn etmələridir. Qafillərin bu yanlış baxışı Quranda belə xəbər verilir:

**Onlara: "Bu insanlar iman gətirdiyi kimi siz də iman gətirin!" – deyildiyi zaman: "Biz də səfehlərin iman gətirdikləri kimi iman gətirək?" – deyirlər. Doğrusu, onlar özləri səfehdirlər, lakin bunu bilmirlər. (Bəqərə surəsi, 13)**

## Doğru yolda olduqlarını zənn edirlər

Ümumi cəmiyyəti nümunə götürüb düşündüklərinin və etdiklərinin doğruluğuna özünü inandırmaq qəflət halındakı insanların ən diqqəti cəlb edən xüsusiyyətlərindəndir. Bu axmaq inanca sahib olan insanlar özlərinə görə heç kimə zərər verməzlər, qəlbləri yaxşılıqla doludur və bu səbəblə də sahib olduqlarına layiq olmuşlar. Belə düşünən insanların böyük yanılmada olduqları, lakin bunu da dərk etmədikləri ayələrdə belə bildirilir:

**Yoxsa günahkarlar elə hesab edirlər ki, onlara var-dövlət və övlad verməklə onlara yaxşılıq etməyə tələsirik? Xeyr, onlar bu işin fərqinə varmırlar. (Muminun surəsi, 55-56)**

Şüursuz şəkildə doğru yolda olduqlarını düşünərək şeytanın qəflət halında yaşayan insanlara Allahın əmr və qadağalarını yerinə yetirməyə mane olduğu Quranda belə bildirilmişdir:

**Şübhəsiz ki, şeytanlar onları haqq yoldan sapdıracaq, onlar isə özlərinin haqq yolda olduqlarını güman edəcəklər. (Zuxruf surəsi, 37)**

Allah doğru yolda olduqlarını düşünənləri Quranda belə xəbərdar etmişdir:

> **...Rəbbiniz isə kimin doğru yolda olduğunu daha yaxşı bilir". (İsra surəsi, 84)**

Bu cür insanların ibrət verici durumlarına Quranda bağ sahibləri olan iki nəfərin hekayəsi nümunə verilmişdir. İmanlı insanla qəflət halındakı insan arasında keçən danışıq Quranda belə xəbər verilir:

> **Onlara iki kişinin əhvalatını misal çək. Bunların birinə iki üzüm bağı verib onları xurmalıqlarla əhatə etdik və aralarında əkin saldıq. Hər iki bağ öz barını verdi və bu bardan heç bir şey əskilmədi. Biz də onların arasından bir çay axıtdıq. Onun başqa sərvəti də var idi. O öz mömin yoldaşı ilə söhbət edərkən ona: "Mən sərvətcə səndən daha zəngin və adamlarıma görə səndən daha qüvvətliyəm!" – dedi. (Kəhf surəsi, 32-34)**

> **O özünə zülm edərək bağına daxil olub dedi: "Bunun nə vaxtsa yox ola biləcəyini düşünmürəm. O Saatın gələcəyini də zənn etmirəm. Rəbbimin yanına qaytarılmalı olsam, sözsüz ki, bundan daha firavan bir həyat qismətim olacaq!" (Kəhf surəsi, 35-36)**

**Onunla söhbət edən yoldaşı isə dedi: "Səni torpaqdan, sonra nütfədən yaratmış, daha sonra səni kişi qiyafəsinə salmış Rəbbinə küfrmü edirsən? Lakin Allah mənim Rəbbimdir və mən heç kəsi Rəbbimə şərik qoşmaram! Bağına girdiyin zaman: "Maşallah (Allahın istədiyidir)! Qüvvət yalnız Allaha məxsusdur!" – deməli deyildinmi? Əgər var-dövlətcə və övladca məni özündən kasıb sayırsansa, ola bilsin ki, Rəbbim mənə sənin bağından daha yaxşısını versin, sənin bağına isə göydən bir bəla göndərsin və o, hamar bir yerə dönsün. Yaxud suyu çəkilib getsin və bir də onu axtarıb tapa bilməyəsən!" (Kəhf surəsi, 37-41)**

**Beləcə, onun bağının məhsulu bir anda məhv edildi. O, bağını belə görüb ora qoyduğu xərcə görə peşmançılıq çəkməyə və əllərini bir-birinə vurmağa başladı. Bağın talvarları belə darmadağın olub yerə yıxılmışdı. O dedi: "Kaş Rəbbimə heç kəsi şərik qoşmayaydım!" Allahdan başqa ona yardım edə biləcək dostlar yox idi və o da öz-özünə kömək edə bilməzdi. Belə hallarda kömək etmək ancaq Haqq olan Allaha məxsusdur. Ən yaxşı mükafat verən və ən gözəl aqibət nəsib edən Odur. (Kəhf surəsi, 42-44)**

Sahib olduğu malına və uşaqlarına aldanan, doğru yolda olduğunu zənn edən bağ sahibinin ifadələri onun içində olduğu qəfləti açıq şəkildə göstərir.

Bütün qürur və cəhaləti ilə Allahın qüdrətini qavraya bilməyib ayədə xəbər verildiyi kimi, "Əgər Rəbbimin yanına qaytarılmalı olsam, sözsüz ki, bundan daha firavan bir həyat qismətim olacaq!" deyir. Bundan başqa, elə dərin bir qəflət halındadir ki, bağçasını özünün var etdiyini və sonsuza qədər qoruya biləcəyini güman edir. Bu aldanışın nəticəsində də qəflət halında etdiklərinə qarşılıq olaraq fəlakət ona qəflətən gəlmişdir.

Qəflət halında olduğu halda doğru yolda olduğunu düşünən bəzi insanlar Allahın rizasını düşünmədən adət-ənənələrindən gələn bir adəti davam etdirmək, özünü göstərmək və ya vicdanlarını rahatlatmaq üçün onlara görə bəzi yaxşılıqlar edirlər. Bu yaxşılıqlar isə mənfəətlərinə qətiyyən zidd olmayan işlərlə məhdudlaşır. Halbuki həqiqi məqsədi göstəriş və minnət olan belə işləri onlara axirətdə fayda verməyə bilər. Onlar isə Allahın rizasının əvəzinə insanların rizasını düşünüb etdikləri bu işlərin qarşılığının ola bilməyəcəyindən xəbərsizdirlər və doğru yolda olduqlarından əmindirlər.

Bu insanlar sahib olduqları malları və uşaqları ilə hər hansı çətinlik və ya sıxıntı ilə qarşılaşmadan yaşamalarını doğru yolda olduqlarının bir göstəricisi kimi görürlər. Halbuki, Allah dünyadakı imtahanın zərurəti kimi onlara dünyada vaxt verir, amma onların axirətdə bir payı yoxdur:

> **Kim dünya həyatını və onun bərbəzəyini istəyirsə, onlara əməllərinin əvəzini orada tam verərik və onlar orada zərər çəkməzlər. Onlar, axirətdə özləri üçün oddan başqa heç bir şeyi olmayan kimsələrdir. Onların dünyada gördükləri işlər boşa çıxar və tutduqları əməllər puç olar. (Hud surəsi, 15-16)**

İnsanların özlərini aldatdıqları bu halları ilə qəflət halında acı bir ölümə və əbədi əzaba doğru sürünməkdən başqa qazancları yoxdur:

> **Onların nə malları, nə də övladları səni təəccübləndirməsin. Allah bunlarla, bu dünyada onlara əzab vermək və onların kafir olaraq canlarının çıxmasını istəyir. (Tövbə surəsi, 85)**

## Hadisələrə olduqca çox reaksiya verirlər, təvəkkülsüz və üsyankar davranırlar

Mömin hər hadisənin Allahın idarəsində olduğunu bilir. Hadisələr qarşısında təvəkküllü hərəkət edər. Heç bir hadisə qarşısında Qurana zidd davranış göstərməz. Məsələn, çətin və sıxıntılı hadisələr qarşısında bunların Allahın imtahanı olduğunu düşünərək böyük səbir göstərər. Dolayısı ilə göstərdiyi səbir və təvəkkülün Allah qatında qarşılıq görə biləcəyinin sevincini yaşayar. İman etməyən insanların üsyan edəcəyi, hər cür çətinliyi səbirlə və təslimiyyətlə qarşılamayacaqları ortadadır. Çünki bunların hamısını ona verən Allahdır və Allah verdiklərindən azaltmaqla insanları sınayacağını Quranda belə bildirir:

> **Biz sizi bir az qorxu, bir az aclıq, bir az da mal-dövlət, insan və məhsul itkisi ilə sınayarıq. Səbir edənlərə müjdə ver. (Bəqərə surəsi, 155)**

Mömin Allahın bu müjdəsini çətin hadisələr qarşısında xatırlayıb səbir göstərməkdə daha qərarlı və istəkli olar. Bundan başqa ona verilən mal, mülk, mövqe kimi nemətlərin ona sınanması üçün verildiyinin, qarşılığında isə şükür etməsinin və bunları Allahın rizası və istəkləri yönündə istifadə etməsinin lazım olduğunu düşünər. Allah qullarını hər cür hadisə ilə yoxlayacağını Quranda belə bildirir:

> **Hər kəs ölümü dadacaqdır. Biz sizi sınamaq üçün şər və xeyirlə imtahana çəkirik. Siz ancaq Bizə qaytarılacaqsınız! (Ənbiya surəsi, 35)**

Qəflət halındakı insan isə bu həqiqətlərdən xəbərsizdir, yaxud bildiyi halda üz çevirmişdir. Dolayısı ilə, qarşılaşdığı hadisələr qarşısında göstərdiyi reaksiya möminlərdən çox fərqlidir.

Məsələn, mallarının itməsinin Allahın bir sınağı olduğunu bilən möminlər bunu təvəkküllə qarşılayar. Halbuki, bu vəziyyət qəflət halındakı insanlarda həm maddi, həm də mənəvi zərərə səbəb olar. İtirdikləri şeylər nəticəsində əhvalları pozular, bu mənəvi pozuntu daha da böyüyüb onları əsəbləşdirər və ruhi sağlamlıqları pozular. Dostlarının uzaqlaşmaları, sahib olduqları təmtərağa vida etmələri vəziyyətlərini daha da pisləşdirər və bəzən onları intihara qədər aparar.

Göründüyü kimi, qəflət halındakı insanlar gündəlik həyatlarında təvəkkülsüz, üsyankar və Allahın rizasından uzaq bir həyat yaşayarlar.

# QƏFLƏTİN SƏBƏBLƏRİ

## Vicdanın səsinə qulaq asmamaq

Vicdan insana Allahın ilhamı ilə davamlı şəkildə doğru yolu göstərir. Quranda vicdanın tərifinin keçdiyi ayələr belədir:

> **And olsun nəfsə və onu yaradıb kamilləşdirənə, ona günahları və Allahdan qorxmağı təlqin edənə! Nəfsini günahdan təmizləyən uğur qazanmışdır. Onu günaha batıran isə ziyana uğramışdır. (Şəms surəsi, 7-10)**

"Fücur" nəfsin istək və arzularını haram və ya qeyri-qanuni yollarla da olsa, reallaşdırmaq istəməsidir. Allah fücura qarşı insanı davamlı olaraq ilhamı ilə xəbərdar edir. Bu ilhamı isə insan vicdanın səsi hesab edir. Bu səsə daima tabe olmaq insanı pisliklərdən və günahlardan təmizləyər, sonsuz qurtuluş və xoşbəxtlik yurduna aparar. Bu səsi dinləməyən insan nəfsinin hədsiz arzularına hər necə olursa-olsun çatmağa çalışar. Beləliklə, əvvəlcə dərin qəflətə düşər, sonra da böyük bir əzaba doğru irəliləyər. Qəflət halındakı insanların vicdanın səsinə baxmayaraq, inkarda inad etmələri Quranda belə bildirilir:

> **Buna qəti inandıqları halda, haqsızcasına və təşəxxüslə onları inkar etdilər... (Nəml surəsi, 14)**

Vicdanın səsi nəfsin hədsiz arzularına qarşı insanı davamlı olaraq xəbərdar edər və insanı doğru yola dəvət edər. Qafil insan isə bu xəbərdarlığa (nəfsinin istəkləri ilə üst-üstə düşdüyü üçün) rahatlığını və hüzurunu pozacağı narahatlığı ilə önəm verməz. Məsələn, Allah beş vaxt namazı möminlərə fərz etmişdir, ancaq nəfs bəzən bu ibadəti yerinə yetirməmək üçün müxtəlif bəhanələr gətirər. Vicdanına qulaq asan bir insan bu bəhanələrə heç bir şəkildə aldanmaz.

Namazın ciddiyyətlə, heç axsatmadan, tam vaxtında, böyük bir şövq və itaətlə yerinə yetirilməsi lazım olan bir ibadət olduğunu bilər. Hər insanın axirətdə namaz ibadətini yerinə yetirib-yetirmədiyi mövzusunda sorğuya çəkiləcəyinə heç şübhə etmədən hərəkət edər.

Peyğəmbərimiz (s.ə.v.) də bir çox hədisi-şərifində beş vaxt namazın əhəmiyyətinə diqqət çəkmişdir. Əbu Hüreyrədən (r.ə.) rəvayət edilən qüdsi hədisində Rəsulullah belə buyurur:

"Beş vaxt namaz, böyük günahlardan çəkindikdə, növbəti həftədəki cümə gününə və növbəti ildəki ramazana qədər səhvlər üçün kəffarədir". (Müslim), (Riyazüs-salehin, imam Nəvəvi, tərcümə edən: Mehmet Emre, Bədir nəşriyyat, səh 698)

Rəsulullah (s.ə.v.) əfəndimiz namaz qılmamağın və ya namaz vaxtını keçirməyin nə qədər təhlükəli olduğunu isə başqa mübarək hədisi-şəriflərində belə bildirmişdir:

İmam Safı ilə Beyhəkiyə görə Peyğəmbərimiz (s.ə.v.) "Hər hansı vaxtın namazını qılmadan vaxtını keçirənlər yuvası dağılmış, mal-mülkünü əldən qaçırmış kimidirlər" buyurur. (İmam Qəzali, Qəlblərin kəşfi)

Bu səbəblə, qafil insan vicdanından gələn bu səsi onun Allahın (doğru yola, sonsuz xoşbəxtliyə çağıran) ilhamı olduğunu göz ardı edib davamlı susdurmağa çalışar. Çünki bu səs dayanmadan nəfsin qeyri-qanuni yollarla istəklərinə çatmasına qarşı çıxır.

Vicdanın səsini dinləməməyə görə qəflət halına düşmək isə nəfsin üsyanla, günahla və pozulmalarla daha da pisləşib fücurun (sərhəd tanımaz günah və pisliyin) artmasına səbəb olar. Qafil insan artıq elə bir dərin düşüncəsizlik içindədir ki, həyatını fücurla davam etdirmək istəyər:

**Lakin insan bundan sonra da günah etmək fikrindədir. O: "Qiyamət günü nə vaxt olacaq!" – deyə rişxəndlə soruşur. Gözlər bərələ qalacağı, ay tutulacağı və günəşlə ayın qovuşacağı zaman – o gün insan deyəcəkdir: "Hara qaçaq?" Xeyr, o gün pənah aparılacaq yer tapılmayacaq. O gün qayıdış ancaq sənin Rəbbinə olacaqdır. (Qiyamət surəsi, 5-12)**

Vicdanını dinləməyən insanın Allahın rizasından uzaq, qafil davranışlarının nəticəsi isə, əlbəttə, böyük bir müsibət olur. Bu müsibət də dünyadakı ən böyük acı və ən böyük işgəncələrlə belə müqayisə edilə bilməyəcək dərəcədə şiddətli və sonsuz əzab deməkdir. Bu əzab yeri də şübhəsiz, atəş çuxuru olan cəhənnəmdir.

## Qədərin göz ardı edilməsi

Qədər Allahın bütün varlıqların yaşayacaqları hal və hadisələri əvvəldən təyin etməsidir. Geniş izah etsək, böyük və kiçik bütün canlıların (kiçik bir ağcaqanad, böyük bir fil, dənizdəki kiçik balıq balası və ya dünyanın hər hansı yerindəki mikroskopik canlıya qədər) və ucsuz-bucaqsız kainatdakı bütün varlıqların bütün hallarını, başlarına gələcək böyük-kiçik hər hadisəni Allahın təqdir etməsidir.

İnsanın gözlərini dünyaya açdığı andan etibarən sahib olduğu heç bir fiziki xüsusiyyətin seçimi ona aid deyil. Ata-anasını seçə bilməz, dərisinin rəngini, gözünün rəngini, boyunu öz istəyinə görə təyin edə bilməz. Aydındır ki, heç bir fiziki xüsusiyyətini seçmə gücünə sahib olmayan insanın yaşayacaqlarını da öz istəyinə görə təyin etməsi mümkün deyil. Quranda "Şübhəsiz ki, Biz hər şeyi müəyyən ölçüdə yaratdıq" (Qəmər surəsi, 49) ayəsi ilə bu həqiqət insanlara xəbər verilmişdir.

Bunu düşünən insan sahib olduğu hər şeyi və qarşılaşdığı hər hadisəni Allahın rizasına və rəhmətinə yönəlib Allahın istədiyi şəkildə qiymətləndirməlidir. Quran bu qiymətləndirmədə tək yol göstəricidir. Nə hər hansı bir insan (istər böyük gücə sahib biznesmen, istərsə də Afrika qitəsində yaşayan qəbilə üzvü olsun), nə də hər hansı bir varlıq (istər dənizin dərinliklərində yaşayan canlı olsun, istərsə də nəhəng meşədə yaşayan kiçik böcək olsun) Allahın ona təyin etdiyi qədərin xaricinə çıxa bilməz. İnsanın etdiyi hər şey də ona təyin olunmuş qədər yönündə reallaşır. Bu vəziyyət Quranda insanlara belə bildirilir:

> **Sən hansı bir işdə olsan, Qurandan nə oxusan, siz nə iş görsəniz, başınız ona qarışarkən Biz sizə şahid olarıq. Nə yerdə, nə də göydə zərrə qədər bir şey Rəbbindən gizli qalmaz. Bundan daha kiçiyi və daha böyüyü yoxdur ki, açıq-aydın Yazıda (Lövhi-Məhfuzda) olmasın. (Yunis surəsi, 61)**

İnsanın yaşadığı və yaşayacağı hər anın qədərdə təyin olunduğu bu ayələrdə bildirilmişdir. Quranda bildirilən bu həqiqətləri göz ardı edən insan ucsuz-bucaqsız kainatda, dünyadakı milyardlarla insanın arasında təsadüflər içində yaşadığını zənn edər. Bu vəziyyətdə özünü istədiyi kimi aparmaq azadlığına sahib olan başıboş canlı kimi görər. Belə bir baxış yönü də insanın özünü azad və Allahdan müstəqil bir varlıq zənn edib dərin qəflətə düşməsinə səbəb olar.

## Ölümün hər an gələ biləcəyini unutmaq

İnsanlar ümumiyyətlə, ölümlə heç gözləmədikləri bir anda, heç gözləmədikləri bir yerdə qarşılaşarlar. Allah bu həqiqəti "... Heç kəs harada öləcəyini bilməz. Allah isə, şübhəsiz ki, biləndir, xəbərdardır!" (Loğman surəsi, 34) ayəsi ilə bildirilir.

Hər insanın ölüm anı hələ doğulmamışkən qədərində müəyyəndir. Hal-hazırda yaşayanların və doğulacaq bütün insanların nə vaxt öləcəkləri müəyyəndir. Bu həqiqət Quranda “Sizi palçıqdan yaradan, sonra da bir əcəl müəyyən edən Odur. (Allahın) yanında məlum bir əcəl də vardır...” (Ənam surəsi, 2) ayəsi ilə xəbər verilir. İnsanın öz ölüm anını bilməməsi onu qəflət halında yaşamağa aparan səbəblərdən biridir. Çünki axirətdəki əzabı bilən və düşünən insan nə vaxt öləcəyini bilsə, Allahın əmrlərinə qarşı laqeyd olmaz, dünya həyatına dalıb axirəti və hesab verəcəyini unutmaz. Ölüm vaxtının bilinməməsi insanın dünyadakı imtahanının sirridir. Bunu düşünən mömin hər an öləcəkmiş kimi axirət yurdu üçün hazırlıq görər. Allahın bütün əmr və qadağalarına səmimi bir şəkildə həyatının hər anında əməl edər.

İman etməyən bir insan isə Allah rizasının deyil, nəfsinin istəkləri yönündə yaşayar. Öləcəyini bilər, ancaq ölümün axirətdə sonsuz cəhənnəm və ya sonsuz Cənnət yurdunda oyanış olduğunu qavramaz. Ölüm qəflət halındakı insanın beynində yalnız hər şeyindən və bütün sevdiklərindən uzaqlaşıb əbədi onlardan ayrılmaq düşüncəsindən ibarətdir. Bu səbəblə də, sevdiklərinə həvəslə bağlanar, ölümdən söz düşdükdə belə narahat olar. Ölüm ağlına gəldiyində isə başqa şeylər düşünərək unutmağa çalışar. Ölümü bir az düşündüyü təqdirdə sıxıntıya düşəcəyindən və həyatının dəyişəcəyindən qorxub narahat olar. Ancaq hər an həyatının sona çatacağını düşünmədiyi, ölüm üzərində təfəkkür etmədiyi üçün, Allahın əmr və qadağalarını göz ardı edər və ya təxirə salar. İbadət etmək üçün hələ vaxtının olduğunu, yaşı irəliləyincə edəcəyini düşünər. Halbuki, ömrünün nə qədər qaldığı mövzusunda heç bir fikri yoxdur. Ölümün hər an gələ biləcəyini düşünmədən davam etdirdiyi bu qəflət halı içində Allahın əmr və qadağalarını yerinə yetirməyə vaxt tapa bilmədən ölüm anidən gəlib çatar. Qəflət halındakı bu insanların həmişə uzaq gördükləri ölümlə qarşılaşdığı an Quranda belə bildirilir:

**Kaş ki, kafirlər üzlərindən və kürəklərindən onları saracaq alovdan qaça bilməyəcəkləri və onlara heç bir köməyin edilməyəcəyi vaxtın gələcəyini biləydilər! Yox, Qiyamət onlara gözləmədikləri bir halda gələcək və onları heyrətə salacaqdır. Onlar onun qarşısını ala bilməyəcəklər və onlara heç aman da verilməyəcəkdir. (Ənbiya surəsi, 39-40)**

Ayədən də açıq şəkildə aydın olduğu kimi, ölüm bəhanələri dinləmir və təqdir edilən vaxt sürətlə yaxınlaşır. Heç bir şeyin ölümə mane olması və ya onu dayandırması mümkün deyil. Quranda bunun ifadə edildiyi bir ayə belədir:

**De: "Qaçdığınız ölüm sizi mütləq haqlayacaqdır. Sonra siz qeybi və aşkarı Bilənin hüzuruna qaytarılacaqsınız. O da sizə nə etdiklərinizi xəbər verəcəkdir". (Cümə surəsi, 8)**

İnsan hər an ölə bilər, bu həqiqəti unutmağa, yaxud da bu həqiqətdən qaçmağa çalışmaq insanın qəflətdə olduğunu və ya sürətlə qəflət girdabına doğru süründüyünü göstərir. Qəflətin insanı sonsuz əzab yurduna aparacağı da qəti bir həqiqətdir.

## Tək-tənha hesab veriləcəyinin düşünülməməsi

İnsanın qəflətə düşdüyü mövzulardan bir başqası da axirətdə Allahın hüzurunda tək başına hesaba çəkiləcəyini unutmasıdır. Bir insanın ölümü nə qədər izdihamlı bir mühitdə olursa-olsun ölüm mələyi ruhunu alarkən dünya ilə və o anda yanında olan digər insanlarla əlaqəsi kəsilər. Axirətdə dirildilib hesab verməyə gedərkən məhşər izdihamının içində tək olacaq. Çünki orada heç kim başqası ilə maraqlanacaq vəziyyətdə olmayacaq. Bu təklik dünyadakına da bənzəməz. Hesaba çəkilmə anı dünyada qafil yaşamış bir insan üçün yaradılışından etibarən o zamana qədər içinə düşdüyü ən çətin andır.

Bu, dünyada etdiyi hər şeyin bir-bir hesabını verəcəyi, heç kimin olmadığını və Allahın hüzurunda son dərəcə aciz olduğunu anlamanın verdiyi təklikdir. Bütün gücündən, malından, ünvanından, mövqeyindən, şöhrətindən, dəyər verdiyi və yaxınlıq duyduğu bütün insanlardan uzaqlaşmış bir şəkildə maddi və mənəvi olaraq yalın haldadır. İnsanlara Allahın hüzurunda tək olacaqları Quranda belə xəbər verilir:

**Onların hər biri Qiyamət günü Onun hüzuruna tək-tənha gələcək. (Məryəm surəsi, 95)**

Dünyada etdiklərinin qarşılığını dərhal görməyən, özünə müddət verilən qəflət halındakı insanlar axirətdə də belə olacağını zənn edirlər. Bu düşüncələri səbəbi ilə Allahın rizasına uyğun olmayan hərəkətlər edərkən özlərində dost da axtararlar. Hətta dostlarına “dünyaya bir dəfə gəlirik”, “fikir vermə”, “babalı boynuma” kimi batil sözlər söyləyib onları da Allahın əmr və qadağalarını göz ardı etməyə və ya təxirə salmağa təşviq edərlər. Belə şüursuzca deyilən sözlərin qəflət halının bir nəticəsidir. Çünki bir insan dünyaya necə bir dəfə gəlirsə, cəhənnəmə də bir dəfə gedəcək və sonsuz əzabla qarşılaşacaq. Budur ki, bu insanlar Allahın Quranda bildirdiyi bu həqiqətdən qafildirlər. cəhənnəmdə (Allahın diləməsi xaric) sonsuza qədər qalma ehtimalını heç düşünmürlər. Bu insanların Allahın əzabına etinasız yanaşıb başqalarının günahını boynuna götürmələri isə Allahın üstün elm və qüdrətini qavramaqdan nə qədər uzaq olduqlarının bir göstəricisidir. Necə ki, bir insanın başqa insanın günahını yüklənməsinin mümkün olmadığı da Quranda açıq şəkildə bildirilmişdir:

**Heç bir günahkar başqasının günah yükünü daşımaz. Yükü ağır olan kimsə öz yükünü daşımaq üçün başqasını köməyə çağırsa və çağırdığı kimsə yaxın qohumu olsa belə, o yükdən heç nə daşınmaz… (Fatir surəsi, 18)**

**Heç bir günahkar başqasının günah yükünü daşımaz. (Nəcm surəsi, 38)**

Hər nəfs axirətdə öz etdiklərinin qarşılığını görəcək. Artıq ətrafında dünyada ikən ona "günahını boynuma götürürəm" deyən kəslər də olmayacaq. Ona kömək edən nə bir dostu, nə də qohumu olacaq. Hətta dəyər verdiyi bütün yaxınlarına dünyada onu qəflətə sürüdükləri üçün nifrət etməyə başlayar. Allah axirətdəki bu düşmənliyi Quranda belə xəbər verir:

**O gün müttəqilərdən başqa bütün dostlar bir-birinə düşmən kəsiləcəklər. (Zuxruf surəsi, 67)**

**O gün dost dosta heç bir şeylə fayda verə bilməyəcək, onlara kömək də edilməyəcəkdir. (Duxan surəsi, 41)**

Dünyadakı saxta dostluqlar yox olub gedər, axirətdə yerini düşmənliyə buraxar. Çünki bu dostluqlar Allahın rizası göz ardı edilərək qurulan mənfəət dostluqlarıdır. Dünyada ikən Allahın sevdiyi və Ona yönələn insanlarla deyil, qəflət halında inkar edən, Allahdan üz çevirən səmimiyyətsiz insanlarla dostluq edilmişdir. Əslində dünyada belə, mənfəətləri zidd olduğunda çox səmimi dostların bir-birlərinə düşmən olduqlarını tez-tez görmək mümkündür. Bir-birlərini qəflətə sürüdükləri və zərər verdikləri halda ölənə qədər pozulmayan dostluqlar isə Quranda da bildirildiyi kimi, Allahın hüzurunda düşmənliyə çevrilər. Bu düşmənlik qəflət pərdəsi gözlərindən qalxan insanların əzabın fərqində olmaları ilə başlayar. Axirətdə gözlərindən qəflət pərdəsi qaldırılan insanların səmimi etirafları Quranda belə bildirilir:

**İndi isə bizim nə şəfaətçilərimiz, nə də bizə canıyanan bir dostumuz var! Bir də dünyaya qayıda bilsəydik, möminlərdən olardıq!" (Şuəra surəsi, 100-102)**

İnkarçılar hesab günü peşmanlıq içində həmişə tək qaldıqlarını dilə gətirərlər. Ətraflarında dünyada ikən istehza etdikləri möminlər olmayacaq. Etinasız yanaşdıqları bu həqiqətlə qarşılaşınca geri dönüb həqiqətən iman edənlərdən olmağı diləyəcəklər. Bu vəziyyət ayədə belə xəbər verilir:

**Kafirlər mütləq müsəlman olmalarını arzulayacaqlar. (Hicr surəsi, 2)**

Lakin geri dönüş yoxdur.

# QƏFLƏTDƏN XİLAS OLMAQ ÜÇÜN

## Quran oxumaq və ayələr üzərində düşünmək

Qəflət təhlükəsinə qarşı ən yaxşı üsul Allahın qullarına yol göstərən bir nur olaraq endirdiyi Quranı oxumaq və onun üzərində düşünməkdir. Quran oxumaq insanın Allaha yaxınlaşıb Rəbbimizin üstün elm və qüdrətini qavramasına kömək edər. Bundan başqa, insanın daha əvvəl bilmədiyi, düşünmədiyi və düşünüb cavabını tapa bilmədiyi bir çox mövzuda ən açıq və ən doğru məlumatı verər. Bu səbəblə, Quranı səmimi niyyətlə oxuyan və anlayan bir insan qəlbi razı halda Allaha yönələr.

Səmimi şəkildə ayələr üzərində düşünən insan düşüncə və davranışlarındakı səhvləri görər. Bilmədiyi və ya əhəmiyyət vermədiyi üçün, edib-etmədiyi şeylərin əhəmiyyətini və ciddiliyini anlayar. Rəbbimizin üstün elm və qüdrətini qavrayar və Allaha qarşı duyduğu qorxu və sevgi artar. Allah Quranın endirmə məqsədini ayələrində belə xəbər verir:

> **Bu Quran insanlar üçün bir bildirişdir. Qoy onunla həm qorxsunlar, həm Allahın Tək İlah olduğunu bilsinlər, həm də ağıl sahibləri düşünüb ibrət alsınlar. (İbrahim surəsi, 52)**

> **Həqiqətən, bu Quran insanları ən doğru yola yönəldir və yaxşı işlər görən möminlərə, özləri üçün böyük mükafat olacağı ilə müjdə verir. (İsra surəsi, 9)**

Quranı diqqətlə oxuyan və ayələr üzərində düşünən insan səmimiyyəti ölçüsündə zamanla ayələrin təcəllilərini ətrafında görməyə başlayar; bu da hər an Allahı xatırlamasına və qəflətdən qorunmasına vəsilə olar. Məsələn, Quranda təsvir edilən inkarçı xarakterini zamanla ətrafındakı bəzi insanlarda görməyə başlayar. Onları gözləyən sonsuz əzabdan xəbərdar olduğu üçün, bu nümunələr ona önəmli ibrət vəsiləsi olar. Bu şəkildə Allahın izni ilə qəflətdən çəkinər və qəflətə qarşı necə tədbir görməli olduğunu bilər. Yenə insan ayələr üzərində düşünüb cəhənnəmdəki acının və peşmanlığın şiddətini öyrənər, sonsuz atəş əzabından Allahın diləməsi xaricində qurtuluş olmayacağını düşünüb anlayar. Eyni şəkildə, Cənnətdəki sonsuz nemətləri, gözəllikləri və gözəl həyatı təfəkkür edər, Allahın rəhmətini və Cənnətini qazanmanın şövqünü yaşayar. Quranı oxuyan insan dünyada etdiyi hər şeyin hesabını verəcəyini və gördüyü işlərin nəticəsində Cənnət və ya cəhənnəmə girəcəyini bilər. Budur, bu həqiqəti görən insan qafil olmaqdan, haqqı unutmaqdan və ya yerinə gətirməməkdən şiddətlə qaçar.

## Allahın verdiyi fürsətləri dəyərləndirmək

Allah varlığını xatırlamaları və Ona yönəlmələri üçün insanlara müxtəlif şərtlər və mühitlər verər. Sıxıntı və çətinliklər də bunlardandır. Quranda bir ayədə “Onlar ildə bir və ya iki dəfə fəlakətə uğradıqlarını görmürlərmi? Yenə də tövbə etmir, ibrət almırlar” (Tövbə surəsi, 126) şəklində buyurulur. Bu çətin anlar insanların qəflətdə olduqlarını onlara göstərən böyük bir fürsətdir. Çünki Allaha üsyan edən nəfs belə anlarda acizliyini anlayar. Bu vəziyyətdə vicdanı ön plana çıxan insan səhvlərini görər və onlardan çəkinməyin yollarını axtarar. Bu, insana verilən böyük fürsətdir. Nəfsin acizlik içində səssiz qaldığı bu anlarda insan özünü Allaha daha yaxın hiss edər. Həmin anda səmimi şəkildə Allaha yönələr.

Belə vaxtlarda Allahın qüdrətinin hər şeyə çatdığını, hər şeyin Allahdan gəldiyini, bu bəla və çətinliklərin də ancaq Onun diləməsi ilə sona çatacağını başa düşər. Bu vəziyyət, tövbə edib Allaha yönəlmək üçün bir fürsətdir. Allah Quranda bu səmimiyyətə qovuşan insanı belə xəbər verir:

> **Sizi quruda və dənizdə hərəkət etdirən Odur. Siz gəmilərdə olduğunuz, gəmilər də içindəkiləri xoş bir küləklə apardığı və onlar buna sevindikləri zaman birdən fırtına qopar və dalğalar hər yandan onların üstünə gələr. Dalğaların onları bürüyəcəyini yəqin etdikdə isə Allaha – dini məhz Ona aid edərək yalvarıb deyərlər: "Əgər bizi bundan xilas etsən, əlbəttə, şükür edənlərdən olarıq". Allah onları xilas etdikdə isə dərhal haqsız olaraq yer üzündə azğınlıq edərlər. Ey insanlar! Azğınlığınız yalnız sizin öz əleyhinizədir. Bunlar dünya həyatının keçici zövqləridir. Sonra isə dönüşünüz Bizə olacaq, Biz də nə etdikləriniz barədə sizə xəbər verəcəyik. (Yunis surəsi, 22-23)**

Qəflət halındakı insan ona Allahdan başqa kömək edən bir gücün olmadığını yalnız çox çarəsiz hiss etdiyi zaman görə bilir. Ancaq çətinlik sona çatdıqdan sonra yenə Allahı unudub əvvəlki qəflətinə düşər. Bu vəziyyət Quranda belə ifadə edilmişdir:

> **İnsana bəla üz verdikdə uzananda da, oturanda da, ayaq üstə olanda da Bizi çağırar. Bu bəlanı ondan sovuşdurduqda isə sanki ona üz vermiş bəladan ötrü Bizi çağırmamış kimi keçib gedər. Həddi aşanlara etdikləri əməllər beləcə gözəl göstərildi. (Yunis surəsi, 12)**

Məsələn, təbii fəlakət insana onun nə qədər aciz olduğunu, Allahın sonsuz elm və qüdrət sahibi olduğunu, hər şeyi əhatə etdiyini, hər an hər şeydən xəbərdar olduğunu xatırladar. İnsan Allahdan qorxmalı olduğunu, çünki Onun qüdrətinin hər şeyə çatdığını, hər an Allahın əzabı ilə qarşılaşa biləcəyini anlayar. Halbuki o insan əvvəl Allahın əmr və qadağalarını göz ardı etmiş və ya davamlı təxirə salmışdır. Qorxu içində olduğu anda insanın şüuru açılır və həqiqətləri görməyə başlayır. Belə fəlakətlər qəflət halındakı insanın həqiqətləri görməsinə vəsilə olur və axirətini qurtaran böyük xatırladıcı vəzifəsini daşıyır. Lakin xəbərdarlıqlardan və bəlalardan lazımi dərsi almayan və səmimi iman etməyən insan bir az rahatlığa qovuşduqda təkrar qəflətə düşür. İnsan yenə keçici olan dünyaya bağlanıb Allahın varlığını, əmr və qadağalarını göz ardı edər və ya unudar. Qəflətdən xilas olmaq üçün insan ona verilən bu fürsətləri qiymətləndirməlidir. Yaşadığı çətinlikləri, daha sonra Allahın ona verdiyi rahatlığı tez-tez düşünüb dərhal Rəbbimizə yönəlməlidir.

Bu cür hadisələrin Allahdan bir xəbərdarlıq ola biləcəyi və bunun böyük bir nemət olduğu yaddan çıxarılmamalıdır. Allah bu şəkildə sonsuz qüdrətini göstərib insanın qəflətdən uzaqlaşmasına yol açar. Ancaq insan qəflətdən xilas olmaq üçün çətin vəziyyətə düşməsini gözləməməlidir. Çünki Allah insanı hər an ətrafında meydana gələn hadisələrlə xəbərdar edir. Məsələn, yaxınlarının, çevrəsindəkilərinin yaşadığı sıxıntılı bir hadisə ilə, başqa bir şəhərdə və ya ölkədə baş verən təbii fəlakətlərlə, yaxud da müharibələrlə insanlar xəbərdar edilir. Bu xəbərdarlıqlara diqqət edən insan eyni hadisənin öz başına gələ biləcəyini, Allahın üstün gücü qarşısında insanların nə qədər aciz və çarəsiz olduqlarını düşünər. Bu da qəflətdən xilas olub Allaha yönəlməsinə səbəb olar. Necə ki, Quranda Ad qövmünün həlak edilməsindən bəhs edilərək insanlar belə xəbərdar edilir:

**Ad tayfası isə hədsiz soyuq və şiddətli küləklə yox edildi. Allah onu yeddi gecə, səkkiz gün fasilə vermədən onların üstündə əsdirdi. Sən orada olsaydın, o tayfanı xurma ağacının yıxılmış çürük gövdələri kimi yerə sərilmiş görərdin. (Haqqə surəsi, 6-7)**

Quranda verilən həlak və əzab nümunələri ilə insanların başqalarının başlarına gələn bəlalardan ibrət götürüb Allahın sonsuz elm və qüdrəti üzərində düşünmələri istənilir. Allahın gücünü insanlara xatırladan bir çox nümunə gündəlik həyatda davamlı insanların qarşısına çıxır. Lakin insanlar çarəsiz duruma düşənlərin vəziyyətlərini yalnız kədərlə qarşılayıb onlara acımaqla kifayətlənirlər. Gördüklərinin eyni zamanda onlara xəbərdarlıq olduğunun fərqində olmazlar. Halbuki insanların acizliklərini və çarəsizliklərini göstərən belə vəziyyətlərin hamısı insanlara qəflət pərdələrini götürmələri üçün edilən açıq xəbərdarlıq və verilən yeni fürsətdir. Bu fürsətləri dəyərləndirib Allaha yönəlmək insanın qəflətdən xilas olmasına kömək edər.

## Allahın hər şeydən xəbərdar olduğunu və hər şeyi bütünlüklə əhatə etdiyini bilmək

Allah "Məgər insan elə güman edir ki, o, başlı-başına (cəzasız) buraxılacaq?!" (Qiyamət surəsi, 36) ayəsi ilə insanlara hər an Öz hökmranlığında və nəzarətində olduqlarını açıq şəkildə bildirmişdir. Ancaq qəflət halındakı insan bunu düşünüb anlamaqdan uzaqdır. Halbuki bunu anlamaq üçün bir neçə dəqiqə səmimi şəkildə, həyatını davam etdirməsi üçün lazım olan hər şeyi (ən incə detalına qədər) özünün etmək və yoxlamaq məcburiyyətində qaldığını düşünməsi kafidir.

Məsələn, hal-hazırda vücudumuzda gedən prosesləri bilmirik və bunlarla maraqlanmaq gərəyini duymuruq. Amma bütün orqanlarımız nizamlı halda və bir-biriləri ilə uyğun şəkildə davamlı çalışır.

Tək qaldığımıza görə həyatımızı davam etdirə bilməyimiz üçün ilk öncə nizamlı şəkildə oksigen almalı, ürəyimizi döyündürüb qan dövranımızı təmin etməli, mədə turşusunu normada saxlamalı, həzmi reallaşdırmalı və bunun kimi milyonlarla əməliyyatı idarə etməliyik.

Vücudumuzda reallaşan hadisələri idarə etdiyimizi (hər nə qədər qeyri-mümkün olsa da) düşünək. Məsələn, yatanda bu işləri bizim yerimizə kim davam etdirəcək? Necə ki, yatarkən də bütün orqanlarımız işə davam etməlidir. Yalnız ürəyimizin bir neçə dəqiqə idarəmiz xaricində qalıb dayanması belə həyatımızın sona çatması üçün kifayətdir; ancaq eyni zamanda yatmağımızın lazım olduğu da digər əhəmiyyətli bir həqiqətdir. Təkbaşına qaldıqda özümüzün etməsi lazım olanlar bununla məhdudlaşmır. Çünki həyatımızı təmin edən xarici amilləri də artıq özümüz təmin etməliyik.

Məlum olduğu kimi, öz bədənimizi biz idarə etmədiyimiz halda ətrafdakı dünyanı və kainatı ehtiva edən sonsuz saydakı incə nizam və tarazlıqla qurulan sistemə müdaxilə etməyimiz yalnız təxəyyülümüzün genişliyini göstərməkdən ibarət olar. Bunları düşünüb öz vücudu daxil olmaqla heç bir varlığa nəzarət etməsinin mümkün olmadığını qavrayan hər insan təkbaşına olmadığını, hər şeyə üstün elm və qüdrət sahibi olan Allahın nəzarət etdiyini anlayar. Kainatdakı canlı-cansız hər varlığın Allahın yaratması ilə meydana gəldiyini və Onun idarəsində olduğunu qavrayar. Bunları anlamaq insanın içində olduğu qəflətdən xilas olmasına kömək edər və hər an Allahın onu gördüyünü düşünərək hərəkət etməsinə səbəb olar. Allah hər an insanları nəzarətində saxlayır, onları və işlədikləri hərəkətləri an-an yaradır. Allahın hər an insanları əhatə etdiyi "...Rəbbin insanları ehtiva etmişdir..." (İsra surəsi, 60) ayəsi ilə xəbər verilmişdir.

Allahın, onu bütünlüklə əhatə etdiyini düşünən mömin gizli və ya açıq şəkildə etdiyi və ya danışdığı hər şeyi, içində olduğu hər vəziyyəti Allahın bildiyini bilər. Hər mühitdə və hər an Onun yanında olduğunu da bilər. Bu vəziyyət Quranda belə təsvir edilir:

> **Məgər Allahın göylərdə və yerdə olan hər şeyi bildiyini görmürsən? Üç nəfərin arasında gedən elə bir xəlvəti söhbət yoxdur ki, onların dördüncüsü, beş nəfərin də altıncısı O olmasın. İstər bundan az, istərsə də çox olsunlar – harada olursa olsunlar, Allah onların yanındadır. Sonra Qiyamət günü onlara nə etdiklərini xəbər verəcəkdir. Allah hər şeyi bilir. (Mücadilə surəsi, 7)**

Ayədə açıq şəkildə təsvir edilən bu həqiqət üzərində səmimiyyətlə düşünüldüyündə insanı qəflətdən qurtarmağa kifayət edər. Həqiqətləri dərk etməsinə, həm dünyada və həm də axirətdə gözəl həyat sürməsinə vəsilə olar. Çünki davamlı olaraq Allahın hökm və idarəsi altında olduğunu bilərək Allahın rizasından çıxmaqdan şiddətlə qorxub çəkinəcək. Etdiyi bütün gözəl şeyləri və yaxşılıqları da Allahın gördüyünü biləcək və mükafatlandırılacağı gün üçün sevinc duyacaq. Hər şeyin öz xüsusi imtahanının gərəyi kimi reallaşdığını qavradığı üçün hər şeyin özü üçün xeyir olduğunu bilərək hər hadisəyə gözəl səbir göstərər. Bu səbri və gözəl davranışları nəticəsində isə, Allahın izni ilə Onun bütün inananlara vəd etdiyi cənnətə qovuşar.

## Allahın yaratdıqlarını detalları ilə bilmək

Bilgi qəflətdən xilas olmağı təmin edən ən əhəmiyyətli amillərdən biridir. Kainatı əhatə edən yaradılış dəlillərini araşdırmaq, görmək və anlamaq insanın üzərindən qəfləti götürər və uzaqlaşdırar. Allahın üstün elm və qüdrəti ancaq belə ciddi araşdırma və təfəkkür nəticəsində haqqı ilə təqdir edilə bilər.

Allah “Biz göyü, yeri və onlar arasında olanları oyun-oyuncaq yaratmadıq” (Ənbiya surəsi, 16) ayəsi ilə kainatın və içindəki varlıqların xüsusi hikmətlə yaradıldığını bildirir.

Həqiqətdə bütün yaradılmışlar Allahın varlığının açıq dəlilləridir. Bu dəlillər üzərində detallı məlumat əldə etmək xüsusiyyətlərdəki üstün ağılın təcəllilərini görməyə səbəb olar. Allahın hər yaratdığının çox mükəmməl sistemlərdən meydana gəldiyi xüsusiyyətlərin araşdırılması ilə asanlıqla görülər. Bu xüsusiyyətlər qarşısında insan Allahın varlığını qəti olaraq qavrayıb Onun üstün güc və qüdrətini görər, Onun varlığını hər an hiss edər. Gözlərini kor edən və şüurunu örtən qəflət pərdəsini aralamağı və səmimi şəkildə edəcəyi dərin təfəkkürlərlə də bu pərdəni tamamilə qaldırmağı bacarar.

Məsələn, insan öz vücudu və yaradılışı haqqında ətraflı məlumat əldə edib Allahın üstün sənətini və elmini görə bilər. Necə ki, insanın yaradılışı təkbaşına qəfləti aradan qaldıran möcüzəvi hadisələr zəncirindən meydana gəlir: Tək bir hüceyrənin içindəki genetik şifrədən çoxalaraq mükəmməl sistemlərə sahib bir canlıya çevrilən insan təkbaşına Allahın varlığının, üstün ağlının və gücünün böyük dəlilidir: Bir-birindən ayrı yerlərdə və ayrı canlılar içində yaradılan yumurta və spermanın tam bir uyğunluq içində birləşərək mayalanması və tək tip hüceyrənin çoxalıb, fərqliləşib sümükləri, əzələləri, orqanları, gözləri, əl və ayaqları, bunlardakı kompleks sistemləri meydana gətirməsi, daha sonra ana qarnından ayrılan bu orqanizmin görməsi, danışması, yeriməsi, gülməsi, ağlaması, duyğulara sahib olması...

Günümüzdəki araşdırma texnikaları sayəsində artıq kainatın ən uzaq nöqtələrindən okeanların ən dərin yerlərinə qədər müşahidələr aparılır və buralardakı bütün varlıqlar və hadisələr haqqında ətraflı məlumatlar əldə etmək getdikcə daha da asanlaşır. Budur, bu hadisələr və varlıqlardakı yaradılış möcüzələri haqqında geniş bilgi sahibi olan, düşünən və "…Ey Rəbbimiz! Sən bunları boş yerə yaratmamısan! Sən pak və müqəddəssən! Bizi cəhənnəm odunun əzabından (Özün) qoru!" (Ali-İmran surəsi, 191) deyən səmimi və vicdanlı hər insan Allahın izni ilə qəflət pərdəsindən xilas olar.

Qəflətdən xilas olan insan Allahın bu açıq dəlilləri qarşısında qəti olaraq iman edərkən Onun üstün sifətlərini də tanıyar, Allaha daha çox yaxınlaşar və artıq hər işində Onun rizasını güdməyə başlayar.

## Dünyanın qısa və keçici olduğunu bilmək

Dünya həyatı bir gün anidən yox olacaq və insan əbədi olaraq yaşayacağı axirət yurduna keçəcək. Halbuki dünya həyatının keçici və son dərəcə qısa olduğunu düşünə bilməyən qəflət halındakı insan böyük maraq və həvəslə dünyaya bağlanmışdır və yalnız dünya üçün yaşayar. Uşaqlığından etibarən həmişə gələcəyə yönələn planlar qurar, həyatını istəklərinə uyğun yönləndirməyə çalışar. Ömrü bu əyləncələrlə dünyanın nə qədər qısa və keçici olduğunu düşünmədən anidən sona çatar. Eynilə gördüyü və uzun sürdüyünü sandığı, amma əslində yatdığı vaxtın yalnız bir neçə saniyəsini əhatə edən yuxunun sona çatması kimi... Axirətdə dünya həyatının yalnız bir yuxu kimi çox qısa sürdüyünü və qəti olaraq yanıldığını anlayar. Axirətdə insanların öz aralarında dünya həyatının qısa olduğuna dair söhbətləri Quranda belə bildirilir:

**Allah kafirlərdən: "Yer üzündə neçə il qaldınız?" – deyə soruşacaq. Onlar: "Bir gün yaxud bir gündən də az qaldıq. Sən günləri sayanlardan soruş" – deyəcəklər. Allah deyəcək: "Siz orada çox az qaldınız. Kaş bunu biləydiniz! (Muminun surəsi, 112-114)**

Ayədə keçən "bir gün, bir gündən az" ifadəsi çox uzun zənn edilən ömrün nə qədər qısa olduğunu açıq şəkildə ifadə edir. Bu, Allah qatından bildirilmiş açıq bir həqiqət olduğu halda insan nəyi nəyə tərcih edəcəyəni çox yaxşı düşünməlidir. Sonsuz cənnəti məqsəd qoyaraq hərəkət edəcək, yoxsa çox qısa sürən dünyanı? İnsanın arzularını təyin edərkən üzərində düşünməli olduğu ən əhəmiyyətli ünsür qısa və keçici olan dünya həyatının faydasının da yenə qısa və keçici olmasıdır.

Bu səbəblə, dünyanı əsl yurdumuz olan axirətə getmək üçün bir gözləmə salonu olaraq düşünmək lazımdır. Bir gözləmə salonundakı əşyaların və orada yaşanan hadisələrin insanı nə qədər maraqlandıracağı məlumdur. Heç bir yolçu gözləmə salonunda uzun müddət qalacaqmış kimi oraya yerləşib bütün planlarını bu gözləmə salonuna görə qurmaz. Çünki burada çox qısa müddət qalacaq. Burada çölü düşünmədən yalnız gözləmə salonuna görə aldığı qərarların və ya etdiyi hərəkətlərin çöldə faydası olmaz. Eyni şəkildə, dünya üçün edilən heç bir şeyin də axirətdə faydası olmaz. Bu səbəblə, dünya üçün edilən işlərin sonda Quranda bildirildiyi kimi, bir ilğım kimi yox olacağını bilmək lazımdır. Quranda bunun xəbər verildiyi ayə belədir:

**Kafirlərin əməlləri səhradakı ilğıma bənzəyir ki, susamış kimsə onu su hesab edər. Ona yaxınlaşdıqda isə onun heç nə olduğunu görər. O öz yanında Allahı tapar. O da onun cəzasını verər. Allah tez haqq-hesab çəkəndir. (Nur surəsi, 39)**

Ayədə açıq şəkildə bildirildiyi kimi, dünya üçün edilənlərin hamısı bir gün yox olub gedəcək və insan tək Allah rizası üçün etdikləri ilə Rəbbimizin hüzurunda hesab verəcək. Budur, o an insan yanılmasının fərqində olacaq və cəhənnəm əzabı qarşısında sonsuz çarəsizlik və peşmanlıq duymağa başlayacaq. Qəflət halının sona çatdığı, bütün həqiqətləri bir-bir gördüyü o anda dünya həyatına geri dönüb Allahın əmr və qadağalarına uyğun həyat yaşamaq istəyəcək. Ancaq bunun üçün çox gecikmişdir. Çünki artıq geri dönüş yoxdur:

**Onlar orada fəryad qoparıb yalvaracaqlar: "Ey Rəbbimiz! Bizi buradan çıxart ki, əvvəllər etdiyimiz əməlləri deyil, yaxşı əməllər edək". Onlara deyiləcək: "Məgər orada sizə düşünəcək kimsənin düşünə biləcəyi qədər uzun ömür vermədikmi? Sizə qorxudub xəbərdar edən də gəlmişdi. Elə isə dadın əzabı! Zalımlara kömək edən olmaz". (Fatir surəsi, 37)**

**Kaş ki, günahkarları öz Rəbbi qarşısında başlarını aşağı dikərək: "Ey Rəbbimiz! Biz gördük və eşitdik. Bizi geri qaytar ki, yaxşı işlər görək. Həqiqətən də, biz qətiyyətlə inandıq!" – deyəndə görəydin! (Səcdə surəsi, 12)**

İnsan Allahın hüzuruna təkbaşına gətiriləcəyi bu günlə qarşılaşmadan əvvəl dünya həyatının nə qədər qısa və keçici olduğunu anlayıb təfəkkür etməlidir. Dünyanın çox qısa müddətin sonunda mütləq sona çatacağı düşüncəsi insanın mənasız və faydasız işlərdən üz çevirməsinə, dünya həyatındakı qısa zamanını ən yaxşı şəkildə qiymətləndirib içində olduğu qəflətdən xilas olmasına vəsilə olar.

## Ölümü düşünmək

İnsana dünyada müəyyən bir müddət verilmişdir. Bu müddət bitdiyində ölümlə mütləq qarşılaşacaq. Quranda hər insanın bir gün mütləq ölümlə qarşılaşacağı belə xəbər verilir:

> **De: "Qaçdığınız ölüm sizi mütləq haqlayacaqdır. Sonra siz qeybi və aşkarı Bilənin hüzuruna qaytarılacaqsınız. O da sizə nə etdiklərinizi xəbər verəcəkdir". (Cümə surəsi, 8)**

Ölüm, ondan qaçan, qorxan və öləcəyini heç düşünməyən qəflət halındakı insanlar daxil bütün insanlara gələcəkdir. Ancaq qəflət halında Allahın hökmlərini göz ardı edən insanlarla iman edən insanların ölüm anında yaşayacaqları fərqli olacaq. İnkar edənlər heç gözləmədikləri bir anda ölümlə üz-üzə gəlincə dəhşətə qapılacaq və böyük qorxu yaşayacaqlar. Ayrıca, canları böyük acı çəkdirilərək alınacaq. İnkar edənlərin canlarının alınması Quranda belə təsvir edilir:

> **Bəs mələklər onların üzlərinə və arxalarına vura-vura canlarını alanda halları necə olacaq? (Məhəmməd surəsi, 27)**

Quranda bildirildiyi kimi, inkar edənlərin canları acı çəkdirilərək alınacaq. Həmin anda uğrunda həvəs göstərib Allahın əmr və qadağalarını göz ardı etdiyi hər şeyin əhəmiyyətini itirdiyini görəcək. Həyatı boyunca ən çox dəyər verdiyi ailəsi, yoldaşları, qohumları, çox sevdiyi işi, avtomobili, evi, malı-mülkü, hamısı tamamilə dəyərini itirər. Artıq çarəsiz və tək qalmış və qorxusu daha da artmışdır. Bu vəziyyətdə inkar edən adam bütün həyatını boşa keçirdiyini və Allahın rizasına uyğun heç bir şey etmədiyini görüb dərin peşmanlıq duyar. Qorxu və peşmanlıq içində əzabdan xilas ola bilmək üçün çarələr axtarar və bütün sevdiklərini fəda etmək istəyər. Allah Quranda inkar edən insanın qiyamət günündə düşdüyü bu vəziyyəti belə təsvir edir:

**Dost dostunun halını xəbər almayacaq. Halbuki onlar bir-birini görəcəklər. Günahkar o günün əzabından qurtarmaq üçün fidyə vermək istəyər – öz oğullarını, həyat yoldaşını və qardaşını, ona sığınacaq vermiş nəslini və yer üzündə olanların hamısını – təki bu onu xilas etsin. Xeyr! Bu, alovu şöləlnən Oddur – (Məaric surəsi, 10-15)**

Ayədə açıq şəkildə ifadə edildiyi kimi, insan canını verəcəyi qədər çox sevdiyi yaxınlarını, həvəslə bağlı olduğu bütün dünya nemətlərini cəhənnəm əzabına qarşılıq vermək istəyər. Ancaq ona dünyada sahib olduğu heç bir şeyin faydası olmayacaq, əbədi qalmaq üzrə cəhənnəmdəkilərin arasına düşməkdən özünü qurtara bilməyəcək.

Qəflət halında inkarda inad edən insanların canı acı içində alınarkən iman edənlərin canı isə asanlıqla alınar. Qəflətdən qorunmağa çalışan iman edən insanların ölüm vaxtı gəldiyində canları mələklər tərəfindən gözəl şəkildə alınaraq cənnətə yerləşdirilər. Quranda iman edənlərin canının alınması belə təsvir edilir:

**O kəslər ki, tər-təmiz olduqları halda, mələklər onların canını alıb deyirlər: “Sizə salam olsun! Əməllərinizə görə Cənnətə girin!” (Nəhl surəsi, 32)**

Həmin vaxt mömin Allahın ona verdiyi nemətləri dünyadakılara demək istəyər. Möminlərin bu rəftarı Quranda belə bildirilir:

**Şəhərin sakinləri bu kişini öldürdükdən sonra ona: “Cənnətə daxil ol!” – deyildi. O dedi: “Kaş xalqım biləydi ki, Rəbbim məni bağışladı və məni hörmətli adamlardan etdi”. (Yasin surəsi, 26-27)**

Canının gözəl şəkildə alınmasını və cənnətdə əbədi həyat sürməyi arzulayan hər insan qəflətdən xilas olmadığı təqdirdə ölüm vaxtı yaşayacaqlarını düşünməlidir. Dünyada canı yandığı və acı duyduğu anlarda hiss etdiklərinin qat-qat çoxunu ölüm anından etibarən əbədi olaraq yaşayacağını düşünməlidir. Bu əzabı düşünüb hər an ölümlə qarşılaşacağını bilən, qorxu ilə və könüldən Allaha yönələn hər insan içində olduğu qəflətin fərqində olacaq. Dolayısı ilə Allahın əmr və qadağalarına əməl edib göstərəcəyi ciddi səy ilə qəflətdən xilas olacaq.

## Əsl yurdun axirət olduğunu bilmək

Əsl yurdun axirət olduğunu düşünməyən qəflət halındakı insanlar dünyada həmişə rahat yaşamaları üçün daha yaxşı yerlər və imkanlar axtararlar. Məsələn, az gəlirli, evi olmayan birisi həmişə kirayədən xilas olacağı günü düşünər. Bir evinin olması onun ən böyük idealıdır. Bu yolda çətinliyə girər, ömrünün böyük hissəsi ev və digər ehtiyacları üçün kredit ödəyərək keçər. Bir başqası bina evindən həyət evinə köçməyi, digəri isə geniş ərazisi olan bir malikanəyə sahib olmağı düşünər. Amma Allahın axirətdə vəd etdiyi cənnət mülklərinin varlığına inanmadığı və ya bu ehtimalı çox uzaq gördüyü üçün bunlara əldə etmək üçün ən kiçik səy belə göstərməz. Halbuki möminlər cənnətə və oradakı nemətlərə qovuşmaq üçün yarışarlar. Allah qəflət halında dünya nemətlərinə sahib olmaq üçün sanki digər insanlarla yarışıb səy göstərənləri Quranda belə xəbərdar edir:

> **Rəbbiniz tərəfindən bağışlanmağa və müttəqilər üçün hazırlanmış, genişliyi göylər və yer qədər olan Cənnətə tələsin. (Ali İmran surəsi, 133)**

**Rəbbiniz tərəfindən bağışlanmağa və genişliyi göyün və yerin genişliyi qədər olan, Allaha və Onun elçilərinə iman gətirənlər üçün hazırlanmış Cənnətə tələsin. Bu, Allahın lütfüdür, onu istədiyinə verər. Allah böyük lütf sahibidir. (Hədid surəsi, 21)**

Axirət yurdunun varlığını qavraya bilməyən qafil insanların ortaq xüsusiyyəti dünyada razı qalmaları üçün yer və imkanlara sahib olmalarıdır. Bunu böyük həvəslə arzulayırlar. Lakin əldə etdikləri bütün bu dəyərlər onları zənn etdikləri kimi xoşbəxt edib dərd və kədərsiz yaşamalarını təmin etməz. Çünki dünya həyatında sahib olunan hər şey köhnəlib çürüyər və yox olar. Buna insanın öz vücudu da daxildir. Bu səbəblə, qəflət halındakı insanlar sevdikləri və dəyər verdikləri şeylərə zərər gələcəyi qorxusu ilə həmişə narahat yaşayarlar. Özlərinə qısa müddətdən başqa heç bir fayda verməyən bu dəyərlərə qarşı insanlar Quranda belə xəbərdar edilirlər:

**Ey qövmüm! Bu dünya həyatı ancaq fani bir zövqdür, axirət isə qərar tutacağınız yurddur. (Mümin surəsi, 39)**

**Qadınların, uşaqların, yığın-yığın qızıl-gümüşün, yaxşı cins atların, mal-qaranın və əkin yerlərinin verdiyi zövqlərə olan istək insanların gözünə gözəl göstərilmişdir. Bunlar, dünya həyatının keçici zövqüdür, gözəl qayıdış yeri isə Allah yanındadır. (Ali İmran surəsi, 14)**

Quranda insanlara dünya nemətlərinin keçici olduğu, əsl nemətlərin axirətdə olduğu bu ayələrlə açıq şəkildə bildirilmişdir.

Bu dünyanın keçiciliyinin fərqində olmaq qəflət halında olan bir insanın qəflətdən xilas olmasına vəsilə olar. İnsan keçici fayda verən dünya nemətlərinə olan coşğulu istəklərdən təmizlənər, sonsuz gözəllikdəki cənnət nemətlərini və Allahın rizasını qazanmağa yönələr. Allah Quranda bu hökmünü belə bildirir:

**Həqiqətən, itaətkarlar nemətlər içində olacaqlar. Onlar taxtlar üstündə seyrə dalacaqlar. Sən onların çöhrəsində səadət parlaqlığı görəcəksən. Onlara möhürlü şərabdan içirdiləcəkdir. Onun möhürü müşkdür. Qoy çalışanlar onun üçün səy göstərsinlər! (Mutaffifin surəsi, 22-26)**

## Axirətdən geri dönüşün olmadığını bilmək

Qəflət halındakı insanın özünü aldatdığı düşüncələrdən biri də ona təkrar fürsət veriləcəyi mövzusunda yanılmasıdır. Hətta bu düşüncə bəzi yerlərdə reinkarnasiya adı verilən batil inanc halına belə gətirilmişdir. Qafil insan nə qədər səhv edirsə etsin, öldükdən sonra təkrar dünyaya dönüb bunların əvəzini ödəmək imkanına sahib olacağını zənn edər. Bu səbəblə, öldükdən sonra Allahdan son ümidlə geri dönməyi istəyər. İnkar edənlərin bu istəkləri Quranda belə bildirilir:

Kaş ki, günahkarları öz Rəbbi qarşısında başlarını aşağı dikərək: "Ey Rəbbimiz! Biz gördük və eşitdik. Bizi geri qaytar ki, yaxşı işlər görək. Həqiqətən də, biz qətiyyətlə inandıq!" – deyəndə görəydin! [Səcdə surəsi, 12]

Bu vəziyyətin ayələrdə bildirilməsinin bir hikməti də geri dönüşü olmayan gündən əvvəl insanların qaça bilmədiyi bu həqiqəti bilmələri və mənasız xəyallara dalmadan Allahın rizasını qazanmağa çalışmalarıdır. Ancaq Allahın bildirib, xəbərdar etdiyi axirət əzabının şiddətini düşünməyən, bunu heç cür ehtimal etməyən, qətiyyətlə inanmayan insan sonunda mütləq Allahın hüzurunda bu həqiqətlə üz-üzə gələcəkdir. Buna israrla anlamazlıqla yanaşan dərin qəflət halındakı insanın yenə fürsət veriləcəyini düşünməsi əslində özünü aldatmasından başqa bir şey deyil.

Əzaba layiq olan insan peşmanlığını axirət günündə dilə gətirəcək. Quranda cəhənnəm xalqının peşmanlıqlarından bəhs edilən söhbətlər bildirilməklə insanlar xəbərdar edilir. Bu ayələrdən biri də belədir:

> **Həm də əzabı gördüyü zaman deməsin: “Kaş ki, bir də dünyaya qayıdaydım, yaxşı işlər görənlərdən olardım!” (Zumər surəsi, 58)**

Qəflətdən xilas olmaq və bu ifadələrin sahibi olmamaq üçün insan yaxşı düşünməli və Allahın əzabından şiddətlə qorxub çəkinməlidir. Əzabı qazanan qafil insanların ən böyük yanılmaları axirət yurdunu dünya həyatı ilə müqayisə etmələridir. Allahın sorğusunu, cənnət və cəhənnəmi dünyada yaşadıqları hadisələrlə müqayisə edərlər. Dünyadakı kimi axirətdə də hər şeyin bir əvəzi olacağını düşünüb özlərini aldadarlar. Məsələn, dünyada sinifdə qalsa və ya məktəbdən atılsa belə, sonradan bağışlanılacağını düşünər. Həbsdəki bir insanın da bir gün müddəti bəlli olan cəzası bitər, sərbəst olar. Necə ki, dünyadakı çətinliklər ömür boyu sürməz, müəyyən müddətdən sonra bitər. Budur, qafil insanlar axirətdə də belə imkanların və fürsətlərin olduğu inancı ilə dünyada qorxusuz halda istədiklərini edərlər. Halbuki əvəzin ödəniləcəyi, fürsətlərin dəyərləndiriləcəyi yeganə məkan dünyadır. Axirət isə qarşılıqların verildiyi yerdir. Bu səbəblə, insan əbədi sürəcək cəhənnəm əzabına səbəb olan bu qəflət halından xilas olmaq üçün axirətdən geri dönüşün qeyri-mümkünlüyünü və axirətdə heç bir günahın əvəzini ödəmək imkanına malik olmayacağını təfəkkür etməlidir.

## Cəhənnəmin nə qədər əzab verici məkan olduğunu və orada sonsuzadək qalmağı bilmək

Qəflətdəki insan ölümü uzaq gördüyü kimi cənnət və cəhənnəmi də özündən uzaq görər. Halbuki ölüm nə qədər qəti və həqiqətdirsə, cənnət və cəhənnəm də o qədər qəti və həqiqətdir. Orada dünyadakından daha çox dəqiq və həqiqi mühit vardır. Və bu çox qəti həqiqətdir ki, dünyadakı hər kəs mütləq bu iki yerdən birinə girəcək və əbədi olaraq orada qalacaq.

Cəhənnəmi dəqiq və qəti həqiqət olaraq bilib düşünmək isə, insandakı Allah qorxusunu və cənnət arzusunu artırar. Cəhənnəmin necə bir əzab yurdu olduğunu təfəkkür etmək üçün Qurandakı cəhənnəm təsvirləri üzərində diqqətlə düşünmək lazımdır. Quranda cəhənnəmin təsvirinin edildiyi ayələrdən bəziləri belədir:

> **O gün günahkarları zəncirlənmiş görəcəksən. Onların paltarları qatrandan olacaq, üzlərini də alov bürüyəcəkdir. (İbrahim surəsi, 49-50)**

> **...Biz zalımlar üçün elə bir Od hazırlamışıq ki, onun divarları onları əhatə edəcəkdir. Onlar kömək dilədikdə əridilmiş metal kimi üzlərini qovuran bir su ilə kömək ediləcəkdir. Nə pis içkidir! Nə pis məskəndir! (Kəhf surəsi, 29)**

> **...Kafirlər üçün oddan paltar biçiləcək, başlarına da qaynar su töküləcəkdir. Bununla, onların bətnlərindəkiləri və dərisi əridiləcəkdir. Onlar üçün dəmir toppuzlar da hazırlanmışdır. Onlar hər dəfə oradan çıxmaq, qəmdən qurtarmaq istədikdə yenidən oraya qaytarılacaq və onlara: "Dadın odun əzabını!" – deyiləcəkdir. (Həcc surəsi, 19-22)**

**Od onların üzünü yandıracaq. Onlar orada qıc olmuş vəziyyətdə qalacaqlar. (Muminun surəsi, 104)**

**Onlar Cəhənnəm odunu uzaq məsafədən gördükdə belə onun necə qəzəblə qaynamasını duyacaq və xışıltısını eşidəcəklər. Onlar əlləri boynunda bağlı halda Cəhənnəmin dar bir yerinə atıldıqları zaman ölüm diləyərlər. Onlara deyilər: "Bu gün özünüzə bir ölüm deyil, çoxlu-çoxlu ölümlər istəyin!" De: "Bu yaxşıdır, yoxsa müttəqilərə bir mükafat və dönüş yeri olaraq vəd edilən Əbədiyyət bağı?" (Furqan surəsi, 12-15)**

Dünyada ən kiçik bir acıya belə dözə bilməyən insan bu acı və iztirab mühitini səmimi bir şəkildə düşünsə, cəhənnəm əzabının (Quranda təsvir edildiyi kimi) dünyadakı heç bir acı ilə müqayisə edilməyəcək dərəcədə dəhşətli olduğunu görər. Cəhənnəmdə nə əzabın sonu, nə də ölüm vardır. Quranda cəhənnəm əzabının sonsuz olduğunu bildirən ayələrdən bəziləri belədir:

**Kafirlər Oddan çıxmaq istərlər, lakin onlar oradan çıxan deyillər. Onları əbədi bir əzab gözləyir. (Maidə surəsi, 37)**

**Xeyr! Günah qazanan və xətaları özlərini bürüyən kimsələr – məhz onlar Od sakinləridir və orada əbədi qalacaqlar! (Bəqərə surəsi, 81)**

Cəhənnəmdə həmişə böyük acı çəkiləcəyi, oradan heç bir şəkildə qurtuluşun olmadığı, acıların sona çatmayacağı, acıya qarşı bir qoruyucunun olmayacağı çox açıq həqiqətdir. Bunları vicdanlı və səmimi şəkildə təfəkkür etmək insanın Allah qorxusunu artırıb şüurunun açılmasına, qəflətdən xilas olub Allahın rizasını axtarmasına vəsilə olar.

## Sonsuzluğu qavramaq

İnsanların bir qismi sonsuzluq anlayışını düşünmək mövzusunda da, ümumiyyətlə, tənbəllik edərlər. Sonsuzluğun əsla bitməyən, sonu gəlməyən və tükənməyən bir zamanı ifadə etdiyini lazım olduğu kimi düşünüb anlamağa çalışmazlar. Sonsuzluğu yalnız çox uzun illəri, əsrləri ifadə edən bir anlayış kimi qəbul edərlər.

Halbuki "sonsuzluq" çox fərqli bir anlayışdır. Sonsuzluq bir insanın ömrü qədər müddət deyil. Bir neçə insan nəsli qədər müddət də deyil. Sonsuzluq min il, on min il deyil, yüz min il deyil, milyon və ya milyard il, hətta trilyon il də deyil. Sonsuzluq bunların hamısının xaricindədir və heç vaxt sona çatmayan, əsla bitib tükənməyən bir zamanı ifadə edir.

Budur, bu həqiqəti düşünən insan sonsuz həyatını cəhənnəmdə keçirmək təhlükəsini əsla gözə ala bilməz. Dünyada bir an belə dözə bilmədiyi qədər şiddətli əzabları bitib tükənməyən zaman boyunca hiss etməyi seçə bilməz. Dolayısı ilə sonsuzluğu düşünmək qafil olan insanı oyadar, özünə gətirər və Allahın razı olacağı işləri etmək üçün çalışmağa sövq edər. Sonsuz cəhənnəm həyatından qorxan imanlı bir insan eyni zamanda sonsuz cənnət nemətləri içində həyata imkanı olduğunu da düşünər və dünyadakı qısa sürən həyatı bir an belə sonsuz axirət həyatına tərcih etməz.

## Cənnətin gözəlliyini bilmək

Cənnət keçici olan dünya həyatında edilən saleh əməllərin, Allahdan qorxmanın, Allahın rizasını qazanmanın qarşılığıdır. Allah Quranda insana bu vədini belə bildirir:

**İman gətirib saleh əməllər edənləri isə ağacları altından çaylar axan, içində əbədi qalacaqları Cənnət bağlarına daxil edəcəyik. Bu, Allahın gerçək vədi sayəsində olacaqdır. Sözündə Allahdan daha doğruçu kim ola bilər? (Nisa surəsi, 122)**

Cənnətdə yalnız gözəl bağçaların olduğunu düşünmək son dərəcə səhv düşüncədir. Hər şeydən əvvəl, insan orada ən gözəl şəkildə yeni bir yaradılışla yaradılacaq və sonsuz nemətlər içində olacaq. Bundan başqa, cənnət bütün duyğuların daha kəskin olduğu, hər şeydən daha çox zövq alındığı bir mühitdir. Dünyada çox qısa sürən zövqlər orada sonsuzdur. Allah dünyadakı nemətləri bir nümunə olaraq yaratmışdır. Əsilləri isə cənnətdədir. Oradakı nemətlərə qovuşunca insan dünyadakı nemətlərlə bənzərliklərini görəcək, amma bu nemətlər daha mükəmməl və tükənməz bir halda olacaq. Bunlarla yanaşı, vücuda xas olan qüsurların heç biri cənnətdə olmayacaq. Hər kəs çox gözəl olacaq. Çox gözəl şəkildə yaradılan insanın artıq fiziki yöndən də nöqsanı olmayacaq. Məsələn, tərləməz, pis iy verməz, tualet ehtiyacı olmaz və xəstələnməz. Acdığı üçün və ya vücudunun ehtiyacı olduğu üçün deyil, yalnız zövq üçün yemək yeyər. Bu nemətlər üçün çalışmağı da lazım gəlməyəcək. Orada arzuladığı və ağlına, xəyalına gəlməyən hər növ əyləncə, möhtəşəm bir memarlıq və texnologiya, mükəmməl və qüsursuz nizam olacaqdır.

Dünyada nöqsanlı olan və arzu edilən bütün hərəkət və rəftarlar cənnətdə tam olacaq. Allahın əmr etdiyi gözəl əxlaq orada tam şəkildə yaşanacaq. Orada qeybət, böhtan, çəkişdirmə, küfr, yalan, riya, həsəd, qürur, sədaqətsizlik və kin olmayacaq. Sağlamlıq, xoşbəxtlik və Allahın rizası olacaq.

Quranda cənnətin təsvir edildiyi ayələrdən bəziləri belədir:

> **Onlar Ədn bağlarına daxil olacaq, orada qızıl bilərziklərlə və incilərlə bəzədiləcəklər. Libasları da ipəkdən olacaqdır. (Fatir surəsi, 33)**
>
> **Həqiqətən də Cənnət əhli həmin gün nemətlər işində kef çəkəcək. Onlar zövcələri ilə birlikdə kölgəliklərdə taxtlara söykənəcəklər. Orada onlar üçün meyvələr və istədikləri hər şey vardır. Üstəlik Rəhmli Rəbb onlara: "Salam" deyəcək. (Yasin surəsi, 55-58)**
>
> **Nəim bağlarında. Onlar taxtlar üstündə bir-biri ilə üzbəüz oturacaqlar. Onlar üçün çeşmə şərabı ilə dolu piyalələr dolandırılacaqdır. Özü də ağappaq, içənlərə ləzzət verən bir şərab. O şərab nə baş ağrısı verər, nə də ondan məst olarlar. Onların yanında baxışları öz ərlərinə dikilmiş iri qaragözlü hurilər olacaqdır. Özü də qorunub saxlanılmış yumurta kimi hurilər. (Saffat surəsi, 43-49)**
>
> **Onlar üçün qızıl sinilər və piyalələr dolandırılacaqdır. Orada nəfslərin istədiyi və gözlərə xoş gələn hər şey olacaqdır. Siz orada əbədi qalacaqsınız. (Zuxruf surəsi, 71)**

Ayələrdə də təsvir edildiyi kimi, cənnət insanın xəyalına belə gətirə bilməyəcəyi gözəlliklərin və nəfsin arzu etdiyi hər şeyin mükəmməl şəkildə yaradıldığı sonsuz xoşbəxtlik yurdudur. Ancaq yenə Quranda bildirildiyi kimi, cənnət yalnız iman edib saleh əməllərdə olanlar üçün hazırlanmışdır. Bunun açıq şəkildə bildirildiyi ayələrdən bəziləri belədir:

**İman gətirib saleh əməllər işləyənləri isə ağacları altından çaylar axan, içində əbədi məskunlaşacaqları Cənnət bağlarına daxil edəcəyik. Onlar üçün orada pak zövcələr vardır. Biz onları sıx kölgəliklərdə yerləşdirəcəyik. (Nisa surəsi, 57)**

**Sözsüz ki, iman gətirib saleh əməllər edənlər və Rəbbinə boyun əyənlər Cənnət sakinləridir. Onlar orada əbədi qalacaqlar. (Hud surəsi, 23)**

Quran ayələrindəki cənnət təsvirlərini bilib təfəkkür etmək qəflətin və dünya həvəsinin yox olması baxımından son dərəcə təsirlidir. Səmimi şəkildə edilən ciddi təfəkkür cənnətin dünyadakı heç bir mükəmməlliklə müqayisə edilə bilməyəcəyini anlamaq üçün kifayətdir. Bunu anlayan insan cənnət arzusu və həsrəti ilə oranı qazana bilmək üçün çalışmağa başlayar, özünü cənnətdən uzaqlaşdıran və əbədi məhrum edən qəflət halından isə bütün gücü ilə çəkinər.

# QƏFLƏTİN SONU

Qəflət Allah qatından gələn bütün xəbərdarlıqlara baxmayaraq, bunda inad edənləri dəhşətli və tərifi mümkün olmayan əbədi bir əzaba doğru sürətlə sürüyər. Qafil olmaqda inadkarlıq edən və qəflət halında dünyadan ayrılan insanlar Allahın yaratdığı imtahan dünyasından sonra əbədi həyatlarına artıq cəhənnəm əhli olaraq davam edəcəklər.

Quranda bildirildiyi kimi, qəflət halındakı insanların göz və qulaqları möhürlənmiş, anlayışları alınmışdır. Şüur səviyyəsi heyvanlardakı kimidir. Hətta bu vəziyyəti öz razılıqları ilə qəbul etdikləri üçün onlardan daha da aşağıdırlar. Allah Quranda bu vəziyyətdəki insanları belə təsvir edir:

> **Biz Cəhənnəm üçün bir çox cinlər və insanlar yaratdıq. Onların qəlbləri var, onunla anlamazlar; gözləri var, onunla görməzlər; qulaqları var, onunla eşitməzlər. Onlar heyvan kimidirlər, hətta daha çox azğınlıqdadırlar. Qafil olanlar da məhz onlardır. (Əraf surəsi, 179)**

> **Yoxsa elə hesab edirsən ki, onların əksəriyyəti eşidəcək və ya anlayacaq? Onlar heyvan kimidirlər, hətta, haqq yoldan daha çox uzaqlaşmışlar. (Furqan surəsi, 44)**

Heyvanların şüuru yoxdur. Yuxarıdakı ayələrdən aydın olduğu kimi, qəflət halındakı insanlar da sanki heyvanların olduğu şüursuzluq içindədirlər. Bu şüursuzluğa görə qəlbləri qatılaşmışdır. Gördükləri, eşitdikləri hadisələr, onlara edilən xatırlatmalar, verilən nəsihətlər olduqları vəziyyətdən çıxartmaz. Hər nə ilə qarşılaşsalar da, düşünüb ibrət almazlar.

Halbuki hər insan həqiqətləri anlamağa və yerinə yetirməyə məsuliyyət daşıyır. Ancaq qəflətdə qalmağa inad etdiyi təqdirdə dünyadakı digər canlı növlərindən daha ağılsız vəziyyətə düşər və insana insan xüsusiyyəti qazandıran bütün xüsusiyyətlərini itirər. İnsanlara Allahın varlığını qavrayıb Ona qulluq etmələri üçün verilən qavrama, hiss etmə və anlama kimi üstünlüklərin qəflətdə qalmaqda israrlı və qərarlı olan insanlarda möhürləndiyi Quranda belə bildirilir:

**Bunlar o kəslərdir ki, Allah onların qəlbinə, qulaqlarına və gözlərinə möhür vurmuşdur. Onlar əsl qafildirlər. (Nəhl surəsi, 108)**

Ayədə təsvir edilən insanın hissləri tamamilə örtülmüşdür. Bu vəziyyətdəki qafil insan ciddi səy göstərib Allaha yönəlmədiyi müddətdə artıq cəhənnəm əhli olmaqdan xilas ola bilməz. Cəhənnəmdəki şüursuzluq və çaşqınlığı isə daha çoxdur:

**Bu dünyada kor olan kəs axirətdə də kor olacaq və üstəlik haqq yoldan daha çox azacaqdır. (İsra surəsi, 72)**

Oradakı əzabın şiddəti və dəhşəti isə bir ayədə belə təsvir edilmişdir:

**Bu, Allahın qaladığı Oddur. O Od ki, qalxıb ürəklərə çatacaq. Həqiqətən, o Od onların üzərində qapanacaqdır. Özləri də orada yüksək dirəklərə bağlanmış olacaqlar. (Hüməzə surəsi, 6-9)**

Qəflət halında yaşayan, bu vəziyyətdən xilas olmaq üçün səy göstərməyən və Qurandan, Allahın rizasından xəbərsiz bir şəkildə ölən insanlar cəhənnəmə salınırlar.

# NƏTİCƏ

Kitab boyu izah etdiyimiz kimi, qəflətə düşənlərdən olmaq bir insanı həlaka sürüyən əsas səbəblərdən biridir. Qəflət halındakı insan hər şeyin yolunda olduğunu və gözəl həyat yaşadığını zənn edə bilər. Hər şeyi bildiyini və hər şeyi doğru etdiyini düşünməsi bunun ən diqqəti cəlb edən göstəricisidir. Ancaq bu qəflət halı axirət günü Allahın hüzurunda sona çatacaq:

**Sən bunun (bu günün) haqqında qəflət içində idin. Amma Biz pərdəni sənin üzündən qaldırdıq. Sən bu gün çox yaxşı görürsən!" (Qaf surəsi, 22)**

Artıq insan qəflət halının hakim olduğu gözəl dünya həyatında həmişə üz çevirdiyi, inanmamaqda inad etdiyi həqiqətləri açıq şəkildə görməyə başlayacaq. Daha əvvəl ona xəbər verilən, lakin heç diqqət yetirmədiyi cəhənnəm əzabı ilə qarşılaşacaq. O gün yox olmağı və ya dünya həyatına dönüb Allah rizasını qazanacaq şəkildə yaşamağı istəyəcək. Amma ona əbədi olaraq cəhənnəm xalqı arasında olmaqdan və sonsuz əzabdan başqa "qaçacaq yer" olmayacaq. Quranda qiyamət günü və heç bir yerə qaçış olmadığı haqqında bildirilən ayələr belədir:

**Gözlər bərələ qalacağı, ay tutulacağı və günəşlə ayın qovuşacağı zaman – o gün insan deyəcəkdir: "Hara qaçaq?" Xeyr, o gün pənah aparılacaq yer tapılmayacaq. O gün qayıdış ancaq sənin Rəbbinə olacaqdır. (Qiyamət surəsi, 6-12)**

İnkar edənlərin böyük qorxu, çarəsizlik və peşmanlıq yaşayacağı qiyamət günü ilə qarşılaşmadan əvvəl hər insan öz durumunu səmimi bir şəkildə nəzərdən keçirməlidir. Şüuru örtməklə insanı heyvanlardan aşağı bir canlı növünə çevirən qəflət bəlasına qarşı səmimi bir qəlblə Allaha yönəlmək, davamlı Allahı xatırlamaq və Rəbbimizin göndərdiyi kitab olan Qurana tam tabe olmaq lazımdır.

Qəflətdə olmadığını və qəflətə düşmə ehtimalının olmadığını düşünüb özünü müstəğni (bu vəziyyətdən uzaq) görmək böyük səhvdir. Çünki müstəğniyyət insanın qəflət xəstəliyinə hər an tutula biləcəyinin bir göstəricisidir. Şeytan heç durmadan ən kiçik fürsəti belə qiymətləndirməkdən qaçmayıb insanı qəflətə salmağa və özü ilə birlikdə cəhənnəmə sürüməyə çalışır:

> **İnsanlardan eləsi də var ki, heç nə bilmədiyi halda Allah haqqında mübahisə edir və hər bir asi şeytana itaət edir. Onun haqqında belə yazılmışdır: kim şeytanla dostluq etsə, şeytan onu doğru yoldan çıxardıb alovlu Odun əzabına sürükləyər. (Həcc surəsi, 3-4)**

Məlumdur ki, qəflət hər insanı heç bir mühit və şərtdən asılı olmayaraq şeytanın və nəfsin təlqinləri ilə bürüyüb əhatə etməyə çalışır. Ancaq qəflət yalnız qəflət halında qalmaq istəyənlərdən əl çəkməz. Qəflət halında qalmağa, şeytanın dostu olmağa razı olmayan vicdanlı insanlara qurtuluş yolu həmişə açıqdır. Allah qəflətdən xilas olmağın yollarını Quranda ətraflı şəkildə bildirmişdir. Allahı davamlı xatırlamaq, Ona yönəlmək, Ondan qorxub çəkinmək və hər an Onun rizasını axtarmaq qəfləti yox edər və insanı üstün bir şüura, ağıla və imana qovuşdurar. Bu da (hər nə qədər şeytan əksini təlqin etməyə çalışsa da) ən gözəl, ən rahat, ən əmin və ən asan yoldur. O halda səmimi bir şəkildə Allaha yönəlib dönən insan heç bir şey üçün gecikmiş deyil. Rəbbimizin rəhmətini ümid edə bilər. Ayədə belə buyurulur:

**Rəbbiniz ürəklərinizdə olanları çox yaxşı bilir. Əgər əməlisaleh olsanız, bilin ki, həqiqətən də, O, tövbə edənləri Bağışlayandır. (İsra surəsi, 25)**

# ƏLAVƏ HİSSƏ
# TƏKAMÜL YALANI

Darvinizm, yəni təkamül nəzəriyyəsi yaradılış həqiqətini inkar etmək məqsədilə irəli sürülmüş, ancaq uğursuzluqla nəticələnmiş elmdən kənar cəfəngiyatdan başqa bir şey deyil. Canlıların cansız maddələrdən təsadüfən əmələ gəldiyini iddia edən bu nəzəriyyə kainatda və canlılarda çox möcüzəvi nizam olduğunun elm tərəfindən sübut edilməsi ilə və təkamül prosesinin əsla baş vermədiyini göstərən 350 milyona yaxın fosilin tapılması ilə süqut etmişdir. Beləliklə, Allah'ın bütün kainatı və canlıları yaratdığı elm tərəfindən də sübut edilmişdir. Bu gün təkamül nəzəriyyəsini dirçəltmək üçün dünya səviyyəsində aparılan təbliğat sadəcə elmi həqiqətlərin təhrif olunmasına, tərəfli şərhinə, elm adı altında söylənilən yalan və saxtakarlıqlara əsaslanır.

Ancaq bu təbliğat həqiqəti gizlətmir. Təkamül nəzəriyyəsinin elm tarixində ən böyük xəta olması son 20-30 il ərzində elm dünyasında getdikcə daha ucadan dilə gətirilir. Xüsusilə 1980-ci illərdən sonra aparılan tədqiqatlar darvinist iddiaların tamamilə səhv olduğunu üzə çıxarmış və bu həqiqət bir çox elm adamı tərəfindən dilə gətirilmişdir. ABŞ-da biologiya, biokimya, paleontologiya kimi fərqli sahələrlə məşğul olan bir çox elm adamı darvinizmin əsassızlığını görür, canlıların mənşəyini artıq yaradılışla açıqlayırlar.

Təkamül nəzəriyyəsinin süqutundan və yaradılış dəlillərindən digər bir çox əsərimizdə bütün elmi təfərrüatları ilə bəhs etmişik və etməyə davam edirik. Ancaq əhəmiyyəti baxımından mövzudan burada da bəhs etməkdə fayda var.

## Darvini məhv edən çətinliklər

Təkamül nəzəriyyəsi tarixi qədim yunanlara gedib çıxan bir təlim olmasına baxmayaraq, XIX əsrdə hərtərəfli şəkildə irəli sürüldü. Nəzəriyyəni elm dünyasının gündəminə gətirən ən mühüm irəliləyiş Çarlz Darvinin 1859-cu ildə nəşr edilən "Növlərin mənşəyi" adlı kitabı idi. Darvin bu kitabda dünyadakı müxtəlif canlı növlərini Allah'ın ayrı-ayrı yaratdığına qarşı çıxırdı. Darvinin fikrincə, bütün növlər ortaq əcdaddan törəmiş və zaman ərzində kiçik dəyişikliklərlə müxtəlifləşmişdilər.

Darvinin nəzəriyyəsi heç bir konkret elmi tapıntıya əsaslanmırdı; özünün də qəbul etdiyi kimi, sadəcə bir məntiq yeritmə idi. Hətta Darvin kitabındakı "Nəzəriyyənin qarşısında duran çətinliklər" başlıqlı uzun bölmədə etiraf etdiyi kimi, nəzəriyyə bir çox mühüm suala cavab verə bilmirdi.

Darvin nəzəriyyəsinin qarşısındakı çətinliklərə inkişaf edən elmin üstün gələcəyinə, yeni elmi kəşflərin nəzəriyyəsini gücləndirəcəyinə ümid edirdi. Bunu kitabında tez-tez bildirirdi. Ancaq inkişaf edən elm Darvinin ümidlərinin tam əksinə, nəzəriyyənin əsas iddialarını bir-bir əsassız qoydu.

Darvinizmin elm qarşısındakı məğlubiyyətini üç əsas başlıq altında təhlil etmək olar:

Nəzəriyyə həyatın yer üzündə ilk dəfə necə ortaya çıxdığını əsla açıqlaya bilmir.

Nəzəriyyənin irəli sürdüyü təkamül mexanizmlərinin, əslində, təkamül xarakterinə malik olduğunu göstərən heç bir elmi tapıntı yoxdur.

Fosillər təkamül nəzəriyyəsinin iddialarının tam əksini göstərir.

Bu bölmədə bu üç əsas başlığı əsaslı təhlil edəcəyik.

## Keçilməz ilk pillə: həyatın mənşəyi

Təkamül nəzəriyyəsi bütün canlı növlərinin bundan təxminən 3.8 milyard il əvvəl dünyada fantastik şəkildə təsadüfən meydana gələn bircə canlı hüceyrədən törədiklərini iddia edir. Bircə hüceyrənin milyonlarla kompleks canlı növünü necə əmələ gətirməsi və əgər həqiqətən bu cür təkamül baş vermişsə, nə üçün izlərinin fosillərdə tapılmadığı nəzəriyyənin açıqlaya bilmədiyi suallardandır. Ancaq bütün bunlardan əvvəl iddia edilən təkamül prosesinin ilk pilləsi üzərində dayanmaq lazımdır. Həmin ilk hüceyrə necə ortaya çıxmışdır?

Təkamül nəzəriyyəsi cahilliklə yaradılışı inkar etdiyinə görə, həmin ilk hüceyrənin heç bir plan və nizam olmadan təbiət qanunları çərçivəsində təsadüfən meydana gəldiyini iddia edir. Yəni bu nəzəriyyəyə əsasən, cansız maddə kortəbii təsadüflər nəticəsində ortaya canlı hüceyrə çıxarmalıdır. Ancaq bu, məlum olan ən təməl biologiya qanunlarına zidd iddiadır.

## Həyat həyatdan gəlir

Darvin kitabında həyatın mənşəyindən heç bəhs etməmişdi. Çünki onun dövründəki ibtidai elm anlayışı canlıların çox sadə quruluşa malik olduqlarını fərz edirdi. Orta əsrlərdən bəri "spontane generation" adlı nəzəriyyəyə əsasən, cansız maddələrin təsadüfən birləşərək canlı varlıq əmələ gətirməsinə inanırdılar. Bu dövrdə həşəratların yemək artıqlarından, siçanların da buğdadan əmələ gəlməsi geniş yayılmış düşüncə idi. Bunu sübut etmək üçün qəribə təcrübələr aparılmışdı. Çirkli əsginin üstünə bir az buğda qoyulmuş və bir müddət sonra bu qarışıqdan siçanların əmələ gəlməsini gözləmişdilər.

Ətin qurdlanması da həyatın cansız maddələrdən törədiyinə dəlil hesab edilirdi. Lakin daha sonra məlum olacaqdı ki, ətin üstündəki qurdlar öz-özlərindən əmələ gəlmirlər, milçəklərin gətirib qoyduğu gözlə görülməyən sürfələrdən çıxırdılar. Darvin "Növlərin mənşəyi" adlı kitabını yazdığı dövrdə isə bakteriyaların cansız maddədən əmələ gəlməsi inancı elm dünyasında geniş şəkildə qəbul edilirdi.

Lakin Darvinin kitabının nəşr edilməsindən beş il sonra məşhur fransız bioloq Lui Paster təkamülə əsas verən bu inancı qəti şəkildə təkzib etdi. Paster apardığı uzun elmi fəaliyyət və təcrübələrdə gəldiyi nəticəni belə şərh etmişdi:

"Cansız maddələrin həyatı əmələ gətirməsi iddiası artıq qəti şəkildə tarixə gömülmüşdür". (Sidney Fox, Klaus Dose, Molecular Evolution and The Origin of Life, New York: Marcel Dekker, 1977, səh. 2)

Təkamül nəzəriyyəsinin tərəfdarları Pasterin kəşflərinə uzun müddət qarşı çıxdılar. Ancaq inkişaf edən elm canlı hüceyrəsinin mürəkkəb quruluşunu üzə çıxardıqca həyatın öz-özünə əmələ gəlməsi iddiasının əsassızlığı daha da açıq şəkil aldı.

## XX əsrdəki nəticəsiz səylər

XX əsrdə həyatın mənşəyi mövzusunu tədqiq edən ilk təkamülçü məşhur rus bioloq Aleksandr Oparin oldu. Oparin 1930-cu illərdə irəli sürdüyü bəzi tezislərlə canlı hüceyrəsinin təsadüfən meydana gələ biləcəyini sübut etməyə çalışdı. Ancaq bu fəaliyyətlər uğursuzluqla nəticələnəcək və Oparin bu etirafı etməli olacaqdı:

"Təəssüf ki, hüceyrənin mənşəyi təkamül nəzəriyyəsinin tamamilə əhatə edən ən qaranlıq nöqtədən ibarətdir". (Alexander I. Oparin, Origin of Life, (1936) New York, Dover Publications, 1953 (Reprint), səh. 196)

Oparinin yolunu davam etdirən təkamülçülər həyatın mənşəyi problemini həll etmək üçün təcrübələr aparmağa çalışdılar. Bu təcrübələrin ən məşhuru amerikalı kimyaçı Stenli Miller tərəfindən 1953-cü ildə aparıldı. Miller ibtidai atmosferdə mövcud olduğunu iddia etdiyi qazları bir təcrübədə birləşdirdi və bu qarışığa enerji verərək zülalları təşkil edən bir neçə üzvi molekul (amin turşusu) sintezlədi.

O illərdə təkamüllə bağlı mühüm mərhələ kimi tanıdılan bu təcrübənin əsassız olduğu və təcrübədə tətbiq edilən atmosferin yer şərtlərindən çox fərqli olduğu sonrakı illərdə üzə çıxacaqdı. ("New Evidence on Evolution of Early Atmosphere and Life", Bulletin of the American Meteorological Society, c. 63, Kasım 1982, səh. 1328-1330)

Uzun sükutdan sonra Millerin özü də tətbiq etdiyi atmosfer mühitinin həqiqi olmadığını etiraf etdi. (Stanley Miller, Molecular Evolution of Life: Current Status of the Prebiotic Synthesis of Small Molecules, 1986, səh. 7)

Həyatın mənşəyi problemini açıqlamaq üçün XX əsr boyu göstərilən bütün təkamülçü səylər uğursuzluqla nəticələndi. San Diyeqo Skrips İnstitutundan məşhur geokimyaçı Cefri Bada təkamülçü "Earth" jurnalında 1998-ci ildə dərc edilən bir məqalədə bu həqiqəti belə qəbul edir:

"Bu gün XX əsri arxada qoyarkən hələ də XX əsrin başlanğıcındakı ən böyük həll edilməmiş problemlə qarşı-qarşıyayıq: həyat yer üzündə necə başlayıb". (Jeffrey Bada, Earth, Şubat 1998, səh. 40)

## Həyatın kompleks quruluşu

Təkamülçülərin həyatın mənşəyi ilə bağlı bu qədər çıxılmaz vəziyyətə düşməsinin başlıca səbəbi ən sadə hesab etdikləri canlıların bu qədər mürəkkəb quruluşa malik olmasıdır. Canlı hüceyrəsi insanın hazırladığı bütün texnoloji məhsullardan daha mürəkkəbdir. Belə ki, bu gün dünyanın ən qabaqcıl laboratoriyalarında belə cansız maddələr birləşdirilərək nəinki canlı hüceyrə, hətta hüceyrəyə aid bircə zülal da hasil etmək mümkün deyil.

Bir hüceyrənin meydana gəlməsi üçün lazımlı şərtlər əsla təsadüflərlə açıqlanmayacaq qədər çoxdur. Lakin bunu açıqlamağa heç ehtiyac yoxdur. Təkamülçülər hələ hüceyrə səviyyəsinə çatmadan çıxılmaz vəziyyətə düşürlər. Çünki hüceyrənin əsasını təşkil edən zülalların təsadüfən sintezlənmə ehtimalı riyazi cəhətdən sıfırdır.

Bunun ən əsas səbəbi budur ki, bir zülalın əmələ gəlməsi üçün başqa zülallar da olmalıdır. Bu səbəb bir zülalın təsadüfən əmələgəlmə ehtimalını tamamilə aradan qaldırır. Ona görə, təkcə bu fakt təkamülçülərin təsadüf iddiasını təkzib etmək üçün kifayətdir. Mövzunun əhəmiyyətini qısaca açıqlayaq:

- Fermentlər olmasa, zülal sintezlənə bilməz, fermentlər də zülaldır.

- Bircə zülalın sintezlənməsi üçün 100-ə yaxın hazır zülal olmalıdır. Ona görə, zülalların olması üçün zülallar lazımdır.

- Zülalları sintezləyən fermentləri DNT hazırlayır. DNT olmasa, zülal sintezlənə bilməz. Ona görə, zülalların əmələ gəlməsi üçün DNT də lazımdır.

-Zülal sintezləmə prosesində hüceyrədəki bütün orqanoidlərin mühüm funksiyaları var. Yəni zülalların əmələ gəlməsi üçün tam funksional hüceyrə bütün orqanoidləri ilə birlikdə mövcud olmalıdır.

Hüceyrənin nüvəsində yerləşən, genetik məlumat daşıyan DNT molekulu isə informasiya bankıdır. İnsan DNT-sindəki informasiyanı kağıza köçürmək istəsək, hər biri 500 səhifədən ibarət 900 cildlik kitabxana ortaya çıxar.

Burada çox maraqlı dilemma da var: DNT ancaq bir sıra xüsusi zülalların (fermentlərin) köməyi ilə qoşalaşa bilər. Amma bu fermentlər də ancaq DNT-dəki informasiya əsasında sintezlənir. Bir-birlərindən asılı olduqlarına görə, DNT-nin qoşalaşması üçün ikisi də eyni anda mövcud olmalıdır. Bu isə həyatın öz-özünə meydana gəlməsi ssenarisini çıxılmaz vəziyyətə salır. San Diyeqo Kaliforniya Universitetindən məşhur təkamülçü prof. Lesli Orcel "Scientific American" jurnalının 1994-cü il oktyabr sayında bu həqiqəti belə etiraf edir:

"Olduqca kompleks quruluşa malik olan zülalların və nuklein turşularının (RNT və DNT) eyni yerdə və eyni zamanda təsadüfən əmələ gəlmələri həddindən artıq ehtimaldan kənardır. Ancaq bunların biri olmadan digərini əldə etmək də mümkün deyil. Ona görə, insan məcburən həyatın kimyəvi yollarla meydana gəlməsinin tamamilə qeyri-mümkün olduğu nəticəsinə gəlir". (Leslie E. Orgel, The Origin of Life on Earth, Scientific American, c. 271, Ekim 1994, səh. 78)

Şübhəsiz ki, əgər həyatın kortəbii təsadüflərlə öz-özünə meydana gəlməsi mümkün deyilsə, onda həyatın yaradıldığı qəbul edilməlidir. Bu həqiqət əsas məqsədi yaradılışı inkar etmək olan təkamül nəzəriyyəsini açıq-aydın əsassız edir.

## Təkamülün xəyali mexanizmləri

Darvinin nəzəriyyəsini əsassız edən ikinci əsas cəhət nəzəriyyənin təkamül mexanizmləri kimi irəli sürdüyü iki anlayışın da, əslində, heç bir təkamül gücünə malik olmamasıdır.

Darvin irəli sürdüyü təkamül iddiasını tamamilə təbii seleksiya mexanizmi ilə əlaqələndirmişdi. Bu mexanizmə verdiyi əhəmiyyət kitabının adından da açıq şəkildə başa düşülür: "Növlərin mənşəyi, təbii seleksiya yolu ilə..."

Təbii seleksiya təbii seçmə deməkdir, təbiətdəki həyat uğrunda mübarizədə təbii şərtlərə uyğun və güclü canlıların həyatda qalacağı düşüncəsinə əsaslanır. Məsələn, yırtıcı heyvanlar tərəfindən təhlükəyə məruz qalan bir maral sürüsündə daha sürətlə qaçan marallar həyatda qalacaq. Beləliklə, maral sürüsü sürətlə qaçan və güclü fərdlərdən ibarət olacaq. Amma bu mexanizm maralların təkamül keçirməsinə səbəb olmaz, onları başqa bir canlı növünə, məsələn, atlara çevirməz.

Ona görə, təbii seçmə mexanizmi heç bir təkamül gücünə malik deyil. Darvin də bu həqiqəti anlamışdı və "Növlərin mənşəyi" adlı kitabında: "Faydalı dəyişikliklər baş vermədikcə təbii seçmə heç bir şey edə bilməz", - demək məcburiyyətində qalmışdı. (Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 184)

## Lamarkın təsiri

Bəs bu faydalı dəyişikliklər necə baş verə bilərdi? Darvin öz dövrünün ibtidai elm anlayışı çərçivəsində bu suala Lamarka əsaslanaraq cavab verməyə çalışmışdı.

Darvindən əvvəl yaşamış fransız bioloq Lamarka görə, canlılar həyatları boyu keçirdikləri fiziki dəyişiklikləri sonrakı nəslə ötürürlər, nəsildən-nəslə toplanan bu xüsusiyyətlər nəticəsində yeni növlər meydana gəlir. Məsələn, Lamarkın fikrincə, zürafələr ceyranlardan törəyiblər, hündür ağacların yarpaqlarını yeməyə çalışarkən nəsildən-nəslə boyunları uzanmışdır.

Darvin də buna bənzər misallar çəkmiş, məsələn, "Növlərin mənşəyi" kitabında qida tapmaq üçün suya girən bəzi ayıların tədricən balinalara çevrildiyini iddia etmişdi. (B. G. Ranganathan, Origins?, Pennsylvania: The Banner Of Truth Trust, 1988.)

Lakin Mendelin kəşf etdiyi və XX əsrdə inkişaf edən genetika elmi ilə qəti şəkildə sübut edilən genetika qanunları qazanılmış xüsusiyyətlərin sonrakı nəsillərə ötürülməsi əfsanəsini məhv etdi. Beləliklə, təbii seçmə "təkbaşına" və tamamilə təsirsiz mexanizm olaraq qaldı.

## Neodarvinizm və mutasiyalar

Darvinistlər isə bu vəziyyətə bir çıxış yolu tapmaq üçün 1930-cu illərin sonlarında müasir sintetik nəzəriyyəni və ya daha geniş yayılmış adı ilə neodarvinizmi ortaya atdılar. Neodarvinizm təbii seçmənin yanına faydalı dəyişiklik səbəbi kimi mutasiyaları, yəni canlıların genlərində radiasiya kimi xarici amillər və ya transkripsiya xətaları nəticəsində əmələ gələn pozulmaları əlavə etdi. Bu gün də elmi cəhətdən əsassız olduğunu bilmələrinə baxmayaraq, darvinistlər neodarvinist modeli müdafiə edirlər. Nəzəriyyə yer üzündəki milyonlarla canlı növünün, onların qulaq, göz, ağciyər, qanad kimi saysız-hesabsız mürəkkəb orqanlarının mutasiyalara, yəni genetik pozulmalara əsaslanan bir proses nəticəsində əmələ gəldiyini iddia edir. Amma nəzəriyyəni çarəsiz qoyan bir açıq elmi həqiqət var: mutasiyalar canlıları təkmilləşdirmirlər, əksinə, hər zaman canlılara zərər verirlər.

Bunun səbəbi çox sadədir: DNT çox mürəkkəb quruluşa malikdir. Bu molekula olan hər hansı təsadüfi təsir ancaq zərər verir. Amerikalı genetik B.G. Ranqanatan bunu belə açıqlayır:

“Mutasiyalar kiçik, təsadüfi və zərərlidirlər. Çox nadir meydana gəlirlər və ən yaxşı halda təsirsizdirlər. Bu üç xüsusiyyət mutasiyaların təkamül xarakterli təsir meydana gətirməyəcəyini sübut edir. Yüksək dərəcədə xüsusiləşmiş orqanizmdə meydana gələn təsadüfi dəyişiklik ya təsirsiz, ya da zərərli olur. Bir qol saatında meydana gələn təsadüfi dəyişiklik qol saatını təkmilləşdirməz. Ona böyük ehtimalla zərər verər və ya ən yaxşı halda təsir etməz. Bir zəlzələ bir şəhəri daha yaxşı hala salmaz, onu məhv edər”. (Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 179)

Bu günə qədər heç bir faydalı, yəni genetik məlumatı təkmilləşdirən mutasiya müşahidə edilməyib. Bütün mutasiyaların zərərli olması aşkar edilib. Aydın olmuşdur ki, təkamül nəzəriyyəsinin təkamül mexanizmi kimi göstərdiyi mutasiyalar, əslində, canlıları sadəcə məhv edən, şikəst edən genetik hadisələrdir (insanlarda mutasiyanın ən çox rast gəlinən təsiri xərçəngdir). Əlbəttə, məhvedici mexanizm təkamül mexanizmi ola bilməz. Təbii seçmə isə Darvinin də qəbul etdiyi kimi, tək başına heç bir şey edə bilməz. Bu həqiqət bizə təbiətdə heç bir təkamül mexanizminin olmadığını göstərir. Təkamül mexanizmi olmadığına görə, təkamül deyilən xəyali proses də baş verməyib.

## Fosillər: ara-keçid formalardan əsər-əlamət yoxdur

Təkamül nəzəriyyəsinin iddia etdiyi prosesin baş vermədiyinin ən açıq göstəricisi isə fosillərdir.

Təkamül nəzəriyyəsinə görə, bütün canlılar bir-birlərindən törəyiblər. Əvvəlcədən mövcud olan bir canlı növü zaman ərzində digərinə çevrilmiş və bütün növlər bu şəkildə əmələ gəlmişlər. Nəzəriyyəyə əsasən, bu çevrilmə yüz milyon illər davam edən uzun dövrü əhatə etmiş və mərhələ-mərhələ irəliləmişdir. Bu təqdirdə iddia edilən uzun çevrilmə prosesi zamanı saysız-hesabsız ara növlər əmələ gəlməli və yaşamalıdırlar.

Məsələn, keçmişdə balıq xüsusiyyətlərini daşımalarına baxmayaraq, bir tərəfdən də bəzi sürünən canlı xüsusiyyətlərini qazanmış yarı-balıq, yarı-sürünən canlılar yaşamalıdır və ya sürünən xüsusiyyətlərini daşıyan, bir tərəfdən də bəzi quş xüsusiyyətləri qazanmış sürünən quşlar ortaya çıxmalıdır. Bunlar bir keçid prosesində olduqları üçün şikəst, yarımçıq, qüsurlu canlılar olmalıdır. Təkamülçülər keçmişdə yaşadığına inandıqları bu nəzəri məxluqları “ara-keçid forması” adlandırırlar.

Əgər, həqiqətən, bu cür canlılar keçmişdə yaşayıbsa, onların sayı və növü milyonlarla, hətta milyardlarla olmalıdır və bu əcaib canlıların qalıqlarına mütləq fosil izlərində rast gəlinməlidir. Darvin “Növlərin mənşəyi”ndə bunu belə açıqlamışdır:

“Əgər nəzəriyyəm doğrudursa, növləri bir-biri ilə əlaqələndirən saysız-hesabsız ara-keçid növləri keçmişdə mütləq yaşamalıdır... Onların yaşadığının dəlilləri də sadəcə fosil qalıqları arasında tapıla bilər”. (Charles Darwin, The Origin of Species, səh. 172, 280)

Ancaq bu sətirləri yazan Darvin ara-keçid formaların heç cür tapılmadığını bilir və bunun nəzəriyyəsi üçün böyük problem olduğunu görürdü. Ona görə, “Növlərin mənşəyi” kitabının “Nəzəriyyənin qarşısında duran çətinliklər” (Difficulties on Theory) adlı bölməsində belə yazmışdı:

“Əgər, həqiqətən, növlər digər növlərdən yavaş dəyişikliklərlə törəyibsə, nə üçün saysız-hesabsız ara-keçid formasına rast gəlmirik? Nə üçün bütün təbiət qarmaqarışıq vəziyyətdə deyil, məhz yerli-yerindədir? Saysız-hesabsız ara-keçid forması olmalıdır, bəs nə üçün yer üzünün çoxsaylı təbəqələrində onları tapmırıq?... Nə üçün hər geoloji forma və hər təbəqə belə qalıqlarla dolu deyil?” (Charles Darwin, The Origin of Species, səh. 172, 280)

## Darvinin puç olan ümidləri

Ancaq XIX əsrin ortasından indiyə qədər dünyanın hər tərəfində qızğın fosil araşdırmaları aparılmasına baxmayaraq, ara-keçid formalarına rast gəlinməmişdir. Aparılan qazıntı işlərində və tədqiqatlarda əldə edilən bütün tapıntılar təkamülçülərin gözlədiklərinin əksinə, canlıların yer üzündə birdən-birə, tam və qüsursuz formada ortaya çıxdıqlarını göstərmişdir.

Məşhur ingilis paleontoloq Derek V. Eycer təkamülçü olmasına baxmayaraq, bu həqiqəti belə etiraf edir:

“Problemimiz budur: fosilləri hərtərəfli tədqiq etdikdə növlər və ya siniflər səviyyəsində belə daima eyni həqiqətlə qarşılaşırıq; mərhələli təkamüllə təkmilləşən deyil, birdən-birə yer üzündə əmələ gələn qruplar görürük”. (Derek A. Ager, “The Nature of the Fossil Record”, Proceedings of the British Geological Association, c. 87, 1976, səh. 133)

Yəni fosil qeydlərində bütün canlı növləri aralarında heç bir keçid forması olmadan, tam formada ani surətdə ortaya çıxırlar. Bu, Darvinin fikirlərinin tam əksidir. Habelə, bu, canlı növlərinin yaradıldıqlarını göstərən çox güclü dəlildir. Çünki bir canlı növünün heç bir əcdadı olmadan, bir anda və qüsursuz şəkildə ortaya çıxmasının tək açıqlaması var: o növ yaradılmışdır. Bu həqiqət məşhur təkamülçü bioloq Duqlas Futuyma tərəfindən də qəbul edilir:

"Yaradılış və təkamül yaşayan canlıların mənşəyi haqqında iki yeganə açıqlamadır. Canlılar dünyada ya tamamilə mükəmməl və tam formada ortaya çıxmışlar, ya da belə olmamışdır. Əgər belə olmamışdırsa, bir dəyişiklik prosesi nəticəsində özlərindən əvvəl mövcud olan bəzi canlı növlərindən təkamül keçirərək meydana gəlməlidirlər. Amma əgər tam və mükəmməl formada ortaya çıxıblarsa, onda sonsuz güc sahibi olan bir ağıl tərəfindən yaradılmışlar". (Douglas J. Futuyma, Science on Trial, New York: Pantheon Books, 1983. Səh. 197)

Fosillər isə canlıların yer üzündə tam və mükəmməl formada ortaya çıxdıqlarını göstərir. Yəni "növlərin mənşəyi" Darvinin hesab etdiyinin əksinə, təkamül deyil, yaradılışdır.

## İnsanın təkamülü nağılı

Təkamül nəzəriyyəsinin tərəfdarlarının ən çox gündəmə gətirdikləri məsələ insanın mənşəyidir. Bununla bağlı darvinist iddia bu gün yaşayan müasir insanın meymunabənzər məxluqlardan törədiyini zənn edir. 4-5 milyon il əvvəl başladığı fərz edilən bu prosesdə müasir insan ilə əcdadları arasında bəzi ara-keçid formaların yaşadığı iddia edilir. Əslində, tamamilə fantastik olan bu ssenaridə dörd əsas kateqoriya var:

Australopithecus

Homo habilis

Homo erectus

Homo sapiens

Təkamülçülər insanların ilk “meymunabənzər əcdadları”na “cənub meymunu” mənasını verən “australopithecus” adını veriblər. Bu canlılar, əslində, nəsli kəsilmiş meymun növüdür. Lord Solli Zukerman və prof. Çarlz Oksnard kimi İngiltərə və ABŞ-dan iki məşhur anatomun australopithecus nümunələri üzərində apardığı hərtərəfli araşdırmalar bu canlıların sadəcə nəsli kəsilmiş meymun növünə aid olduqlarını və insanlarla heç bir bənzərlik təşkil etmədiklərini göstərmişdir. (Charles E. Oxnard, “The Place of Australopithecines in Human Evolution: Grounds for Doubt”, Nature, c. 258, səh. 389)

Təkamülçülər insanın təkamülünün sonrakı mərhələsini də “homo”, yəni insan kimi təsnif edirlər. İddiaya əsasən, homo sırasındakı canlılar australopithecuslardan daha çox inkişaf ediblər. Təkamülçülər bu fərqli canlılara aid fosilləri ardıcıl düzərək fantastik təkamül sxemi qururlar. Bu sxem xəyalidir, çünki bu fərqli siniflərin arasında təkamül xarakterli əlaqə olması əsla sübut edilə bilməmişdir. Təkamül nəzəriyyəsinin XX əsrdəki ən mühüm tərəfdarlarından biri olan Ernst Mayr: “Homo sapiensə uzanan zəncir halqası, əslində, itib”, - deyərək bunu qəbul edir. (J. Rennie, “Darwin’s Current Bulldog: Ernst Mayr”, Scientific American, Aralık 1992)

Təkamülçülər “ausrtalopithecus > homo habilis > homo erectus > homo sapiens” ardıcıllığını qurarkən bu növlərin hər birinin daha sonrakının əcdadı olmasını irəli sürürlər. Lakin paleoantropoloqların son kəşfləri australopithecus, homo habilis və homo erectusun dünyanın müxtəlif bölgələrində eyni dövrlərdə yaşadıqlarını göstərir. (Alan Walker, Science, c. 207, 1980, s. 1103; A. J.

Kelso, Physical Antropology, 1. baskı, New York: J. B. Lipincott Co., 1970, s. 221; M. D. Leakey, Olduvai Gorge, c. 3, Cambridge: Cambridge University Press, 1971, səh. 272)

Habelə, homo erectus sinfinə aid olan insanların bir qismi çox müasir dövrlərə qədər yaşayıblar, homo sapiens neandertalensis və homo sapiens sapiens (insan) ilə eyni mühitdə birlikdə mövcud olmuşlar. (Time, noyabr 1996)

Bu isə, əlbəttə, bu siniflərin bir-birilərinin əcdadı olduqları iddiasının əsassızlığını açıq şəkildə ortaya qoyur. Harvard Universitetinin paleontoloqlarından Stiven Cey Quld, təkamülçü olmasına baxmayaraq, darvinist nəzəriyyənin düşdüyü bu çıxılmaz vəziyyəti belə açıqlayır:

"Əgər bir-biri ilə paralel şəkildə yaşayan üç müxtəlif hominid (insanabənzər) sxemi varsa, onda bizim soy ağacımıza nə oldu? Aydındır ki, bunların biri digərindən törəyə bilməz. Habelə, biri digəri ilə müqayisə edildikdə təkamül xarakterli inkişaf meyli göstərmirlər". (S. J. Gould, Natural History, c. 85, 1976, səh. 30)

Qısaca desək, KİV-də və ya dərsliklərdə verilən bir cür fantastik yarı-meymun yarı-insan canlıların rəsmləri ilə, yəni sırf təbliğat yolu ilə dirçəldilməyə çalışılan insanın təkamülü ssenarisi heç bir elmi əsası olmayan nağıldan ibarətdir. Bu mövzunu uzun illər tədqiq edən, xüsusilə australopithecus fosilləri üzərində 15 il araşdırma aparan İngiltərənin ən məşhur və hörmətli elm adamlarından biri olan Lord Solli Zukerman təkamülçü olmasına baxmayaraq, meymunabənzər canlılardan insana uzanan nəsil ağacı olmadığı nəticəsinə gəlmişdir.

Zukerman maraqlı elm şkalası da qurmuşdur. Elmi hesab etdiyi elm sahələrindən elmdən kənar qəbul etdiyi elm sahələrinə qədər şaxəli cədvəl çəkmişdir.

Zukermanın bu cədvəlində ən elmi, yəni konkret faktlara əsaslanan elm sahələri kimya və fizikadır. Cədvəldə bunlardan sonra bioloji elmlər, daha sonra sosial fənlər gəlir. Şaxələnmənin ən kənar ucunda, yəni elmdən kənar hesab edilən hissədə isə Zukermanın fikrincə telepatiya, altıncı hiss kimi hissin fövqündə olan qavrama anlayışları və bir də insanın "təkamülü" yerləşir! Zukerman şaxələnmənin bu ucunu belə açıqlayır:

"Obyektiv reallıq sahəsindən çıxıb bioloji elm fərz edilən bu sahələrə, yəni hissin fövqündə olan qavramaya və insanın fosil tarixinin şərh edilməsinə daxil olduqda, təkamül nəzəriyyəsinə inanan bir şəxs üçün hər şeyin mümkün olduğunu görürük. Belə ki, nəzəriyyələrinə qəti şəkildə inanan bu şəxslərin ziddiyyətli bəzi rəyləri eyni anda qəbul etmələri belə mümkündür". (Solly Zuckerman, Beyond The Ivory Tower, New York: Toplinger Publications, 1970, səh. 19)

İnsanın təkamülü nağılı da nəzəriyyələrinə kor-koranə inanan bir sıra insanların tapdıqları bəzi fosillər haqqında qabaqcadan rəy verərək şərh etmələrindən ibarətdir.

## Darvin formulu!

İndiyə qədər təhlil etdiyimiz bütün dəlillərlə yanaşı, istəyirsinizsə, təkamülçülərin necə cəfəng inanca malik olduqlarına bir də uşaqların belə anlayacağı qədər açıq misalla baxaq.

Təkamül nəzəriyyəsi canlıların təsadüfən əmələ gəldiyini iddia edir. Ona görə, bu iddiaya əsasən, cansız və şüursuz atomlar birləşərək əvvəlcə hüceyrəni əmələ gətirmiş və sonra eyni atomlar birləşərək digər canlıları və insanı meydana gətirmişlər. İndi düşünək, canlıların əsasını təşkil edən karbon, fosfor, azot, kalium kimi elementləri birləşdirdikdə bir yığın əmələ gəlir. Bu atom yığını hansı prosesdən keçirilsə də, bircə canlı belə əmələ gətirməz.

İstəyirsinizsə, bununla bağlı bir təcrübə keçirək və təkamülçülərin, əslində, müdafiə etdikləri, amma ucadan söyləyə bilmədikləri iddianı onların adından "Darvin formulu" adı ilə nəzərdən keçirək:

Təkamülçülər çoxlu sayda böyük çənin içinə canlıların əsasını təşkil edən fosfor, azot, karbon, oksigen, dəmir, maqnezium kimi elementlərdən bol miqdarda qoysunlar. Hətta normal şərtlərdə mövcud olmayan, ancaq bu qarışığın içində lazımlı bildikləri maddələri də bu çənlərə əlavə etsinlər. Qarışıqların içinə istədikləri qədər amin turşusu, istədikləri qədər də zülal doldursunlar. Bu qarışıqlara istədikləri nisbətdə temperatur və rütubət versinlər. Bunları istədikləri ən yaxşı texnoloji cihazlarla qarışdırsınlar. Çənlərin başında nəzarətçi kimi dünyanın qabaqcıl elm adamlarını qoysunlar. Bu mütəxəssislər atadan oğula, nəsildən-nəslə ötürülərək növbə ilə milyardlarla, hətta trilyonlarla il fasiləsiz çənlərin başında gözləsinlər. Bir canlının əmələ gəlməsi üçün hansı şərtlərin mövcud olmasını lazım bilirlərsə, hamısını tətbiq etsinlər. Ancaq nə etsələr də, o çənlərdən əsla bir canlı çıxara bilməzlər. Zürafələri, aslanları, arıları, bülbülləri, tutuquşuları, atları, delfinləri, gülləri, səhləb çiçəklərini, zanbaqları, qərənfilləri, bananları, portağalları, almaları, xurmaları, pomidorları, qovunları, qarpızları, əncirləri, zeytunları, üzümləri, şaftalıları, tovuz quşlarını, qırqovulları, rəngarəng kəpənəkləri və bunlar kimi milyonlarla canlı növündən heç birini əmələ gətirə bilməzlər. Nəinki burada sadaladığımız bir neçə canlını, bunların bircə hüceyrəsini belə əldə edə bilməzlər.

Qısaca desək, şüursuz atomlar birləşərək hüceyrəni əmələ gətirə bilməzlər. Sonra yeni qərar verərək bir hüceyrəni iki yerə bölüb, sonra ardıcıl başqa qərarlar verib elektron mikroskopunu icad edən, sonra öz hüceyrə quruluşunu bu mikroskop altında tədqiq edən professorları əmələ gətirə bilməzlər.

Maddə ancaq Allah'ın üstün yaratması ilə həyat qazanır. Bunun əksini iddia edən təkamül nəzəriyyəsi isə ağıla tamamilə zidd cəfəngiyatdır. Təkamülçülərin ortaya atdığı iddialar üzərində bir az düşünmək yuxarıdakı misalda göstərildiyi kimi, bu həqiqəti üzə çıxarar.

## Göz və qulaqdakı texnologiya

Təkamül nəzəriyyəsinin qətiyyən açıqlaya bilmədiyi digər məsələ isə göz və qulaqdakı üstün duyğu keyfiyyətidir.

Gözlə bağlı mövzuya keçməzdən əvvəl "Necə görürük?" sualına qısaca cavab verək. Bir cisimdən gələn şüalar gözdə tor qişaya tərsinə düşür. Bu şüalar buradakı hüceyrələr tərəfindən elektrik siqnallarına çevrilir və beyinin arxa hissəsindəki görmə mərkəzi adlanan kiçik nöqtəyə ötürülür. Bu elektrik siqnalları bir sıra ardıcıl proseslərdən sonra beyindəki bu mərkəzdə görüntü kimi şərh edilir. Bu məlumatdan sonra düşünək: beyin işığa qapalıdır. Yəni beyinin içi qapqaranlıqdır, işıq beyinin yerləşdiyi yerə girə bilməz. Görmə mərkəzi adlanan yer qapqaranlıq, işığın düşmədiyi, bəlkə, heç qarşılaşmadığınız qədər qaranlıq yerdir. Ancaq siz bu zülmət qaranlıqda işıqlı, aydın dünyanı izləyirsiniz.

Üstəlik, bu, o qədər aydın və keyfiyyətli görüntüdür ki, XXI əsrin texnologiyası belə hər cür imkanı olmasına baxmayaraq, bu aydın görüntünü əldə edə bilmir. Məsələn, hal-hazırda oxuduğunuz kitaba, kitabı tutan əllərinizə baxın, sonra başınızı qaldırın və ətrafınıza baxın. Hal-hazırda gördüyünüz aydın və keyfiyyətli görüntünü başqa bir yerdə görmüsünüzmü? Bu qədər aydın görüntünü sizə dünyanın qabaqcıl televizor şirkətlərinin istehsal etdiyi təkmilləşdirilmiş televizor ekranı belə verə bilməz. 100 ildən bəri minlərlə mühəndis bu aydın görüntünü əldə etmək üçün çalışır. Bunun üçün fabriklər, böyük müəssisələr qurulur, tədqiqatlar aparılır, planlar və dizaynlar edilir.

Bir televizor ekranına baxın, bir də hal-hazırda əlinizdə tutduğunuz bu kitaba. Arada böyük aydınlıq və keyfiyyət fərqi olduğunu görəcəksiniz. Həm də televizorun ekranı sizə iki ölçülü görüntü göstərir, lakin siz üç ölçülü, dərin perspektivi olan görüntü izləyirsiniz.

Uzun illərdən bəri on minlərlə mühəndis üç ölçülü televizor icad etməyə, gözün görmə keyfiyyətini əldə etməyə çalışırlar. Bəli, üç ölçülü televizor kimi sistem istehsal edə bildilər, amma onu da eynəksiz üç ölçülü görmək mümkün deyil, həm də bu, süni üçölçülü görüntüdür. Arxa tərəf daha bulanıq, ön tərəf isə kağız dekorasiya kimi görünür. Heç bir zaman gözün gördüyü qədər aydın və keyfiyyətli görüntü əmələ gəlmir. Kamerada da, televizorda da mütləq görüntü itkisi olur.

Təkamülçülər bu keyfiyyətli və aydın görüntünü əmələ gətirən mexanizmin təsadüfən əmələ gəldiyini iddia edirlər. İndi birisi sizə otağınızdakı televizorun təsadüflər nəticəsində əmələ gəldiyini, atomların birləşib bu görüntünü əmələ gətirən aləti meydana gətirdiyini desə, nə düşünərsiniz? Minlərlə insanın birlikdə edə bilmədiyini şüursuz atomlar necə etsin?

Gözün gördüyündən daha bəsit görüntünü əmələ gətirən alət təsadüfən əmələ gəlmirsə, gözün və gözün gördüyü görüntünün də təsadüfən meydana gəlməyəcəyi çox açıqdır. Eyni vəziyyət qulağa da aiddir. Xarici qulaq ətrafdakı səsləri qulaq seyvanı vasitəsilə toplayıb daxili qulağa ötürür; daxili qulaq da bu titrəyişləri elektrik impulslarına çevirərək beyinə göndərir. Eynilə görmədə olduğu kimi, eşitmə prosesi də beyindəki eşitmə mərkəzində həyata keçir.

Göz üçün dediklərimiz qulağa da aiddir, yəni beyin işıq kimi səsə də qapalıdır, səs keçirmir. Ona görə, xarici aləm nə qədər səs-küylü olsa da, beyinin içi tamamilə səssizdir.

Buna baxmayaraq, ən aydın səslər beyində eşidilir. Səs keçirməyən beyninizdə orkestr simfoniyaları dinləyir, ətraf mühitin bütün səs-küyünü eşidirsiniz. Ancaq həmin anda həssas bir cihazla beyninizin içindəki səs səviyyəsi ölçülsə, burada səssizliyin hakim olduğu məlum olacaqdır. Aydın görüntü əldə etmək ümidi ilə texnologiyadan necə istifadə edilirsə, səs üçün də eyni səylər on illərdən bəri davam etdirilir. Səsyazma cihazları, musiqi mərkəzləri, bir çox elektron alət, səs qəbul edən musiqi sistemləri bu fəaliyyətlərin nəticələrindən bəziləridir. Ancaq bütün texnologiyaya və bu sahədə minlərlə mühəndis və mütəxəssis işləməsinə baxmayaraq, qulağın əmələ gətirdiyi qədər aydın və keyfiyyətli səs əldə edilməmişdir. Ən böyük musiqi sistemi şirkətinin istehsal etdiyi ən keyfiyyətli musiqi mərkəzini düşünün. Səsi qeyd etdikdə mütləq səsin bir hissəsi itir, az da olsa təhrif olur və ya musiqi mərkəzini işə saldıqda hələ musiqi çalmazdan əvvəl mütləq bir cızıltı eşidirsiniz. Ancaq insan orqanizmindəki texnologiyanın məhsulu olan səslər olduqca aydın və qüsursuzdur. İnsan qulağı heç vaxt musiqi mərkəzində olduğu kimi cızıltılı və ya təhrif olunmuş şəkildə səs eşitmir; səs necədirsə, tam və aydın şəkildə onu eşidir. Bu, insan yaradıldığı gündən bəri belədir. İndiyə qədər insanın istehsal etdiyi heç bir görüntü və səs cihazı göz və qulaq qədər həssas və keyfiyyətli qəbuledici olmamışdır. Ancaq görmə və eşitmə hadisəsində bütün bunların fövqündə duran çox böyük həqiqət də var.

## Beyinin içində görən və eşidən şüur kimə aiddir?

Beyinin içində parlaq, rəngli dünyanı izləyən, simfoniyaları, quşların civiltilərini dinləyən, gülü qoxulayan kimdir?

İnsanın gözlərindən, qulaqlarından, burnundan gələn siqnallar elektrik impulsu kimi beyinə ötürülür.

Biologiya, fiziologiya və ya biokimya kitablarında bu görüntünün beyində necə əmələ gəlməsinə dair bir çox şey oxuyursunuz. Ancaq bu mövzu haqqında ən mühüm həqiqətə heç bir yerdə rast gələ bilməzsiniz: beyində bu elektrik impulslarını görüntü, səs, qoxu və hiss kimi qavrayan kimdir? Beyinin içində gözə, qulağa, buruna ehtiyac hiss etmədən bütün bunları qavrayan bir şüur var. Bu şüur kimə aiddir?

Əlbəttə, bu şüur beyini təşkil edən sinirlər, yağ təbəqəsi və sinir hüceyrələrinə aid deyil. Elə buna görə, hər şeyin maddədən ibarət olduğunu zənn edən darvinist-materialistlər bu suallara heç cür cavab verə bilmirlər. Çünki bu şüur Allah'ın yaratdığı ruhdur. Ruhun görüntünü izləmək üçün gözə, səsi eşitmək üçün qulağa ehtiyacı yoxdur. Eyni zamanda, düşünmək üçün beyinə də ehtiyacı yoxdur.

Bu açıq və elmi həqiqəti oxuyan hər insan beyinin içindəki bir neçə sm3-lik, qapqaranlıq yerə bütün kainatı üçölçülü, rəngli, kölgəli və işıqlı şəkildə sığışdıran uca Allah'ı düşünüb, Ondan qorxub Ona sığınmalıdır.

## Materialist inanc

Bura qədər təhlil etdiklərimiz təkamül nəzəriyyəsinin elmi kəşflərə zidd iddia olduğunu göstərir. Nəzəriyyənin həyatın mənşəyi haqqındakı iddiası elmə ziddir, irəli sürdüyü təkamül mexanizmlərinin heç bir təkamül gücü yoxdur və fosillər nəzəriyyənin iddia etdiyi ara keçid formalarının yaşamadığını göstərir. Bu təqdirdə, əlbəttə, təkamül nəzəriyyəsi elmə zidd fərziyyə kimi bir kənara qoyulmalıdır.

Belə ki, tarix boyu dünya mərkəzli kainat modeli kimi bir çox düşüncə tərzi elmin gündəmindən çıxarılmışdır. Ancaq təkamül nəzəriyyəsi təkidlə elmin gündəliyində saxlanılır. Hətta bəzi insanlar nəzəriyyənin tənqid edilməsini elmə təcavüz kimi göstərməyə çalışırlar. Axı niyə? Bunun səbəbi təkamül nəzəriyyəsinin bəzi kütlələr üçün əl çəkilməz doqmatik inanc olmasıdır. Bu kütlələr materialist fəlsəfəyə kor-koranə bağlıdırlar və darvinizmi də təbiət haqqında yeganə materialist açıqlama olduğu üçün mənimsəyiblər. Bəzən bunu açıq şəkildə etiraf edirlər. Harvard Universitetindən məşhur genetik və eyni zamanda, qabaqcıl təkamülçülərdən olan Riçard Levontin əvvəlcə materialist, sonra elm adamı olduğunu belə etiraf edir:

“Bizim materializmə bir inancımız var, bu “a priori” (əvvəlcədən qəbul edilmiş, doğru fərz edilmiş) inancdır. Bizi dünya haqqında materialist açıqlama verməyə məcbur edən şey elmi metodlar və qanunlar deyil. Əksinə, materializmə olan “a priori” bağlılığımız səbəbi ilə dünya haqqında materialist açıqlama verən tədqiqat metodları və anlayışlarını uydururuq. Materializm mütləq doğru olduğuna görə də İlahi açıqlamanın səhnəyə çıxmasına icazə verə bilmərik”. (Richard Lewontin, “The Demon-Haunted World”, The New York Review of Books, 9 Ocak, 1997, səh. 28)

Bu sözlər darvinizmin materialist fəlsəfəyə bağlılıq uğrunda davam etdirilən bir doqma olduğunun açıq ifadəsidir. Bu doqma maddədən başqa heç bir varlıq olmadığını qəbul edir. Bu səbəbdən də cansız, şüursuz maddənin həyatı əmələ gətirdiyinə inanır. Milyonlarla müxtəlif canlı növünün, məsələn, quşların, balıqların, zürafələrin, pələnglərin, həşəratların, ağacların, çiçəklərin, balinaların və insanların maddənin öz daxilindəki reaksiyalarla, yəni yağan yağışla, çaxan şimşəklə, cansız maddədən əmələ gəldiyini qəbul edir. Əslində isə bu, həm ağıla, həm də elmə ziddir. Amma darvinistlər Allah’ın açıq-aşkar varlığını qəbul etməmək üçün bu ağıldan və elmdən kənar fikri cahilliklə müdafiə etməkdə davam edirlər.

Canlıların mənşəyinə materialist düşüncə ilə baxmayan insanlar isə bu açıq həqiqəti görəcəklər: bütün canlılar üstün güc, bilik və ağıla malik olan Yaradanın əsəridir. Yaradan bütün kainatı yoxdan var edən, ən qüsursuz şəkildə nizama salan və bütün canlıları yaradan Allah'dır.

## Təkamül nəzəriyyəsi dünya tarixinin ən təsirli sehridir

Burada bunu da bildirmək lazımdır ki, heç bir ideologiyanın təsiri altında qalmadan, sadəcə ağlını və məntiqini işlədən hər insan elm və mədəniyyətdən uzaq xalqların xurafatlarını xatırladan təkamül nəzəriyyəsinə inanmağın qeyri-mümkün olduğunu asanlıqla anlayacaqdır.

Yuxarıda da bildirildiyi kimi, təkamül nəzəriyyəsinə inananlar böyük bir çənin içinə bir çox atomu, molekulu, cansız maddəni dolduran və bunların qarışığından zaman ərzində düşünən, dərk edən, kəşflər edən professorların, universitet tələbələrinin, Eynşteyn, Habl kimi elm adamlarının, Frank Sinatra, Çarlton Heston kimi aktyorların, bununla yanaşı, ceyranların, limon ağaclarının, qərənfillərin çıxacağına inanırlar. Həm də bu cəfəng iddiaya inananlar elm adamları, professorlar, mədəniyyətli, təhsilli insanlardır. Bu səbəbdən, təkamül nəzəriyyəsi haqqında dünya tarixinin ən böyük və ən təsirli sehri ifadəsini işlətmək yerinə düşər. Çünki dünya tarixində insanların bu dərəcədə ağlını başından alan, ağıl və məntiqlə düşünmələrinə imkan verməyən, gözlərinin qarşısına sanki bir pərdə çəkib çox açıq olan həqiqətləri görmələrinə mane olan başqa inanc və ya iddia yoxdur. Bu, afrikalı bəzi qəbilələrin totemlərə, Səba xalqının Günəşə tapınmasından, hz. İbrahimin qövmünün düzəltdikləri bütlərə, hz. Musanın qövmünün qızıldan düzəltdikləri buzova tapınmalarından daha qorxulu və ağlasığmaz korluqdur. Əslində, bu vəziyyət Allah'ın Quranda işarə etdiyi ağılsızlıqdır. Allah bəzi insanların anlayışlarının bağlı olacağını və həqiqətləri görməkdən məhrum olacağını bir çox ayəsində bildirir. Bu ayələrdən bəziləri belədir:

**Həqiqətən, kafirləri əzabla qorxutsan da, qorxutmasan da, onlar üçün birdir, iman gətirməzlər. Allah onların ürəyinə və qulağına möhür vurmuşdur. Gözlərində də pərdə vardır. Onları böyük bir əzab gözləyir! (Bəqərə surəsi, 6-7)**

**... Onların qəlbləri vardır, lakin onunla anlamazlar. Onların gözləri vardır, lakin onunla görməzlər. Onların qulaqları vardır, lakin onunla eşitməzlər. Onlar heyvan kimidirlər, bəlkə də, daha çox zəlalətdədirlər. Qafil olanlar da məhz onlardır! (Əraf surəsi, 179)**

Allah "Hicr" surəsində də bu insanların möcüzələr görsələr də, inanmayacaq qədər sehrləndiklərini belə bildirir:

**Əgər onlara göydən bir qapı açsaq və oradan durmadan yuxarı dırmaşsalar yenə də: "Gözümüz bağlanmış, biz sehrlənmişik", - deyərlər. (Hicr surəsi, 14-15)**

Bu qədər geniş kütləyə bu sehrin təsir etməsi, insanların həqiqətlərdən bu qədər uzaq saxlanması və 150 ildən bəri bu sehrin pozulmaması isə sözlə ifadə edilməyəcək qədər heyrətli vəziyyətdir. Çünki bir və ya bir neçə insanın qeyri-mümkün ssenarilərə, cəfəng və məntiqsiz iddialara inanmalarını anlamaq olar. Ancaq dünyanın hər tərəfindəki insanların şüursuz və cansız atomların ani qərarla birləşib qeyri-adi mütəşəkkillik, nizam, ağıl və şüur nümayiş etdirərək qüsursuz sistemlə işləyən kainatı, həyat üçün uyğun hər cür xüsusiyyətə malik olan Yer planetini və saysız-hesabsız kompleks sistemdən ibarət canlıları meydana gətirdiyinə inanmasının sehrdən başqa heç bir açıqlaması yoxdur.

Allah Quranda inkarçı fəlsəfənin tərəfdarı olan bəzi şəxslərin etdikləri sehrlərlə insanlara təsir etdiklərini hz. Musa ilə firon arasında baş verən bir hadisə ilə bizə bildirir. Hz.

Musa firona haqq dini təbliğ etdikdə firon hz. Musaya öz bilici sehrkarları ilə insanların toplaşdığı bir yerdə qarşılaşmasını söyləyir. Hz. Musa sehrkarlarla qarşılaşdıqda əvvəlcə onların bacarıqlarını göstərməsini əmr edir. Bu hadisənin danışıldığı ayə belədir:

> **(Musa:) "Siz atın", - dedi. Onlar (əsalarını yerə) atdıqda, adamların gözlərini bağlayıb (sehrləyib) onları qorxutdular və böyük bir sehr göstərdilər. (Əraf surəsi, 116)**

Göründüyü kimi, fironun sehrkarları hz. Musa və ona inananlardan başqa insanların hamısını sehrləyə bilmişdilər. Ancaq onların atdıqlarına qarşı hz. Musanın ortaya qoyduğu dəlil onların bu sehrini, ayədəki ifadə ilə uydurduqlarını udmuş, yəni təsirsiz etmişdir:

**Biz də Musaya: "Əsanı tulla!" - deyə vəhy etdik. Bir də (baxıb gördülər ki,) əsa onların uydurub düzəltdikləri bütün şeyləri udur. Artıq haqq zahir, onların uydurub düzəltdikləri yalanlar isə batil oldu. (Sehrbazlar) orada məğlub edildilər və xar olaraq geri döndülər. (Əraf surəsi, 117-119)**

Ayələrdə də bildirildiyi kimi, əvvəllər insanlara sehrləyərək təsir göstərən bu şəxslərin etdiklərinin saxtakarlıq olmasının başa düşülməsi ilə sözügedən şəxslər alçalmışlar. Dövrümüzdə də bir sehrin təsiri ilə elmilik adı altında olduqca cəfəng iddialara inanan və bunları müdafiə etmək üçün həyatlarını qurban verənlər əgər bu iddialardan əl çəkməsələr, həqiqətlər tam mənası ilə üzə çıxdıqda və sehr pozulduqda alçalacaqlar. Belə ki, təqribən 60 yaşına qədər təkamülü müdafiə edən və ateist filosof olan, ancaq sonradan həqiqətləri görən Malkolm Maqeric təkamül nəzəriyyəsinin yaxın gələcəkdə düşəcəyi vəziyyəti belə açıqlayır:

"Mən özüm təkamül nəzəriyyəsinin xüsusilə tətbiq edildiyi sahələrdə gələcəyin tarix kitablarındakı ən böyük yumor hədəflərindən biri olacağına inandım. Gələcək nəsillər bu qədər çürük və qeyri-müəyyən hipotezin inanılmaz saflıqla qəbul edilməsini heyrətlə qarşılayacaqlar". (Malcolm Muggeridge, The End of Christendom, Grand Rapids: Eerdmans, 1980, səh. 43)

Bu gələcək uzaq deyil, əksinə, çox yaxın gələcəkdə insanlar "təsadüf"lərin ilah olmasının mümkünsüzlüyünü anlayacaqlar və təkamül nəzəriyyəsi dünya tarixinin ən böyük yalanı və ən güclü sehri kimi tərif ediləcəkdir. Bu güclü sehr böyük sürətlə dünyanın hər tərəfində insanlar üzərində təsirini itirməyə başlamışdır. Təkamül yalanının sirrinin öyrənən bir çox insan bu yalana necə aldandığını heyrət və təəccüblə qarşılayır.

**…Sənin bizə öyrətdiklərindən başqa bizdə heç bir bilik yoxdur!**

**Həqiqətən, Sən bilənsən, müdriksən!**

**(Bəqərə surəsi, 32)**